# 44 GÜN

VƏTƏN MÜHARİBƏSİ

# HULUSİ KILIÇ

## İNFORMASİYA CƏBHƏSİNDƏ

Günel Yaz
kitabın ideya müəllifi

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi
İnv. № 26489
PREZİDENT KİTABXANASI

Naşir:
**Səbuhi Şahmursoy**

Hazırlayan:
**Günel Yaz**

Redaktor:
**Cavid Qədir**

Korrektor:
**Səbinə Abdullayeva**

Texniki redaktor:
**Aytən Paşayeva**

Üz qabığının dizaynı:
**Günel Yaz**

© **"XAN" nəşriyyatı, Bakı-2021, 152 səh.**

**ISBN:** 9065328642135

Kitabda Azərbaycan Ordusunun Ermənistan Silahlı Qüvvələrinin təxribatlarına qarşı başladığı əks-hücum əməliyyatlarının ilk anlarından böyük zəfərlə nəticələnənə qədərki və ondan sonrakı dövrdə Türkiyə Cümhuriyyətinin Azərbaycan Respublikasındakı sabiq səfiri Hulusi Kılıçın mətbuata verdiyi müsahibələr və fikirlərinə yer verilmiş materiallarla tanış olacaqsınız.

# İLHAM ƏLİYEV: "UNUTMASINLAR Kİ, DƏMİR YUMRUQ YERİNDƏDİR..."



# HULUSİ KILIÇ:
# “AZƏRBAYCANIN ÜÇRƏNGLİ BAYRAĞI HƏR ZAMAN ÜRƏYİMİN ÜSTÜNDƏDİR”



# ÖN SÖZ

28 fevral 2008-ci il tarixində Bakı şəhərində vəzifəmin icrasına başladım. Azərbaycandakı səlahiyyət müddətim 15 sentyabr 2012-ci il tarixində başa çatdı. Bakıdan ayrılmazdan 2 gün əvvəl sağollaşmaq məqsədilə 13 sentyabr 2012-ci il tarixdə öz Prezidentim kimi gördüyüm cənab İlham Əliyevin qəbulunda oldum.

Qəbul zamanı cənab Prezidentə Azərbaycana – Vətənə xidmət etmək üçün gəldiyimi və həyatımın bundan sonrakı hissəsində də Azərbaycanın bir nümayəndəsi, vətəndaşı kimi işləməyə davam edəcəyəmi bildirdim.

Cənab Prezident Azərbaycanda çalışdığım dövrdə iki ölkəni bir-birinə daha da yaxın etmək üçün böyük səylər göstərdiyimi, bunu yüksək qiymətləndirdiklərini, Azərbaycan xalqının dostu olduğumu, Azərbaycanın vətənim olduğunu, başqa işdə də daim Azərbaycanla əlaqədə olacağıma əminliyini vurğuladı. Eləcə də buradakı fəaliyyətimin çoxşaxəli olduğunu, cəmiyyətdə böyük nüfuz qazandığımı və Azərbaycanı nə qədər ürəkdən sevdiyimi bildiyini ifadə etdi.

Cənab Prezidentin bu sözləri heç vaxt yadımdan çıxmayacaq.

Türkiyəyə qayıtdıqdan sonra cənab Prezidentlə görüş zamanı verdiyim sözə əməl edərək harada olmağımdan asılı olmayaraq Azərbaycan nümayəndəsi – səfiri kimi işlədim. Olduğum hər yerdə Azərbaycanın maraqlarını qorumağa, müdafiə etməyə, Qarabağın erməni işğalı altındakı ərazilərilə bağlı haqlı mübarizəsini çatdırmağa çalışdım.

Azərbaycan rəsmilərinin mənə göstərdiyi yaxınlıq və hörmət, həmçinin azərbaycanlı bacı-qardaşlarımın mənə olan sevgisi Azərbaycanla bağlarımı daha da gücləndirdi.

Can Azərbaycan, doğrudan da, ikinci vətənimdir!

44 günlük Vətən müharibəsi zamanı cənab Prezident İlham Əliyevin möhtəşəm tarixi çıxışlarına qulaq asdıqca, qardaş Azərbaycan xalqının cənab Prezidentin ətrafında birləşdiyini, qadağan edilən raketlərə qarşı sinəsini sipər etdiyini gördükcə, qəhrəman ordunun zəfər xəbərlərini yaxından izlədikcə böyük həyəcan hissi keçirdim. Can Azərbaycanımızın 30 ilə yaxındır, işğal altında olan torpaqlarını azad etməsinin sevinci, xoşbəxtlik və qürurunu mən də yaşadım.

Vətən müharibəsində özüm Ankarada olsam da, ruhum Qarabağda, dastan yazan qəhrəman əsgərlərimizin yanında idi.

44 günlük Vətən müharibəsinin sonunda qazanılan tarixi Zəfər can Azərbaycanla yanaşı, Türkiyə və Türk dünyasında böyük sevinc, qürur hissi ilə qarşılanıb.

Bu müddət ərzində Prezident, Ali Baş Komandan cənab İlham Əliyevin nümayiş etdirdiyi yüksək liderlik, Birinci vitse-prezident xanım Mehriban Əliyevanın və xalqın liderinə verdiyi dəstək, eləcə də müasir ordunun göstərdiyi qəhrəmanlıq dost, qardaş ölkələr tərəfindən yüksək qiymətləndirilib.

44 günlük Vətən müharibəsi və ondan sonra başda Prezident cənab Rəcəb Tayyib Ərdoğan olmaqla rəhbər şəxslərin qardaş Azərbaycana siyasi, diplomatik dəstəyi iki ölkənin birliyini gücləndirib, əlaqələrimizi, həmrəyliyimizi tarixin ən yüksək səviyyəsinə çatdırıb.

Birliyimiz gücümüzdə, gücümüz birliyimizdədir!

Demək olar ki, hər gün məqalələr yazdım, Türkiyənin və Azərbaycanın telekanallarındakı proqramlarda iştirak edərək cənab Prezidentin, can Azərbaycan xalqının, qəhrəman ordusunun yanında oldum, yazdığım məqalələr, teleproqramları vasitəsilə Türkiyə və Azərbaycan xalqlarına mənəvi dəstək verməyə çalışdım.



Nəticədə, gələcək nəsillərin də oxuması, ətraflı məlumata malik olması üçün 44 günlük Vətən müharibəsi zamanı və sonra – 30 aprel 2021-ci il tarixinədək olan dövrdəki müsahibələrimi, açıqlamalarımı, yazılarımı bir kitabda toplayaraq yayımlamağa qərar verdim.

Həmin məqalələri toplayan və kitabın hazırlanmasında böyük əməyi olan jurnalist Günel Ələsgərovaya səmimi qəlbdən təşəkkür edir, uğurlar arzu edirəm.

**Hulusi KILIÇ**
**Türkiyə Cümhuriyyətinin**
**Azərbaycan Respublikasındakı sabiq səfiri**
**1 iyun 2021-ci il**

# ERMƏNİSTAN DÜNYA İCTİMAİYYƏTİNİN DİQQƏTİNİ MÜNAQİŞƏNİN ƏSL MAHİYYƏTİNDƏN YAYINDIRMAQ İSTƏYİR



Ankara, 13.07.2020

"Hiyləgərlik və fitnəkarlıq Ermənistanda siyasi hakimiyyətlərdən bir-birinə miras qalan ənənədir. Son günlər Azərbaycanın Tovuz rayonuna hücumların arxasında bir neçə məkrli məqsəd dayanır. Ermənistan hərbi təcavüzkarlığını başqa istiqamətdə davam etdirməklə dünya ictimaiyyətinin diqqətini münaqişənin əsl mahiyyətindən, işğal faktından yayındırmaq istəyir".

Bu fikirləri Türkiyənin Azərbaycandakı sabiq səfiri Hulusi Kılıç AZƏRTAC-a müsahibəsində bildirib.



Bölgədə baş verən bütün xoşagəlməz hadisələrə görə Ermənistanın beynəlxalq hüquq qarşısında məsuliyyət daşıdığını diqqətə çatdıran səfir deyib: "Baş verənlər onillikləri əhatə edən erməni xəyalpərəstliyinin yaratdığı insanlıq cinayətidir. Təcavüzkar tərəfin hərbi-siyasi rəhbərliyinin tökülən qana görə öz toplumu qarşısında da hüquqi və mənəvi məsuliyyəti var. Heç şübhəsiz ki, əvvəllər olduğu kimi budəfəki təxribatın da əsl səbəbi həm dünya, həm də erməni ictimaiyyətinə məlumdur. Yaxşı olar ki, Paşinyan hökuməti sosial-iqtisadi və səhiyyə sahələrində ölkədəki böhranlardan çıxış yolunu başqa metodlarla həll etsin".

Türkiyənin hər zaman Azərbaycanın yanında olduğunu xatırladan diplomat diqqətə çatdırıb ki, işğal altındakı torpaqların azad olunması, eləcə də istənilən kənar müdaxiləyə qarşı Azərbaycan naminə canını fəda etmək Türkiyə vətəndaşı üçün şərəflidir.

Şəhid hərbçilərimizə Allahdan rəhmət, bütün xalqımıza səbir və dözüm, yaralılara tezliklə sağalmaq arzu edən keçmiş səfir təcavüzkar düşmənin qətiyyətlə yerinə oturdulmasından qürur duyduğunu ifadə edib. Vurğulayıb ki, bütün beynəlxalq ictimaiyyəti, o cümlədən BMT-nin aidiyyatı qurumlarını və ATƏT-i baş verənlərlə bağlı ədalətli mövqe bildirməyə dəvət edirik.

# AZƏRBAYCAN XALQI MİLLİ ORDUNUN YANINDADIR



14.07.2020

"Təcavüzkar Ermənistan hakimiyyəti hazırda təhlükəli oyun oynayır. Ermənistan hakimiyyətinin bu aqressiv, təxribatçı hərəkətinin məqsədi ölkəsində baş verən iqtisadi və sosial problemləri unutdurmaq, əhalinin diqqətini başqa istiqamətə çəkməkdir".

Bunu "Report"a Türkiyənin Azərbaycandakı keçmiş səfiri Hulusi Kılıç deyib.

H.Kılıçın sözlərinə görə, dünya koronavirus bəlası ilə mübarizə aparır və dövlətlər koronavirusla mübarizədə bir-birilərinə kömək, dəstək göstərirlər: "Belə bir məqamda Ermənistanın bu cür təxribatının nə mənaya gəldiyini hər kəs bilməlidir. İşğalçı dövlət Tovuzda mülki insanlara atəş açmaqdan çəkinmir. Ermənistanın yaratdığı süni problem danışıqlar yolu ilə həll olunmasını, ATƏT-in Minsk qrupunun vəzifə və məsuliyyətlərini yerinə yetirməsini gözləyirik".

O, Ermənistanın Azərbaycana qarşı təxribatçı hərəkətlərini pisləyib: "Beynəlxalq ictimaiyyət və təşkilatlar bu çirkin oyunu görməli və dərhal məsələyə mövqe nümayiş etdirməlidirlər. Ermənistan Azərbaycan ərazilərini işğal edib. Azərbaycan torpaqlarının azad edilməsi ilə bağlı BMT Təhlükəsizlik Şurası qətnamələr qəbul edib. Lakin Ermənistan bu günədək həmin qətnamələrin tələblərinə əməl etmir. İşğalçı dövlət Azərbaycan ərazilərindən geri çəkilməlidir. Azərbaycanın regionda siyasi və iqtisadi gücünün artması Ermənistanı narahat edir. Azərbaycan xalqı Prezident İlham Əliyevin və Milli Ordunun yanındadır".

H.Kılıç əlavə edib ki, türk xalqı Tovuzda baş verən hadisələri diqqətlə izləyir: "Dünən Türkiyənin Xarici İşlər naziri Mövlud Çavuşoğlu bəyan edib ki, Türkiyə Azərbaycanın yanındadır".

Xatırladaq ki, iyulun 12-də günorta saatlarından başlayaraq Azərbaycan-Ermənistan dövlət sərhədinin Tovuz rayonu ərazisindəki atəşkəs rejimini kobud şəkildə pozan Ermənistan silahlı qüvvələrinin bölmələri artilleriya qurğularından Azərbaycan mövqelərini atəşə tutublar. Hazırda şiddətli döyüşlər davam edir.

# TÜRKİYƏ VƏ AZƏRBAYCAN BİR MİLLƏT, İKİ DÖVLƏT OLDUĞUNU DÜNYAYA AÇIQ ŞƏKİLDƏ GÖSTƏRDİ



16.07.2020

"Türkiyə dövləti və xalqı Azərbaycanın yanındadır".

Bu sözləri "Sherg.az"a açıqlamasında Türkiyənin Azərbaycandakı keçmiş səfiri Hulusi Kılıç deyib.

Sabiq səfir işğalçı Ermənistanın Tovuz rayonu istiqamətində həyata keçirilən xain hücumunu qınayıb: "Bu, açıq-aşkar erməni təxribatıdır. Hücum nəticəsində şəhid olan hərbçilərimizə Allahdan rəhmət, yaralılara şəfa diləyirəm. Məlumdur ki, Ermənistan daxilində ciddi iqtisadi-sosial problemlər yaşanır. İrəvan hökuməti problemləri unutdurmaq, diqqəti başqa yönə cəlb etmək üçün bu cür təxribatlara əl atır. Prezidentimiz, Xarici İşlər və Müdafiə nazirlərimiz açıq şəkildə qardaş Azərbaycana dəstəklərini ifadə ediblər. Türk xalqı hər zaman Azərbaycanın yanındadır. Minlərlə gəncimiz təlimat gözləyir. Nə qədər ki gec deyil, Ermənistan ağlını başına yığmalıdır. Başda cənab Prezidentimiz olmaqla, həm Türkiyə dövləti, həm də türk xalqı Ali Baş Komandan İlham Əliyevin və Azərbaycan Ordusunun yanındadır. Hamı bunu bilsin. 30 ilə yaxındır, Azərbaycanımızın torpaqları işğal altındadır. Ermənilərin bu işğalı BMT tərəfindən də təsdiqlənib və Təhlükəsizlik Şurası 4 qətnamə qəbul edib. Bu qərarların ən qısa zamanda icra edilməsi çox vacibdir".

H.Kılıçın sözlərinə görə, Azərbaycanın son illərdə sürətli inkişafı, regionda nüfuzunun artması təcavüzkar Ermənistanın ciddi narahatlığına səbəb olub: "Azərbaycan gündən-günə çiçəklənir, tərəqqi edir. Təbii olaraq Ermənistan bundan təşvişə düşür. Dünyanın COVID-19 bəlası ilə mübarizə apardığı dönəmdə Ermənistanın Azərbaycan sərhəddinə çirkin təcavüzü ifşa olunmalı, dünya ictimaiyyəti buna düzgün qiymət verməlidir. Koronavirus pandemiyası ilə bağlı cənab Prezident İlham Əliyev BMT rəhbərliyinə çağırış edib. 130-dan çox ölkə Azərbaycan liderinin təklifinə dəstək verib. Yaxın günlərdə pandemiya ilə əlaqədar konfransın keçirilməsi gözlənilir. Sadəcə işğalçı Ermənistan bu humanist təklifə qarşı çıxıb. Bu da Ermənistan hökumətinin hansı xislətə sahib olduğunu göstərir".

Eks-səfir vurğulayıb ki, Azərbaycan Silahlı Qüvvələri 1991-1992-ci illərin ordusu deyil: "30 il əvvəl Azərbaycan Ordusu tam formalaşmamışdı, nizami qoşun yox idi. Bu gün qardaş Azərbaycan çox güclü, modern silahlarla təchiz olunmuş möhtəşəm orduya, ən əsası isə güclü, nüfuzlu siyasi liderə, onu dəstəkləyən xalqa malikdir. Paralel olaraq Türkiyə dövləti və xalqı da Azərbaycanın ən böyük

dəstəkçisidir. Ona görə də Azərbaycan istənilən savaşdan qalib çıxacaq. Erməni xalqı ölkədəki siyasi-iqtisadi problemlərdən dolayı Ermənistanı tərk edir. Minlərlə erməni qazanc üçün Türkiyədə çalışır. Əgər İrəvan hökuməti öz xalqının taleyini düşünürsə, sosial-iqtisadi problemlərin bitməsini arzulayırsa, dərhal öz xoşu ilə işğal etdiyi Azərbaycan torpaqlarından çəkilməlidir. Problemin həllinə çalışan ATƏT-in Minsk qrupunun həmsədr ölkələri, konkret olaraq Rusiya Qarabağ münaqişəsinin həlli istiqamətində üzərinə düşəni etməli, ABŞ, Fransa, Minsk qrupunun digər üzvləri Cənubi Qafqaz regionunda sülhü təmin etmək naminə daha aktiv işləməlidirlər.

Sülh regionun bütün xalqları üçün iqtisadi dirçəliş, sosial rifah və qarşılıqlı əməkdaşlıq deməkdir. Biz hər şeydən öncə problemin sülh danışıqları ilə bitməsini arzu edirik".



# AZƏRBAYCAN VƏ TÜRKİYƏ DİASPORLARI ERMƏNİLƏRİN HÜCUMLARI NƏTİCƏSİNDƏ YARANMIŞ GƏRGİN VƏZİYYƏTDƏ BİRGƏ HƏRƏKƏT ETMƏLİDİRLƏR



25.07.2020

"Azərbaycanın və Türkiyənin dövlət adamlarına, diplomatlarına çoxsaylı terror aktları törədən erməni vandalları yenə dinc insanlarımızı hədəfə alıblar. Sülhsevər dünya ictimaiyyəti yubanmadan xarici ölkələrdəki erməni özbaşınalığına etirazını bildirməlidir. Heç kəs unutmamalıdır ki, illərdən bəri beynəlxalq terrorizmin aparıcı gücünə çevrilən erməni terrorizmi hər zaman ağır cinayətlər üçün fürsət axtarıb".

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi
İnv. № -26489-
PREZİDENT KİTABXANASI

Bu fikirləri Türkiyənin Azərbaycandakı sabiq səfiri Hulusi Kılıç AZƏRTAC-a müsahibəsində bildirib.

Erməni lobbisinin birbaşa təşkilatçılığı və himayədarlığı ilə dünyanın müxtəlif bölgələrində fəaliyyət göstərən erməni terror təşkilatlarının, beyinləri qondarma "Böyük Ermənistan" ideologiyası ilə zəhərlənən erməni gənclərin Azərbaycana və azərbaycanlılara qarşı gündən-günə kütləvi hal alan total hücumlarının bütün dünya üçün təhlükə mənbəyi olduğunu diqqətə çatdıran H.Kılıç deyib: "Təcavüzkar Ermənistan ordusunun iyulun 12-dən başlayaraq Azərbaycanın Tovuz rayonu istiqamətindən qardaş ölkəyə son hücumları bir daha göstərdi ki, bu ölkəni idarə edən şəxslər bütün proseslərə hələ də xəstə təxəyyüllə yanaşırlar. Bütün bunlar azmış kimi dünyanın müxtəlif ölkələrinə səpələnmiş erməniləri Azərbaycanın diplomatik nümayəndəliklərinə və azərbaycanlılara qarşı hücumlara təhrik etmək abırsızlığın son həddidir. İstər Ermənistandakı rejimi idarə edənlər, istərsə də erməni lobbiçiləri unutmamalıdırlar ki, artıq yalan, iftira ilə dünyada "məzlum erməni" obrazı yaratmaq zamanı çox arxada qalıb. Bütün baş verənlər, o cümlədən Dağlıq Qarabağ münaqişəsi ilə bağlı həqiqətlər dünya ictimaiyyətinə, beynəlxalq təşkilatlara yaxşı məlumdur. İndi qəlbində azacıq vicdan, ədalət hissi olan şəxs dərhal internetdə baxır ki, Tovuz rayonu Azərbaycanın ərazisidir. Bu faktı bilən hər bir şəxs dərhal hücumun məqsədini başa düşür. Belə vəziyyətdə xarici ölkələrdəki erməniləri küçələrə axıdıb günahsız insanlara həyati təhlükə yaradaraq azərbaycanlıları qorxutmaq cəhdləri çox iyrənc siyasi niyyətdir".

Azərbaycanın Fransa, ABŞ, Niderland, Böyük Britaniya, İsveç, Polşa, Avstraliya, Belçikadakı və digər ölkələrdəki diplomatik nümayəndəliklərinə, həmçinin xarici ölkələrdə yaşayan azərbaycanlılara qarşı kütləvi erməni



hücumlarını vandalizm aktı kimi dəyərləndirən səfir deyib: "ASALA 1970-1980-ci illərdə 31 türk diplomatı və ailə üzvünü qətlə yetirib. Haqqında danışdığımız erməni hücumlarında iştirak edənlərdən birinin əynində ASALA yazılan köynək vardı. Lakin bunlar bizi qorxuda bilməz. Çünki haqq yoldayıq. Bununla belə, diqqətli və ehtiyatlı olmaq lazımdır. Prezident İlham Əliyevin dediyi kimi, bir millətin iki diasporu ola bilməz. Azərbaycan və Türkiyənin diaspor təşkilatları yubanmadan yaranmış gərginliyi birgə müzakirə edib dəyərləndirməli, ABŞ və Avropa ölkələri başda olmaqla, böyük şəhərlərdə dinc aksiyalarımız genişləndirilməlidir. Hər erməni hücumu həm Ermənistanın işğalçı simasını, həm də erməni lobbisinin yalan, riyakarlıq üzərində qurulan təbliğatını ifşa edir. Xaricdəki bütün azərbaycanlı qardaşlarıma müraciət edərək deyirəm: "Səbir və təmkininizi pozmayın. Sizə edilən hücumlar vəhşilikdir. Azərbaycanın haqq işi, Qarabağın azadlığı naminə dözümlü, səbirli olun və mübarizənizi qətiyyən azaltmayın".

# CİSMİM TÜRKİYƏDƏ OLSA DA, AĞLIM, RUHUM AZƏRBAYCANDADIR



26.07.2020

"Ermənistanın bu hücumları tamamilə ağlasığmaz hərəkətdir. Dünya pandemiya ilə mübarizə apardığı halda, Ermənistan Azərbaycanın dövlət sərhədindən dinc əhaliyə hücum edib. Bu, həqiqətən xain niyyətdir. Üstəlik, bunu Azərbaycanın ayağına yazmaq istəyir".

Bu fikirləri Türkiyənin Azərbaycandakı sabiq səfiri, tanınmış diplomat Hulusi Kılıç "525"ə açıqlamasında bildirib. Bölgədə baş verən bütün xoşagəlməz hadisələrə görə Ermənistanın beynəlxalq hüquq qarşısında məsuliyyət daşıdığını bildirən səfir deyib: "Əgər Azərbaycanın belə hücum planı olsaydı, işğal altında olan torpaqlarını geri almaq üçün hücum edərdi, Tovuz bölgəsindən yox. 2016-cı ildəki Lələtəpə əməliyyatında olduğu kimi. Ermənistan öz daxilindəki siyasi, iqtisadi, sosial, səhiyyə ilə bağlı problemlərinin həllini bu hücumlarla ört-basdır etmək istəyir. Budəfəki təxribatında hansı növbəti hiyləsi var? Nə səbəbə Tovuzu hədəf seçib? Tovuzdan keçən boru xətti hazırda təkcə Azərbaycan üçün deyil, digər region dövlətləri üçün də böyük strateji əhəmiyyətə malikdir. Bu bölgə uğrunda döyüşlərdə qardaş Azərbaycan yüksək rütbəli hərbçilərini şəhid verdi. Şəhidlərimizə Allahdan rəhmət diləyirəm!"

Son hadisələrin Azərbaycan xalqında güclü vətənpərvərlik ruhunun olduğunu bir daha göstərdiyini diqqətə çatdıran diplomat Azərbaycan xalqının dərin milli şüura malik olduğunu bildirib: "Hadisələr bir daha sübut etdi ki, bu xalqda nə qədər güclü vətənpərvərlik ruhu, orduya, dövlətə sarsılmaz etimad və sədaqət var. Bu etimad da Azərbaycan Prezidentinə güc verir".

Diplomat Türkiyənin hər zaman Azərbaycanın yanında olduğunu da vurğulayıb: "Türkiyənin Prezidentinin, Xarici işlər və Müdafiə nazirlərinin, Müdafiə Sənayesi İdarəsinin rəisinin, parlament rəhbərlərinin, eləcə də Türkiyə xalqının bütövlükdə qardaş Azərbaycana dəstəyini müşahidə etdik. Bu çox önəmlidir. Bir daha sübut olundu ki, Türkiyə və Azərbaycan eyni millətdir. Pakistanın, Ukraynanın, İraq türkmənlərinin, Krım türklərinin də son hadisələrə dəstəyi çox önəmli idi. Türk dövlətləri adından Türk Şurası da dəstək mesajı verdi. Bu məsələlərin arxasında, təəssüf ki, başqa güclər var, bunun fərqindəyik. Amma bu məsələdə Türkiyənin prinsipiallığı, Azərbaycan xalqı ilə dövlətinin bir olması o güclərə bir daha sübut etdi ki, bu birlik sarsılmazdır. Hələ 10 il əvvəl söyləmişdim ki, Türkiyə ilə Azərbaycan arasında izaholunmaz sevgi bağı var".

Diplomat beynəlxalq təşkilatların sözügedən məsələdəki mövqeyini pisləyib: "ATƏT-in Minsk qrupunun bu məsələdə nə qədər gücsüz olduğunu gördük. Qurum

Azərbaycan və Türkiyə xalqı arasında etimadını itirib. Birləşmiş Millətlər Təşkilatının 4 qətnaməsi heçə sayılır. Əgər BMT nüfuzlu, ciddi təşkilatdırsa, bu qətnamələrin icrasını tələb etməlidir. Əks təqdirdə, boş toplantılara, hüquqi qüvvəsi olmayan qərarlara ehtiyac yoxdur".

Hulusi Kılıç öz təcrübəsindən çıxış edərək hadisələrlə bağlı fikirlərini də bölüşüb: "Artıq Azərbaycan dövlətinin, xalqının, ordusunun sabaha çox hazırlıqlı olması lazımdır. Türkiyə ilə Azərbaycan arasındaki əməkdaşlığın daha sıx olması vacibdir. Türkiyə hər gün şəhid verir. İkinci Qafqaz İslam ordusu olacağını düşünmürəm, amma bu təkmildə güc olsa, bunun qarşısında heç bir qüvvə dayana bilməz".

Türkiyənin müxtəlif şəhərlərində – İstanbulda, Ankarada, Antaliyada, İğdırda, Əskişəhərdə Azərbaycan diasporunun xəttilə təşkil olunan etirazlara da münasibətini bildirən diplomat bunun fərqlilik yaratdığını, Türkiyədə cəmiyyətin diqqətini bu hadisələrə çəkdiyini söyləyib və bu aksiyaların başqa ölkələrdə də olmasının vacibliyini diqqətə çatdırıb: "Diaspor məsələsində Azərbaycanla Türkiyə bir olmalıdır. Amerikadakı diasporun da güclü fəaliyyətinə ehtiyac var. Hörmətli İlham Əliyevin "Bir millətin iki diasporu ola bilməz" və hörmətli Rəcəb Tayyib Ərdoğanın "Türkiyə ilə Azərbaycan bir ürəkdir" şüarlarını unutmamalıyıq".

Keçmiş səfir fikrini bu sözlərlə yekunlaşdırıb: «Cismim Türkiyədə olsa da, ağlım, ruhum Azərbaycandadır".



# GÖRÜNƏN ODUR Kİ, İŞĞALÇI TORPAQLARDAN ÖZ XOŞU İLƏ ÇIXMAQ NİYYƏTİNDƏ DEYİL



28.07.2020

Türkiyənin Azərbaycandakı sabiq səfiri, nüfuzlu diplomat Hulusi Kılıç iyulun 29-da başlayacaq birgə hərbi təlimlərdə iştirak etmək üçün qardaş ölkənin hərbi birliklərinin Naxçıvana gəlişini Moderator.az-a şərh edib: "Dünya gördü ki, "bir millət iki dövlət" anlayışı sözdə deyil, əməldədir. Bunu artıq hər kəs başa düşdü. Tovuz hadisələri zamanı prezidentimizin dəstək açıqlaması, Böyük Millət Məclisinin bəyanatı, xarici işlər, müdafiə, müdafiə sənayesi nazirlərimizin, eləcə də xalqın dəstəyi bütün dünyaya göstərdi ki, bir millət iki dövlət olaraq bu işğala boyun əymək niyyətində deyilik. Son 7-8 ildə Azərbaycan və Türkiyə birgə hərbi təlimləri gerçəkləşdirilir. Azərbaycanda səfir olduğum dövrdə də birgə hərbi təlimlərin keçirilməsini çox istəmişdim.

İyulun 29-da başlayacaq budəfəki birgə hərbi təlimlərsə ayrıca önəm kəsb edir. Türkiyə hər zaman Azərbaycanın yanında olduğunu əməli surətdə göstərmiş oldu. Bu hərbi təlimləri təqdir edirəm. Azərbaycanın modern ordusunun olduğundan da ayrıca qürur hissi keçirirəm. İşğalçı Ermənistanın bu günlərdə Tovuza xain hücumu zamanı da Azərbaycan Ordusu öz gücünü bir daha göstərdi. Budəfəki birgə təlim hər iki ölkə üçün motivasiya olacaq.

Bu hərbi təlimlər iki ordunun birgə əməkdaşlığı, qardaşların bir-birinə həmrəylik nümayişi, təcrübələrini paylaşmasıdır. Ümid edək ki, bölgədəki problemləri sülh yolu ilə çözmək mümkün olacaq. Biz hər zaman Atatürkün "Yurdda sülh, cahanda sülh" çağırışına sadiq qalmışıq. Amma görünən odur ki, işğalçı torpaqlardan öz xoşu ilə çıxmaq niyyətində deyil. Bizim beynəlxalq birlikdən başqa istəyimiz yoxdur. BMT TŞ-nin işğal olunmuş Azərbaycan torpaqları ilə bağlı 4 qətnaməsinin icra olunmasını tələb edirik. Azərbaycan kim nə deyir-desin, öz torpaqlarını müharibə yolu ilə də olsa, geri almaq haqqına sahibdir. Prezidentimiz və xarici işlər nazirimiz demişkən: "Ermənistan ağlını başına toplasın, bir an öncə işğala son qoysun".



# ONLAR DAĞLIQ QARABAĞDA QORXU İÇİNDƏ YAŞAYACAQLAR



02.09.2020

"İşğalçı Ermənistan müstəqillik qazandıqdan sonra qeyri-qanuni addımlar atmaqla – Suriya və Livandan erməni ailələrini, terrorçuları işğal edilmiş Azərbaycan ərazilərində məskunlaşdırmaqla məşğuldur".

Bu fikirləri Teleqraf.com-a açıqlamasında Türkiyənin Azərbaycandakı keçmiş səfiri Hulusi Kılıç bildirib.

Keçmiş səfir deyib ki, Ermənistanda hakimiyyətdə olan qondarma və saxta rejimin atmış olduğu bütün qanunsuz addımlar pislənilir.

O qeyd edib ki, oğru Ermənistan qeyri-qanuni yaşadığı evə başqa oğruları da dəvət etməklə məşğuldur: "Sözsüz ki, Livandan gələcək ermənilərdə və ailələrdə azacıq əxlaq olsa, başqasına aid torpaqlarda yaşamağa razı olmazlar. Onlarda isə bu cür əxlaqın olduğu görünmür. Dəqiq fak-

tdır ki, onlar başqasına aid torpaqlarda rifah içində deyil, qorxu içində yaşayacaqlar".

Hulusi Kılıç vurğulayıb ki, Ermənistan tərəfindən həyata keçirilmiş qanunsuz məşkunlaşdırma ATƏT-in faktaraşdırıcı missiyası tərəfindən də qeydə alınıb: "ATƏT isə bu günə qədər öz missiyasını yerinə yetirə bilməyib. Bu isə Azərbaycan tərəfi üçün vaxt itkisi ilə nəticələnib. Ona görə də ATƏT-in həmsədri olan 3 dövlət təcili əvəzlənməli, Türkiyə, Almaniya, İtaliya kimi dövlətlər ATƏT-in həmsədrlik missiyasını üzərinə götürməlidir".

Sabiq səfir bildirib ki, Ermənistanın qanunsuz əməlləri beynəlxalq humanitar hüquqa, eləcə də 1949-cu il Cenevrə Konvensiyasına və onun əlavə protokollarına ziddir: "İşğalçı Ermənistanın bu əməlləri açıq-aydın və kobud qanun pozuntusudur. Dünya ictimaiyyəti, beynəlxalq təşkilatlar Ermənistanın bu qanunsuz hərəkətlərinə sərt reaksiya verməlidir. Ermənistanın hüquq pozuntularına son qoymaq üçün zəruri sanksiyalar qəbul edilməli, konkret addımlar atılmalıdır".



# ERMƏNİSTANDAN QAÇMAQ İSTƏYƏN ƏHALİYƏ MESAJ VERİRLƏR Kİ, SİZİN YERİNİZƏ GƏLMƏK İSTƏYƏN ERMƏNİLƏR VAR



03.09.2020

"Ermənistandakı demoqrafik problem yerli hakimiyyəti həm narahat edir, həm də bütün zamanlarda olduğu kimi yenə bu məsələyə qazanc mənbəyi kimi baxırlar. Hazırda Dağlıq Qarabağda qanunsuz məskunlaşdırma cəhdində bu iki amil özünü göstərir. Azərbaycanın işğal altındakı torpaqlarda qanunsuz məskunlaşma yolverilməz hadisədir və bu cəhdin qarşısı qəti şəkildə alınmalıdır".

Bu fikirləri AZƏRTAC-a müsahibəsində Türkiyənin Azərbaycandakı sabiq səfiri Hulusi Kılıç bildirib.

Ermənilərin hər zaman faciə və fəlakətlərdən öz çirkin məqsədləri üçün istifadə etdiyini xatırladan Hulusi

Kılıç deyib: "Avqustun 4-də Livanın paytaxtı Beyrutda baş verən dəhşətli partlayış Ermənistan dövləti və erməni lobbisi üçün mövcud işğal faktı ilə bağlı Azərbaycana qarşı növbəti murdar təxribat fürsətinə çevrilib. Bu, tarixin ayrı-ayrı dövrlərində baş verən çoxistiqamətli təxribatların davamıdır. Beynəlxalq hüquq, ərazi bütövlüyünə və sərhəd toxunulmazlığına qarşı bütün konvensiyalar qanunsuz məskunlaşdırmanı qəti şəkildə qadağan edir. Ona görə də beynəlxalq ictimaiyyət, nüfuzlu təşkilatlar Livan ermənilərinin Azərbaycanın işğal altında olan ərazilərinə köçürülməsinə göz yuma bilməz".

Erməni mənbələrinə görə, Ermənistan əhalisinin kütləvi şəkildə ölkədən köçdüyünü və bunun əsas səbəbinin sosial problemlər, müharibə xofu olduğunu diqqətə çatdıran Hulusi Kılıç vurğulayıb ki, Qarabağdakı cinayətkar rejimin başçısı Araik Arutunyan Livanda yerləşən Kilikiya Katolikosluğunun rəhbəri, diaspor ermənilərinin dini lideri I Aramla danışıq əsnasında Dağlıq Qarabağın Livandan 100-150 erməni ailəsini qəbul etməyə hazır olduğunu bildirməsi riyakarlığın son həddidir. Qondarma rejimin rəhbəri bununla yerli ermənilərə də mesaj verir ki, baxın, siz qaçmaq istəyirsiniz, amma bu ərazilərə köçmək istəyənlər də var. Bu köç adı altında erməni lobbisinin dünya ermənilərindən pul yığmaq cəhdi onların öz cəmiyyətlərinə də saygısızlıqdır.



# İLHAM ƏLİYEVİN TÜRKİYƏYƏ DƏSTƏYİ QARDAŞLIQ MÜNASİBƏTLƏRİMİZİN NƏ QƏDƏR MÖHKƏM OLDUĞUNU BİR DAHA GÖSTƏRDİ




05.09.2020

"Türkiyə həmişə Azərbaycandan dəstək görüb və belə dəstəyə ehtiyacı olduğunu da heç zaman gizlətməyib. Prezident İlham Əliyevin Yunanıstanın Azərbaycana yeni təyin olunmuş səfirinin etimadnaməsini qəbul edərkən

söylədiyi fikirləri, Türkiyəyə növbəti dəstəyi ölkəmizdə böyük rəğbətlə qarşılandı. Bir daha əmin olduq ki, iki ölkə arasındakı qardaşlıq münasibətləri nə dərəcədə möhkəmdir.

Bu fikirləri AZƏRTAC-a açıqlamasında Türkiyənin Azərbaycandakı sabiq səfiri Hulusi Kılıç bildirib.

Prezident İlham Əliyevin 2014-cü ildə Praqada dövlət və hökumət başçılarının iştirakı ilə "Şərq tərəfdaşlığı" proqramının 5 illiyinə həsr olunan sammitdə Ermənistanın o vaxtkı prezidenti Serj Sarkisyana sərt cavab verdiyini, Türkiyəni müdafiə etdiyini, konkret faktlarla təcavüzkar dövlətin iddialarının əsassız olduğunu xatırladan Hulusi Kılıç Türkiyənin də hər zaman Azərbaycanın yanında olduğunu vurğulayıb. O deyib: "Prezident İlham Əliyevin liderlik xüsusiyyətlərindən danışarkən konkretlik və açıq, qətiyyətli mövqe nümayiş etdirmək kimi çox yüksək cəhətləri xüsusi qeyd etməliyəm. Praqmatik və açıq siyasətçi imici qazanmaq hər liderə nəsib olmur. Prezident İlham Əliyevin şəxsiyyətini türk xalqına sevdirən mühüm cəhətlərdən biri də məhz hər zaman Türkiyəyə tükənməz sevgisini açıq nümayiş etdirməsidir. Əminliklə deyə bilərəm ki, dövlət başçısının bu mövqeyi, açıq dəstək mesajları Azərbaycan-Türkiyə münasibətlərindəki tarixi qardaşlıq bağlarının daha da möhkəmlənməsinə təkanverici güc oldu".



# AZƏRBAYCAN-TÜRKİYƏ QARDAŞLIĞININ YÜKSƏLDİYİ MƏRTƏBƏ QÜRURVERİCİDİR



10.09.2020

İyul ayında Tovuz istiqamətində baş vermiş erməni təxribatından sonra Türkiyə rəsmi səviyyədə Azərbaycanı qətiyyətlə dəstəklədi və bu dəstək hərbi əməkdaşlıq formatında davam etdirildi. Türkiyənin Azərbaycana hərtərəfli dəstək göstərəcəyini bəyan etməsi hər iki ölkə cəmiyyətində sevinclə qarşılandı. Bu barədə Türkiyənin ölkəmizdəki sabiq səfiri, Azərbaycan dövlətinin nüfuzlu

mükafatına – "Dostluq" ordeninə layiq görülmüş Hulusi Kılıçla həmsöhbət olduq.

– Hulusi bəy, Türkiyə-Azərbaycan qardaşlığı, işbirliyi dərin köklərə söykənir. Lakin son aylar bu birlik həm də hərbi əməkdaşlıq sahəsində müşahidə olunmaqdadır. Xüsusən, Tovuz istiqamətində Ermənistanın hücumundan dərhal sonra Türkiyə Azərbaycana tam dəstək verməklə bu birliyin sarsılmaz olduğunu sübut etdi. Bu barədə fikirləriniz maraqlıdır...

– Türkiyə-Azərbaycan qardaşlığı çox əvvələ dayanır. Hələ 1915-ci ildə, Çanaqqala savaşında azərbaycanlı qardaşlarımız Türkiyəyə yardıma gedib və öz qardaşları ilə çiyin-çiyinə düşmənə qarşı vuruşublar. İndi Çanaqqalada bununla bağlı abidə də var. 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti qurulanda erməni-bolşevik qüvvələrinin hücumları baş verir. Azərbaycanlılara qarşı soyqırımı həyata keçirilir. Osmanlı dövləti 7 yerə parçalanmaq təhlükəsi ilə üz-üzə qalsa da, Azərbaycana yardım əlini uzadır və Nuru paşanın başçılığı ilə qardaşlarımıza dəstək üçün böyük ordu göndərir. Bu ordunun adı Qafqaz İslam Ordusu idi. Bildiyimiz kimi, o zaman Osmanlının müttəfiqi olsa da, Almaniya türk ordusunun Qafqazda olmasına qarşı çıxırdı. Ona görə də ordu Qafqaz İslam Ordusu adlandırılmışdı. Azərbaycan Sovet İttifaqının tərkibindən ayrılıb müstəqilliyini bərpa etdikdən sonra da onu ilk tanıyan dövlət məhz Türkiyə Cümhuriyyəti oldu. Türk dünyasının böyük oğlu Heydər Əliyevin hakimiyyətə gəlişindən sonra Azərbaycan-Türkiyə əlaqələri daha intensiv xarakter aldı. Ümummilli liderin zamanında Bakı-Tbilisi-Ceyhan neft kəmərinin əsası qoyuldu. Həmin vaxt buna qarşı çıxanlar olmuşdu. Lakin bu əməkdaşlıq başladı. O zaman türk ordusu öz təcrübələrini Azərbaycan Ordusu ilə paylaşmaq yolunu tutdu. Qardaş ölkənin ordusu modernləşdirildi.



Bu qardaşlıq o qədər irəlilədi ki, Azərbaycan bir çox neft və qaz layihəsinin Türkiyə ərazisindən keçməsini istədi. Bakı-Tbilisi-Ərzurum qaz layihəsi, TANAP layihəsi, "Petkim"dəki yatırımlar bu baxımdan çox önəmlidir. Bundan əlavə, Bakı-Tblisi-Qars dəmiryolu layihəsinin həyata keçirilməsi də vacib və siyasi məna daşıyan hadisə idi. Yəni bu qardaşlığın yüksəldiyi mərtəbə, həqiqətən, qürurvericidir. Buna görə də iyul ayında işğalçı Ermənistanın Tovuz istiqamətində təcavüzkar addımları, hücumları heç cür qəbul edilə bilməzdi. Pandemiya dönəmində problemlərin içində qıvrılan Ermənistan diqqəti başqa istiqamətə yönəltmək istəyir. Tovuz çox vacib, strateji yerdir. Sadaladığım layihələrin bir çoxu bu ərazidən keçir. Ermənilərin əsas məqsədi həmin layihələrin qarşısını kəsməkdir. Bu detala diqqət yetirmək lazımdır. Onların məqsədi Azərbaycanın böyük iqtisadi layihələrinə zərbə endirmək idi. Lakin Azərbaycan Ordusunun güclü müdafiə sisteminə malik olması Ermənistanın ümidlərini puç etdi. Bundan əlavə, Türkiyənin dəstək ifadəsi Ermənistanın regionda hərbi üstünlük şansını sıfıra endirir.

– Azərbaycan-Türkiyə qardaşlığı, ölkələrimizin bir-birinə hər mənada dəstəklərini bildirmələri Ermənistanı və onlara dəstək verənləri ciddi narahat edir. Ermənistan Türkiyənin Cənubi Qafqazda fəallığına qarşı qara-piar aparmaqdadır. Onlar dünya ictimaiyyətinin diqqətini əsas məsələlərdən yayındırmaq niyyəti güdürlər...

– Doğrudur. Türkiyənin Azərbaycana verdiyi dəstək, bu qardaşlıq təbii ki, bir çox gücləri narahat edir. Lakin Türkiyənin qərarlılığı, qətiyyəti yerindədir. Onlar Azərbaycan Ordusunun ermənilərə cavabını da, türk ordusunun dəstəyini də gördülər. Anladılar ki, bu məsələni öz xeyirlərinə həll etmək alınan deyil. Biz bunu görürük. Lakin regionda sülh və sabitlik istəyən dövlət kimi, bu münaqişənin həl-

lində maraqlıyıq. Xalqlarımız da gördü ki, heç bir dövlət münaqişənin həlli ilə bağlı iş görmək istəmir. ATƏT-in Minsk qrupu öhdəliklərini yerinə yetirmir. Dünya gördü ki, Türkiyənin Azərbaycana dəstəyi tam yerindədir. İnsan hüquqları institutları, ilk növbədə, erməni işğalına qiymət verməli, erməni terror və separatizminə qarşı olmalıdır. Kimin narahatlıq keçirməsi bizi maraqlandırmamalıdır. Çünki biz bir millətik. Azərbaycanın işğal edilən torpaqları qədim türk torpaqlarıdır. Bu torpaqların ermənilərə heç bir aidiyyatı yoxdur. Onlar bunu yaxşı anlayırlar. Artıq xalqlarımız hər doğulan uşağın qulağına "biz bir millət, iki dövlətik", – deyir və deməliyik. Hər yerdə bildirirəm ki, Türkiyə Suriyada hərbi əməliyyatlar aparan zaman Azərbaycandan minlərlə gəncin savaşmaq üçün türk ordusunun tərkibinə könüllü qatılmaq istədiklərinin şahidi oldum. Tovuzda da, həmçinin Türkiyə vətəndaşları, gəncləri eyni həssaslığı göstərirdilər, ürəkləri Azərbaycanla döyünürdü. Baxın, bu qardaşlığımız hansı mərtəbəyə yüksəlib. Fikrim yanlış anlaşılmasın, biz sülh istəyirik. Amma savaşacağıqsa, buna da hazırıq. Aprel döyüşləri sübut etdi ki, Azərbaycan müharibə etməyi də, düşmənə qalib gəlməyi də bacarır. Ermənilərin onda necə qaçdığını da yaxşı gördük. Vəziyyət tələb edəcəksə, yenə savaşacağıq. Tovuz təcavüzündə Azərbaycan-Türkiyə qoşunlarının hərbi təlimləri onlara çox önəmli mesaj oldu. Azərbaycana gələn türk ordusu bunu açıqca göstərdi. Həm xarici işlər, həm müdafiə nazirlərimizin, həm də dövlət başçımızın sərt, qətiyyətli bəyanatları da bunu göstərdi. Cənab general Hulusi Akarın böyük ordu generalları heyəti ilə Azərbaycana mühüm səfərinin həmin kritik dönəmə təsadüf etməsi də Azərbaycan və Türkiyə xalqı tərəfindən böyük sevinclə qarşılandı. Azərbaycanın yeni təyin olunan Xarici İşlər naziri Ceyhun Bayramovun ilk rəsmi səfərini Türkiyəyə etməsi və Müdafiə nazirinin də iştirakı belə məqamlarda qardaşlığımızın düyün nöqtələri kimi qiymətləndirilir. Necə deyərlər, gücümüz birliyimizdə, birliyimiz gücümüzdədir.



– Hər iki qardaş dövlətin rəhbəri təmənnasız olaraq dəfələrlə bir-birinə dəstəklərini ifadə ediblər. Bu dəfə də Azərbaycan Prezidenti İlham Əliyev Yunanıstan səfirini qəbul edərək ona Türkiyəni dəstəkləyəcəyimizi, Türkiyə ilə qardaş olduğumuzu qəti olaraq bildirdi. Prezidentin bu örnək davranışını region güclərinə ciddi mesaj kimi şərh edənlər də var. Bəs siz necə düşünürsünüz?

– Türkiyə liderləri hər zaman Azərbaycana dəstəyini ifadə ediblər. Onu da deyim ki, 5 il Azərbaycanda səfir kimi fəaliyyət göstərmişəm və bir məsələnin hər dəfə şahidi olmuşam ki, cənab İlham Əliyevlə cənab Rəcəb Tayyib Ərdoğan arasında çox səmimi qardaşlıq münasibətləri mövcuddur. Bu çox sevindiricidir və inamla davam etdirilir. Tovuzdakı təcavüzdən sonra da bu səmimi münasibət, qardaşlıq özünü ən bariz şəkildə göstərdi. Cənab Prezidentin Yunanıstan səfirini qəbul edərkən dediyi fikirləri Türkiyə rəsmiləri, mətbuat və xalqımız yüksək səviyyədə dəstəklədi. Bildiyimiz kimi, Aralıq dənizində də mübahisə var. Bu mübahisədə bəzi dövlətlər Yunanıstanı dəstəkləyir. Bunların içində Misir, Səudiyyə Ərəbistanı, Fransa var. Belə bir dönəmdə Azərbaycanın dəstəyini ifadə etməsi tam yerinə düşdü. Cənab İlham Əliyevin sözləri, əslində, yunan rəhbərliyinə yönəlmişdi və bu, kəskin ismarıc oldu. Bizim qardaşlığımızı bir daha bütün dünya gördü. Cənab Prezidentin yunan səfirinə sözləri bizim üçün çox dəyərlidir. Belə hallar dünyada çox nadir baş verir. Prezident İlham Əliyevin Ermənistanın sabiq prezidenti Serj Sarkisyana verdiyi cavabı da unutmuruq. Onda Türkiyənin əleyhinə danışmağa başlayan erməni liderə qəti şəkildə yerini göstərən cənab İlham Əliyev demişdi: "Türkiyə yoxdur,

amma mən buradayam. Mən sizin cavabınızı verəcəyəm!" Bu səhnələr məndə dərin hisslər yaradıb. Hər kəs bunu bilsin ki, mən də ömrümün sonuna qədər həm Türkiyənin və Azərbaycanın səfiri olacağam. Bildiyiniz kimi, Moldova Respublikasında da səfir olmuşam, amma özümü həm də Azərbaycanın səfiri kimi hiss edirdim.

– Hulusi bəy, sizcə, ortaq qərarlarımızı, birlik nümayişlərimizi hansı sahələrdə qərarlaşdırsaq, doğru olar?

– Ilk növbədə, ortaq qərarımızı bütün sahələrdə birləşdirməyimiz lazımdır. İqtisadi sahə olduqca önəmlidir. Hərbi sahədə birliyimiz mütləqdir. Bu həm də dövlətin qarantına çevriləcək səviyyədə olmalıdır. Bu birlik həm də bütün türk dövlətlərinə aiddir. Türk Şurası çərçivəsində də bu işlər aparılmalıdır. Biz bu coğrafiyadakı xalqlara yox, müstəmləkə təfəkkürünə, işğalçılığa qarşıyıq. Sadəcə, Ermənistan dövləti regionda sülhün təmin olunmasına böyük əngəl törətdiyi üçün biz onlara qarşıyıq.



# ERMƏNİSTAN BEYNƏLXALQ HÜQUQUN BÜTÜN DƏYƏRLƏRİNİ AYAQ ALTINA ATIR



27.09.2020

Azərbaycanın qüdrətli ordusu xalqın müdafiəsi, ölkənin ərazi bütövlüyünün bərpası iqtidarındadır. Ən əsası, Azərbaycan xalqı Prezident İlham Əliyevin ətrafında sıx birləşir və hər bir soydaşımız müfəssəl əsgər kimi torpaqlarının müdafiəsindədir.

Bu fikirləri Türkiyənin Azərbaycandakı sabiq səfiri Hulusi Kılıç AZƏRTAC-a müsahibəsində bildirib.

Ermənistanın otuz ilə yaxın dövrdə Azərbaycana qarşı həyata keçirdiyi işğalçılıq siyasətinin davam etməsinin yolverilməzliyini vurğulayan diplomat deyib: "Ermənistan beynəlxalq hüququn bütün dəyərlərini ayaq altına atır.

İşğalçı dövlət dərhal Azərbaycan torpaqlarından çəkilməlidir. Geriyə atılacaq heç bir addım yoxdur. Hər Türkiyə vətəndaşı can Azərbaycanla birlikdədir. Şəhidlərimizin ruhu şad olsun! Hər birimiz şəhid olmaqdan şərəf duyarıq!"



# İLHAM ƏLİYEVİN QƏTİYYƏTLİ MÖVQEYİ ERMƏNİSTANIN İŞĞALÇILIQ SİYASƏTİNƏ SON VERİLMƏSİ ÜÇÜN TARİXİ İMKAN YARADIB



28.09.2020

Türkiyənin nüfuzlu "TRT HABER" telekanalı Ermənistan silahlı qüvvələrinin sentyabrın 27-də davamlı olaraq həyata keçirdiyi növbəti təxribat səbəbindən bölgədə yaranmış hərbi qarşıdurmanın səbəb və nəticələri ilə bağlı xüsusi proqram yayımlayıb.

Axar.az xəbər verir ki, Türkiyənin Azərbaycandakı sabiq səfiri Hulusi Kılıç, görkəmli alimlər Toğrul İsmayılov, Çağrı Ərhan və Giray Sadık tanınmış teleaparıcı Bətul Soysal Bozdoğanın qonağı olublar.

Proqramın qonaqları yaranmış gərginliyi ayrı-ayrı istiqamətlər üzrə təhlil ediblər. Prezident İlham Əliyevin hadisə ilə bağlı Azərbaycan xalqına müraciəti, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Azərbaycan Prezidenti İlham Əliyevə telefon zəngi, Prezident Administrasiyasının, Müdafiə Nazirliyinin rəsmi məlumatları, təcavüzkar tərəfin hücumlarının səbəb və məqsədləri, düşmənin mülki əhalini atəşə tutması, dinc əhalinin vəhşicəsinə qətlə yetirilməsi, dünya ictimaiyyətinin münaqişənin qızışmasına münasibəti, eləcə də digər mühüm məsələlər barədə türkdilli tamaşaçılara müfəssəl məlumat verilib.

Ümummilli lider Heydər Əliyevin 1993-cü ildə siyasi hakimiyyətə gəlişi ilə Azərbaycanın dövlətçiliyinin böyük təhlükələrdən xilas olduğunu diqqətə çatdıran Hulusi Kılıç bildirib ki, Prezident İlham Əliyevin qətiyyətli mövqeyi Ermənistanın işğalçılıq siyasətinə son verilməsi üçün tarixi imkan yaradıb.



# AZƏRBAYCANIN QƏLƏBƏSİ REGİONDA İNTİBAH YARADACAQ



29.09.2020

"Türkiyə dünən də, bu gün də Azərbaycandakı savaşı, demək olar ki, yaşadı. Rəsmilərimiz, millət vəkillərimiz, siyasi partiyalarımız, telekanallarımız, bütövlükdə mətbuatımız, qeyri-hökumət təşkilatlarımız və bütövlükdə cəmiyyətimizin fikri, düşüncəsi bu an Azərbaycandadır".

Bunu Türkiyənin Azərbaycandakı keçmiş səfiri Hulusi Kılıç APA-ya açıqlamasında deyib.

H.Kılıç bildirib ki, iki qardaş ölkə arasında əlaqələr bu il iyulun 12-də Azərbaycanın sərhəd rayonu olan Tovuza Ermənistan tərəfindən edilən haqsız hücumlardan sonra daha da intensivləşib.

Diplomat diqqətə çatdırıb ki, Türkiyə ilə Azərbaycanın sarsılmaz əlaqələrinin tarixi keçmişi var: "Birinci Dünya

müharibəsindən sonra zəifləyən Osmanlı dövləti 1915-ci il Çanaqqala savaşında Azərbaycan türklərindən xüsusi dəstək alıb. Çanaqqala uğrunda minlərlə azərbaycanlı şəhid olub, Çanaqqalada onların şərəfinə abidə də qoyulub.

1918-ci ildə Azərbaycan müstəqil dövləti qurduqdan sonra Ermənistan "Böyük Ermənistan" xəyalı ilə Azərbaycana torpaq iddiasına qalxır. Azərbaycanın bir çox bölgələri, o cümlədən Bakı Erməni Daşnaksütyun Partiyası tərəfindən ələ keçirilir və qətliamlar törədilir. Azərbaycan Osmanlıdan dəstək istəyir. Osmanlı yaxın keçmişdə olan dəstəyi dəyərləndirir və 7 min qoşunla Qafqaz İslam Ordusu yaradılır. Bu ordunun komandanı Nuri Paşanın rəhbərliyi altında Bakı ermənilər və bolşeviklərdən təmizlənir.

Bundan başqa, 1921-ci ildə Sakarya qələbəsində də Azərbaycan türklərinin xidməti var.

Çox yaxşı olardı ki, Azərbaycan və Türkiyə gəncliyi bu tarixi faktları dərindən öyrənsin.

1991-ci ildə Azərbaycan müstəqillik qazandıqda bunu ilk tanıyan ölkə Türkiyə olur. 1999-cu ildə mərhum Heydər Əliyev Azərbaycan neftinin Xəzər dənizindən Türkiyənin Ceyhan limanına gətirən Bakı-Tbilisi-Ceyhan neft kəmərinin çəkilməsi üçün çox böyük qüvvələrlə üz-üzə dursa da, bu layihəyə imza atır. 2003-cü ildə İlham Əliyev hakimiyyətə gələndən mərhum atasının bu uzaqgörən siyasətini və layihələrini davam etdirir. Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin çəkilməsi buna misaldır. Azərbaycan Türkiyəyə 20 milyard dollara yaxın yatırım edib. 2009-cu ildə Türk Şurası yaradılanda Türkiyə bu yola Azərbaycanla çıxdı, sonra digər türk dövlətləri bu birliyə qatıldı. Təbii ki, Azərbaycanla Türkiyəni qüdrətləndirən layihələr də bölgədə yalnız öz mənfəətini güdən ölkələri narahat edir".

H.Kılıç vurğulayıb ki, Azərbaycanla Türkiyənin həmrəyliyinin, birliyinin daha da güclənməsi regionda-



kı ölkələrlə yanaşı, imperialist gücləri də narahat edir. Sözügedən ölkələr səfalət içində olan təxribatçı Ermənistandan bu məsələdə alət kimi yararlanırlar: "Ermənistan hər zaman yaratdığı təxribatları ilə mövcud olub və onun provakasiyalarından hər zaman imperialist qüvvələr istifadə edib. Amma hazırda Türkiyənin də, xüsusilə, hərbi təlim dəstəyi sayəsində Azərbaycanın qüdrətli ordusu var. Azərbaycan 30 il dialoq yolu ilə bu problemin həllinə çalışdı. Amma ATƏT-in Minsk qrupunun üzvü ABŞ, Rusiya, Fransa erməni diasporunun ən güclü olduğu ölkələrdir. Bu 3 ölkə indiyədək Qarabağ problemini həll etmədi. Hadisələrin gedişi də onu göstərir ki, Azərbaycan Ermənistanın haqsız hücumlarına cavab verib işğaldakı tarixi torpaqlarını geri alacaq. Türkiyə ilə Azərbaycan ən çətin anında bir-birinin yanında olur. Yəni qarşılıqlı olaraq bir-birimizə can borcumuz var. Ona görə də bu haqq işində Türkiyə tam qəlbi və canı ilə Azərbaycanın yanındadır. Bu ədalətli mübarizəsində Azərbaycanın qalib olacağına əminəm. Bu, yalnız Azərbaycanın deyil, region dövlətlərinin qələbəsi olacaq. Beləcə, Ermənistan xalqı da səfalətdən qurtulacaq. Azərbaycanın qələbəsi regionda intibah yaradacaq".

# BİRLİYİMİZ BÖLGƏDƏKİ DİGƏR ÇİRKLİ İŞLƏRLƏ MƏŞĞUL OLAN QÜVVƏLƏRİ NARAHAT EDİR



29.09.2020

2008-2012-ci illərdə Türkiyənin Azərbaycandakı fövqəladə və səlahiyətli səfiri, 2012-2016-cı illərdə Türkiyə Xarici İşlər Nazirliyində Afrika Baş idarəsinin müdiri, sonra isə bir müddət ölkəsinin Moldovadakı səfiri vəzifəsində çalışan Hulisi Kılıç "Hürriyyət"in Türkiyə və Azərbaycan arasında olan qarşılıqlı hərbi əlaqələr haqqında olan suallarını



cavablandırıb. Türkiyənin tanınmış diplomatı indiyə qədər minlərlə azərbaycanlı əsgər və zabitin türk hərbi məktəblərində təhsil aldığını, onların hətta Azərbaycan Ordusunda yüksək vəzifələrdə qərarlaşdığını bildirib. O, ən son Tovuz hadisələrində şəhid olan general-mayor Polad Həşimovun da türk hərbi məktəbinin məzunu oluğunu deyib:

– Türkiyə və Azərbaycanın hərbi sahədə əməkdaşlığı indiki durumda sizi qane edirmi?

– Türkiyə-Azərbaycan hərbi əlaqələri beynəlxalq səviyyədə dəyərləndirildikdə ən yüksək səviyyədədir. Siyasi münasibətlərdəki strateji əməkdaşlıq, hərbi əlaqələrdə də strateji səviyəyə çatıb. 1992-ci ildən bəri hərbi fəaliyyətlərin bütün sahələrində əlaqələr qarşılıqlı və davamlı inkişaf etməkdədir. Türkiyə hərbi məktəblərində hələ də yüzlərlə azərbaycanlı tələbə təhsil alır. İndiyə qədər minlərlə əsgər və zabit hərbi məktəblərimizdə təhsil alıb, onlar hətta Azərbaycan Ordusunda yüksək vəzifələrdə qərarlaşıb. Elə Tovuz hadisələrində şəhid olan general-mayor Polad Həşimov da türk hərbi məktəbinin məzunu olub. Eyni zamanda, türk hərbiçiləri Azərbaycanın hərbi məktəblərində təhsil almaqdadır. 1992-ci ildən bəri türk hərbiçiləri Azərbaycan Ordusunda məsləhətçi fəaliyyətlərini yürüdərək bu sferadakı təcrübələrini və biliklərini çatdırır. Bu, həm sülh, həm də müharibə dövründə eyni nəzəriyyə və doktrinanı tətbiq etmək imkanı verir. Qarşılıqlı olaraq kəşfiyyat sahəsində anlaşaraq, məlumatların paylaşımı edilir. Eyni zamanda, NATO və sülh üçün ortaq fəaliyyətlərində başda Əfqanıstan olmaqla, birlikdə Türkiyənin NATO təcrübəsi Azərbaycana, Azərbaycanın hərbi təcrübəsi isə türk birliklərinə ötürülür. Xüsusilə, tağım komandiri, bölük komandiri, tabor komandiri səviyyəsində hərbi hissə birləşmələri dəyişərək türk hərbiçiləri Azərbaycanda, Azərbaycan hərbiçiləri Türkiyədəki hərbi birləşmələrdə

qulluq etməkdədir. Ailə mübadilə proqramları ilə ailələrlə qarşılıqlı ziyarətlər edilir. Müdafiə sənayesində çox böyük əməkdaşlıqlar, əsasən də rabitə sahəsi üzrə aparılır. Rabitə sistemi vasitəsilə müharibə və sülh vəziyyətində əlaqə qurmaq imkan qazanılıb. Beləliklə, bu əməkdaşlığın dünyada bənzəri yoxdur. Önümüzdəki dövrdə bəlkə qarşılıqlı hərbi baza yaradılması ilə bu əlaqələr ən yüksək səviyyəyə çatdırıla bilər.

– Hər zaman Türkiyə Azərbaycanın, Azərbaycan Türkiyənin yanındadır. Sizcə, bu birlik hansısa qüvvələri narahat edirmi?

– Gücümüz birliyimizdə, birliyimiz gücümüzdədir. Bu birlik əsrlərdir davam edir. Birliyimiz ilk növbədə işğalçı Ermənistanı narahat edir. Bundan əlavə, birliyimiz təbii olaraq bölgədəki digər çirkli işlərlə məşğul olan qüvvələri də narahat etməkdədir. Bütün bunlara rəğmən Türkiyə-Azərbaycan birliyi və qardaşlığı gündən-günə güclənir. Birliyimiz dost ölkələri sevindirir. Türkiyə və can Azərbaycan olaraq kiminsə torpağında gözümüz yoxdur. Ancaq torpaqlarımızı işğal edənlərdən geri almaq gücümüz var. Əlbəttə, qan tökülməsini istəmirik və problemin sülh yolu ilə həllini gözləyirik. Ancaq səbrimizin bitdiyini hər kəsin bilməyini, BMT və ATƏT-in öhdəliklərini ən qısa müddətdə yerinə yetirməsini gözləyirik.



# GƏNCƏNİ, DİNC ƏHALİNİ ATƏŞƏ TUTMAQ ERMƏNİSTANIN TERRORÇU MAHİYYƏTİDİR



04.10.2020

Təcavüzkar Ermənistan hərbi meydanda uğursuzluğa düçar olduqca daha da aqressivləşir. Əslində, Ermənistanın 30 ilə yaxın zaman kəsiyində Azərbaycana qarşı həyata keçirdiyi işğalçılıq siyasətindən geri çəkilmək istəməməsi ilə hazırda dinc azərbaycanlı əhaliyə qarşı hücumlar etməsi bir-birini tamamlayan cinayətlərdir. Digər ətraf bölgələrdə olduğu kimi Gəncəni, dinc əhalini Ermənistan əra-

zisindən atəşə tutmaq bu forpostun terrorçu mahiyyətidir. Bu hərəkətlər beynəlxalq səviyyəli cinayətdir.

Bu fikirləri AZƏRTAC-a müsahibəsində Türkiyənin Azərbaycandakı sabiq səfiri Hulusi Kılıç bildirib.

Dünya ictimaiyyətini, eləcə də ATƏT-in Minsk Qrupunu ikiüzlülükdə ittiham edən H.Kılıç deyib: "Ermənistan və havadarlarının Azərbaycanın dinc əhalisinə, mülki şəxslərin evlərinə atəş açmaqda məqsədi Azərbaycan Ordusunun Qarabağı işğaldan azad etmək üçün başladığı zəfər hərəkatını dayandırmaqdır. Düşmən hələ də başa düşmək istəmir ki, Azərbaycan xalqı heç bir halda işğal faktının davam etməsini qəbul etməyəcək. Düşmən mülki əahalini hədəfə aldıqca Azərbaycan xalqı daha mütəşəkkil olaraq Prezident İlham Əliyevin ətrafında birləşib müzəffər ordusuna dəstək verəcək. Artıq Azərbaycanda hər kəs, hər bir vətəndaş müsəlləh əsgər ruhunda Qarabağın işğaldan azad olunması prosesinə qoşulub".



# QARABAĞ AZƏRBAYCANDIR!




05.10.2020

"Bu gün Azərbaycanda güclü bir lider var və bu liderin ətrafında güclü ordu, ona güvənən, etimad edən xalq dayanıb".

Bunu APA-nın yerli bürosuna açıqlamasında Türkiyənin Azərbaycandakı sabiq səfiri Hulusi Kılıç deyib.

O bildirib ki, qəhrəman Azərbaycan Ordusu irəlilədikcə Ermənistan hərbi-siyasi nüfuzunu itirir və daha da aqressivləşir: "Ermənistanın Gəncə şəhərinə və Tərtər rayo-

nuna hücumlarını qətiyyətlə pisləyirəm. Bu hücumları ilə Ermənistan terror dövləti olduğunu bir daha sübut edib".

Diplomatın sözlərinə görə, Ermənistanın Gəncə şəhərinə qadağan olunmuş bomba atması, artıq həddini aşdığını göstərir: "Ermənistan hesab edirdi ki, bu dəfə də beynəlxalq təşkilatlar onu dəstəkləyəcək. Onsuz da indiyədək beynəlxalq qurumların laqeydliyi ucbatından Ermənistan bu qədər ərköyünləşib. Azərbaycan torpaqlarının işğal edilməsi BMT Təhlükəsizlik Şurasının qətnamələrində əksini tapıb. Ermənistanın hücumları Azərbaycanı başladığı haqlı mübarizədən geri döndərə bilməyəcək".

H.Kılıç qeyd edib ki, atəşkəs çağırışı edən dövlətlər bu çağırışı Azərbaycana yox, Ermənistana etməlidirlər: "Təcavüzkar, işğalçı, ilk hücum edən Ermənistandır".

O vurğulayıb ki, Türkiyə dövləti və xalqı Azərbaycanın yanındadır: "Qarabağ Azərbaycandır!"



## ATƏŞKƏS XAHİŞ EDƏNLƏR 30 İLDİR, HARADAYDILAR?



06.10.2020

"Bu gün Azərbaycanda güclü bir lider var və bu liderin ətrafında güclü ordu, ona güvənən, etimad edən xalq dayanıb".

Bu sözləri Metbuat.az-a Türkiyənin Azərbaycandakı sabiq səfiri Hulusi Kılıç bildirib.

O deyib ki, Ermənistanın bu hücumları Azərbaycanın işğal altında olan torpaqlarını azad etmək niyyətindən geri döndərə bilməyəcək: "Sentyabrın 27-də səhər saatlarında Ermənistan ordusunun Azərbaycanın mülki yaşayış məntəqələrini atəşə tutmasına cavab olaraq Azərbaycan Ordusu hərəkətə keçdi.

Bu gün davam edən hərbi əməliyyatlar həm Azərbaycan, həm Türkiyə üçün çox önəmli sayılır. Hazırda tarixi günlər yaşayırıq. Türkiyədə 83 milyon ürək Azərbaycan üçün döyünür. Ali Baş Komandan İlham Əliyevin nəzarəti ilə əməliyyatlar uğurla davam edir. Həm Azərbaycan xalqı, həm də ordusu Prezident İlham Əliyevin yanındadır.

H.Kılıç qeyd edib ki, atəşkəs çağırışı edən dövlətlər bu çağırışı Azərbaycana yox, Ermənistana etməlidirlər: "Bu günlərdə yuxarılardan bəzi səslər gəlir. Bəs onlar 30 ildir, haradaydılar? Bu səslərin sahiblərinə fikir verməmək lazımdır. Biz onlara görə çox vaxt itirmişik. Bu haqlı savaşda Türkiyə Prezidenti, Milli Məclis, nazirlərimiz, siyasi partiya liderlərimiz Azərbaycanın yanındadır. Azərbaycan ictimaiyyəti baş verən döyüşləri necə izləyirsə, biz də vəziyyəti yaxından təqib edirik. Allah ordumuza zəfər qazanmağı nəsib etsin! Qəzamız mübarək olsun!"



# ERMƏNİSTANIN HAZIRKI MAHİYYƏTİ MÜHARİBƏ CİNAYƏTKARLIĞIDIR



07.10.2020

"Ermənistanın rəhbərliyi hərbi azğınlığı ilə ölkəni məhvə aparır. Azərbaycanın böyük şəhərlərini, dinc əhalini, yaşayış evlərini raket atəşinə tutmaq müharibə cinayətidir. Hərbi meydanda uğursuzluğa düçar olan Ermənistan təcavüzkar siyasətindən nəticə çıxarmaq əvəzinə quduzlaşır. Mülki azərbaycanlı əhalinin hədəfə alınması gec-tez erməni əhalisini ayağa qaldıracaq. Ermənilər bir gün başa düşəcəklər ki, ölkə rəhbərliyinin hərbi-siyasi aqressiyası onlar üçün hansı riski yaradır".

Bu fikirləri Türkiyənin Azərbaycandakı sabiq səfiri Hulusi Kılıç AZƏRTAC-a müsahibəsində bildirib.

Ermənistan ordusunun Bakı ətrafına, Gəncə, Mingəçevir başda olmaqla iri şəhər mərkəzlərinə, mülki əhalinin sıx olduğu yerlərə, yaşayış binalarına raket zərbəsi endirməsini müasir dünyadakı erməni vandalizmi kimi dəyərləndirən H.Kılıç deyib: "Əslində, Ermənistan bu vəhşi hücumları ilə BMT-ni, beynəlxalq hüququ hədəfə alıb. Bu terrorçu dövlətin rəhbərliyi hərbi cinayətləri ilə ATƏT-in Minsk qrupu ölkələrinə deyir ki, biz cinayətkarıq".

Azərbaycan Silahlı Qüvvələrinin həyata keçirdiyi Qarabağın azadlığı hərəkatını yüksək dəyərləndirən keçmiş səfir qeyd edib: "Prezident İlham Əliyevin söylədiyi, "Qarabağ Azərbaycandır!" – ifadəsi addım-addım reallığa çevrilir. Bu haqq işini gerçəkləşdirən qəhrəman Azərbaycan övladlarına uğur arzu edir, şəhidlərimizə Allahdan rəhmət diləyir, doğmalarına və bütün xalqımıza başsağlığı verirəm! Ali Baş Komandan İlham Əliyev başda olmaqla torpaqlarımızın işğaldan azad edilməsində şücaət göstərən hər kəs, bütövlükdə xalqımız öz dəyanəti ilə təkcə Azərbaycanı yox, bütün türk dünyasının gələcəyini təhdid edən təhlükəni aradan qaldırmağa başlayıb. Azərbaycan zəfər çalacaq. Torpaq və Vətən Tanrının bizə əmanətidir. Haqq-ədalət yolunda olduğumuz üçün bu müqəddəs işdə Allahın lütfü üstümüzdə olacaq".

Ermənistanın tarixin bütün dövrlərində olduğu kimi indi də məkrli məqsəd güddüyünü diqqətə çatdıran H. Kılıç əminliklə vurğulayıb ki, riyakar düşmənin budəfəki hiyləsi öz başına bəla olacaq: "Çünki bu forpost dövlətə havadarlıq edənlər də ondan beziblər".

Son günlər cəbhə xəttində ağır məğlubiyyətlərə düçar olan düşmən ordusunun mövqelərini qoyub qaçmasını Azərbaycan Silahlı Qüvvələrinin böyük uğuru kimi dəyərləndirən diplomat diqqətə çatdırıb ki, Azərbaycanın rəşadətli ordusu öz peşəkarlığından, xalqın həmrəyliyindən və Ali Baş Komandanın siyasi iradəsindən güc alır.



# ERMƏNİSTANIN GƏNCƏYƏ HÜCUMUNA GÖZ YUMMAQ MÜHARİBƏ CİNAYƏTLƏRİNƏ ŞƏRİK OLMAQ DEMƏKDİR



11.10.2020

"Ermənistanın rəhbərliyi ölkəni cəngəllik qanunları, terrorçu metodlarla idarə edir. Azərbaycanın böyük şəhərlərini, dinc əhalisini hədəfə almaq bu dövlətin terrorçu mahiyyətidir. Bütün hallarda türk düşmənliyinin təbliğatını aparmaq, ermənilərdən çirkin məqsədlər üçün istifadə etmək bu şəxslərin öz xalqına qarşı da cinayətkar olduğunu təsdiq edir".

Bu fikirləri Türkiyənin Azərbaycandakı sabiq səfiri Hulusi Kılıç AZƏRTAC-a müsahibəsində bildirib.

Oktyabrın 11-də raket zərbəsi vasitəsilə Gəncə şəhərində mülki azərbaycanlı əhaliyə qarşı törədilən vandalizm

aktını Ermənistan rəhbərliyinin növbəti müharibə cinayəti kimi dəyərləndirən H.Kılıç deyib: "Terrorçu Ermənistanın Xocalı soyqırımı zamanı tökdüyü türk-müsəlman qanı hələ qurumayıb. Əsrlər boyu unudulmayacaq bu bəşəri cinayət bütün dünyanın gözü qarşısında həyata keçirilib. Mahiyyət etibarilə Gəncədə mülki yaşayış evlərinin ballistik raketlə vurulması Xocalı soyqırımının növbəti qanlı səhifəsidir. Bu cinayətə göz yummaq Ermənistanın müharibə cinayətlərinə şərik olmaq deməkdir. BMT-nin aidiyyatı strukturları, ATƏT-in Minsk qrupunun həmsədrləri məsələyə dərhal, ədalətli münasibət bildirməlidirlər. Əks halda, bu cinayətə görə məsuliyyət daşıyırlar. Əgər həmsədrlər öz funksiyalarını dəbdəbəli ezamiyyələr, işğalçı ilə torpağı zəbt edilən ölkəyə fərq qoymadan, bir-birindən fərqlənməyən, məsuliyyətsiz bəyanat verməklə bitmiş hesab edirlərsə, bu, mənəvi kasadlığın son həddidir. Dinc əhalini, onlarla yaşayış məskənini, mülki evləri raket atəşinə tutmaq müharibə cinayəti və faşizmdir. Qadın, qoca və uşaqların da zərər çəkdiyi bu vandalizm aktı tərəfimizdən heç zaman unudulmayacaq".



# PUTİN MÖVQEYİNDƏ SƏMİMİDİRSƏ, PROBLEMİN HƏLLİNƏ TÜRKİYƏNİN TÖHFƏ VERƏCƏYİNƏ İNANIRSA...



15.10.2020

Xəbər verildiyi kimi ötən gün Rusiya və Türkiyə prezidentləri Vladimir Putin və Rəcəb Tayyib Ərdoğan arasında telefon danışığı olub. Bildirilir ki, telefon danışığı zamanı Dağlıq Qarabağ münaqişəsi zonasındakı vəziyyət ətraflı müzakirə olunub. Hər iki tərəfdən humanitar atəşkəsə riayət olunmağın vacibliyi vurğulanıb.

Telefon danışığı zamanı Putin və Ərdoğan ATƏT-in Minsk qrupunun işləmələri əsasında siyasi prosesin aktivləşdirilməsinin tərəfdarı olduqlarını qeyd ediblər. Dağlıq Qarabağ probleminin sülh yolu ilə həllinə keçilməsi üçün həmrəylik səylərinə təcili ehtiyac olduğu vurğulanıb.

Görəsən, doğrudanmı, Putin rəsmi Ankaranın münaqişənin həllində yaxından iştirakında maraqlıdır?

Türkiyənin Azərbaycandakı keçmiş səfiri Hulusi Kılıç Moderator.az-a açıqlamasında deyib ki, Türkiyə Moskvanın səmimiyyətinə inanmaq istəyir: "Biz Türkiyə olaraq Putinin səmimiyyətinə inanmaq istəyirik. Bölgədəki problemin həll olunması üçün Rusiya, Türkiyə, Azərbaycan və Ermənistan arasında görüşlərin keçirilməsi lazımdır. Putin bundan üç-dörd gün əvvəlki açıqlamasında da müharibənin Ermənistan torpaqlarında keçirilmədiyini söyləyərək dolayısı ilə Azərbaycan torpaqlarının işğal edildiyini tanımış oldu. Sentyabrın 27-də təmas xəttində döyüşlər başlayanda da Rusiyanın hökumət müşaviri, "Biz Türkiyə ilə bu məsələdə görüşlər keçiririk" – demişdi. 1992-ci ildə ATƏT-in Minsk qrupu yaradılarkən şərtlər çox fərqli idi. 1994-cü ildə isə Minsk qrupunun Amerika, Fransa, Rusiya ölkələrindən ibarət həmsədrlik institunun yaradılması isə əslində Qarabağ məsələsinin həll olunmaması üzərində qurulmuşdu. Yenə də deyirəm, biz Türkiyə olaraq Putinin səmimiyyətinə inanmaq istəyirik. Putin mövqeyində səmimidirsə, ciddidirsə, bu münaqişənin həllinə Türkiyənin töhfə verəcəyinə inanırsa, o zaman əminəm ki, bölgədə inkişaf olacaq, dostluqlar qurulacaq, xalqlar qaynayıb-qarışacaq".



# ERMƏNİSTANA MƏSLƏHƏT GÖRÜRƏM Kİ, BİR DAHA NAXÇIVAN TƏRƏFƏ BOYLANMASIN



16.10.2020

"Ermənistan silahlı qüvvələrinin işğal olunmuş Qubadlı rayonu ərazisindən Naxçıvan Muxtar Respublikasının Ordubad rayonu ərazisinə raket atmasını şiddətlə qınayıram".

Bu fikirləri Türkiyənin Azərbaycandakı keçmiş səfiri Hulusi Kılıç bildirib.

Keçmiş səfir Ermənistanın məlum addımını əsl ağılsızlıq kimi dəyərləndirib: "Ermənistan ağlını başına yığsın. Ermənilərə xatırlatmaq istərdim ki, Ankara hökuməti ilə bolşeviklər 1921-ci il Qars müqaviləsini müzakirə edərkən Naxçıvan məsələsi yenidən gündəmə gəlmişdi. Beləcə,

Türkiyənin İğdırı ilhaq etməsi və Naxçıvan üzərində Azərbaycanın suverenliyi məsələsində inadkarlığı Azərbaycanla Türkiyə arasında dəhliz açılmasına imkan yaratdı. Naxçıvan, Şərur rayonlarına erməni iddiaları Türkiyənin qəti mövqeyi və vetosu ilə rədd edildi. Bolşeviklər Ankara ilə yaxşı münasibətlərin qurulmasına çalışırdılar. Nəticədə, Moskva və Qars müqavilələrinə görə bu region Sovet Ermənistanına birləşdirilməmiş, əvəzində Sovet Azərbaycanın protektoratı altında muxtar ərazi yaradılmışdı. Beləliklə, 16 mart 1921-ci ildə başlanmış Qars müqaviləsi ortaq Türkiyə-Azərbaycan sərhədinin yaradılması istiqamətində ilk addım olmuşdu. Türkiyə Rusiya ilə birlikdə zamin ölkədir. Ona görə də Ermənistan ağlını başına yığsa, çox yaxşı olar. Bu, provokasiyadan tezliklə əl çəkməsi lazımdır.

Ermənistan ilk gündən regional müharibə istəyir. Bunu Xocalı qətliamını xatırladan Gəncə hadisələrindən də görmək olar. Gəncəyə raket atmalarının səbəblərindən biri də budur. Düşünürəm ki, Ermənistanın bütün bu etdikləri ağılsızlığın əlamətidir. Onlara məsləhət görürəm ki, bir daha Naxçıvan tərəfə boylanmasınlar..."



# ERMƏNİSTAN TƏRTƏRDƏ DİNC AZƏRBAYCANLILARI QƏTLƏ YETİRMƏKLƏ "MƏNİ CİNAYƏT TÖRƏTMƏK ÜÇÜN YARADIBLAR" – DEYİR



17.10.2020

"Ermənistan işğalçı, terrorçu və insan qanına susamış cinayətkar dövlətdir. Otuz ildir ki, bu ölkəni idarə edənlər Azərbaycana qarşı açıq düşmənlik ediblər. Ermənistan Tərtərdə qəbiristanlıqda dinc azərbaycanlıları kütləvi şəkildə qətlə yetirməklə, "məni cinayət törətmək üçün yara-

dıblar" – deyir. Azərbaycanlıların qanını tökmək bu vandallar üçün sanki hobbiyə çevrilib".

Bu fikirləri Türkiyənin Azərbaycandakı sabiq səfiri Hulusi Kılıç AZƏRTAC-a müsahibəsində bildirib.

Hazırda Ermənistanla Azərbaycan arasında yaranmış hərbi qarşıdurmaya görə bütün məsuliyyəti təcavüzkar dövlətin daşıdığını diqqətə çatdıran H.Kılıç deyib: "Artıq bütün dünya görür ki, Ermənistan Azərbaycanda dinc əhalini, mülki yaşayış məskənlərini, böyük şəhərləri, inzibati binaları, infrastrukturu hədəf alıb. Fərz edək ki, bəzi ölkələr, beynəlxalq təşkilatlar məlum münaqişə ilə bağlı guya məlumatsız idilər. Bəs indi? Azərbaycandakı diplomatik korpusun rəhbərləri erməni faşizminin real əməllərini Gəncədə öz gözləri ilə gördülər. Hanı onların ölkəsinin hadisələrlə bağlı açıq mövqeyi? Gəncədəki hadisələrə real qiymət verilsəydi, işğalçı ordu cəsarət edib Tərtərdə qəbiristanlıqda keçirilən dəfn mərasiminə toplaşan insanları artilleriya atəşinə tutmazdı".

Mülki azərbaycanlı əhalinin Ermənistan ordusu tərəfindən atəşə tutulmasının yenilik olmadığını diqqətə çatdıran keçmiş səfir deyib ki, bu cür ağır cinayətlərə göz yummaq Ermənistanı müharibə cinayətlərinə həvəsləndirir.



# ATƏŞKƏS ÜÇÜN YALVARAN, DİGƏR DÖVLƏTLƏRİN DABANLARINI YALAYAN MİLLƏTİN ETDİKLƏRİNİN ŞAHİDİYİK




27.10.2020

"Atəşkəs istəyən, yalvaran, digər dövlətlərin dabanlarını yalayan millətin atəşkəsdən sonra etdiklərinin hamımız şahidiyik".

Bunu Moderator.az-a açıqlamasında Türkiyənin Azərbaycandakı keçmiş səfiri Hulusi Kılıç bildirib.

H.Kılıç Ermənistanın mülki şəxsləri qətlə yetirdiyinə görə cəzalandırılmasının vacibliyini vurğulayıb: "Ermənistanın Gəncəyə etdiyi hücumları şiddətlə, hiddətlə qı-

nayıram. Ermənistan bir dövlət yox, terror təşkilatıdır. Digər dövlətlərin Ermənistanı dövlət adlandırması haqsızlıq olar. Artıq necə lazımdırsa, küncə sıxışdırılıblar. Mülki insanları qətlə yetirmələrinin mütləq cəzasını çəkməlidirlər. Azərbaycan gec-tez bu qanı yerdə qoymayacaq, qisasını alacaq. Türkiyə dövləti olaraq Azərbaycanın yanındayıq. Ermənilər heç bir hərbi bazanın olmadığı, mülki şəxslərin yaşadığı şəhərə raket atıb onları qətlə yetirməyə görə təqsirkardırlar. Bütün bunları dünyanın görməsi və bu hücumlara son verilməsi lazımdır. Atəşkəs istəyən, yalvaran, digər dövlətlərin dabanlarını yalayan millətin atəşkəsdən sonra etdiklərinin hamımız şahidiyik. Artıq Ermənistana bu hücumlarına son verməsi üçün "dayan" demək lazımdır. İnşallah, ən qısa zamanda Qarabağa üçrəngli bayrağımız sancılacaq. Başımız sağ olsun! Ermənistanın terror dövləti olduğunu hər kəs qəbul edir".

Keçmiş səfir Paşinyanın artıq başını itirdiyini, Ali Baş Komandan İlham Əliyevin isə çox təmkinlə hərəkət etdiyini bildirib: "Paşinyan ağlını itirib və bununla xalqına da zərər verir. Bununla yanaşı, dünyadakı nüfuzu da yox olmaqdadır. Ermənistan terror dövləti və təşkilatıdır. Dünya Ali Baş Komandan İlham Əliyevin nə qədər ağıllı, təmkinli olduğunu, təxribatlara uymadığını gördü. Həmçinin Ali Baş Komandanla Paşinyan arasında nə qədər fərq olduğunun da şahidi oldular".



## BU MASADA TÜRKİYƏNİN OLMASI MÜTLƏQDİR



30.10.2020

"İndi can Azərbaycanımızın Ali Baş Komandanı və qəhrəman ordusu tarix yazır. Bu günlərin qürurunu yaşayırıq və bizə bu qüruru yaşatdıqları üçün başda Ali Baş Komandan və ordusunu dəstəkləyən qardaş Azərbaycan xalqına təşəkkür edirik".

Bu sözləri Unikal.org-a açıqlaması zamanı Türkiyə Cümhuriyyətinin Moldova və Azərbaycanda səfiri olmuş Hulusi Kılıç deyib.

Sabiq səfir bildirib ki, əslində, Dağlıq Qarabağda baş verən hadisələr vətənin müdafiəsi və mübarizədir, buna savaş demək doğru deyil. Bu, işğal altındakı torpaqların qaytarılması əməliyyatıdır. Azərbaycanımızın beynəlxalq

tanınmış sərhədləri daxilində reallaşan mübarizədir. Türkiyə 1920-ci illərdə Qurtuluş Savaşında bu anı yaşadı. Bu gün Azərbaycanımız bunu etməkdədir. Bu günə qədər Dağlıq Qarabağ münaqişəsinə danışıqlar yolu ilə çarə tapmaq istəyən tərəflərin, əslində, bunu heç istəmədikləri, illərlə Azərbaycanı yola verdikləri açıq-aydın ortadadır. Artıq bu işin masada gerçəkləşməyəcəyi bəllidir. Azərbaycanımızın səbri artıq tükəndi. Görürük ki, Azərbaycanımızın haqlı mübarizəsi haqq və hüquqa dayanır və biz bunu dəstəkləyirik.

Türk xalqı olaraq qardaş ölkəmizin yanındayıq. 10 milyon Azərbaycan, 83 milyon da Türkiyə – ümumilikdə 93 milyonuq. Bir də keçmişə nəzər salsaq, görərik ki, 1990-cı illərdə ordusu olmayan bir Azərbaycan var idisə, hazırda qardaş dövlətin olduqca güclü ordusu formalaşıb. Birinci Dağlıq Qarabağ müharibəsində ermənilər müdafiəsiz insanlara hücum etməklə 1 milyon qaçqın və məcburi köçkün insanın pərişan halda yaşamasına səbəb oldular. Bu ədalətli deyil. 1993-cü ildə BMT-nin verdiyi qətnamələrdə həmin torpaqların Azərbaycana aid olduğu deyilir, amma hazırda Qarabağ mövzusunu müzakirəyə çıxaran dövlətlərin kimə tərəf olduqlarına nəzər yetirək. Bu gün Fransa, ABŞ xarici işlər nazirliklərinin verdikləri bəyanatlarla Ermənistanın mövqeyindən çıxış etdiklərini görürük.

Yeni danışıqlar formatı qurulmalıdır və bu masada Türkiyənin olması mütləqdir. Hazırkı vəziyyətdə Prezidentimiz, xarici işlər və müdafiə nazirlərimiz Rusiyadakı, Azərbaycandakı həmkarları ilə görüşürlər. Türkiyə olmadan bu problem həll edilə bilməz. Bu günlərdə bir neçə rayonumuzu işğaldan geri aldıq. Yaxın vaxtlarda üçrəngli bayrağın Qarabağda asılacağına inanırıq. Azərbaycanda işlədiyim 5 ildə qaçqınları və onların vəziyyətini, həyat mübarizəsini gördüm. Bu gün Azərbaycan Ordusu və



xalqı ilə qürur duyuruq, Azərbaycanın haqlı davasında hər zaman qardaş ölkəmizin yanında olacağıq. "Ya Qarabağ, ya ölüm, başqa yolu yox bunun!" – deyən can Azərbaycan xalqının bu səsini hər kəs eşitsin".

# ERMƏNİSTAN QANUNSUZ MƏSKUNLAŞDIRMA İLƏ AZƏRBAYCANA QARŞI DAHA BİR BEYNƏLXALQ CİNAYƏT TÖRƏDİB



07.11.2020

“Ermənistan tərəfi dünya birliyinin birmənalı şəkildə terrorçu olaraq tanıdığı PKK kimi təhlükəli təşkilatın üzvlərini işğal altında saxladığı Azərbaycan torpaqlarında yerləşdirməklə beynəlxalq hüquq normalarını kobud şəkildə pozaraq cinayət törədib. Ümumiyyətlə, başqa ölkənin ərazisində icazəsiz məskunlaşdırma həyata keçirmək bütün parametrlərə görə cinayətdir. Belə qanunsuzluq terror təşkilatı ilə əməkdaşlığa yönəlirsə, ortaya iki beynəlxalq cinayət çıxır”.



Bu sözləri Türkiyənin Azərbaycandakı sabiq səfiri Hulusi Kılıç AZƏRTAC-a müsahibəsində bildirib.

Rəşadətli Azərbaycan Ordusunun uğurla həyata keçirdiyi əks-hücum əməliyyatlarının yaxın zamanda Qafqaz və Anadolu da daxil olmaqla böyük bir coğrafiyaya sülh, əmin-amanlıq və inkişaf gətirəcəyinə əminliyini ifadə edən Hulusi Kılıç deyib: “İndi söz bir daha insan hüquqlarından, milli müqəddəratdan geninə-boluna danışan beynəlxalq təşkilatlarındır: İşğaldan azad edilmiş Zəngilan rayonunun ərazisində Ermənistan Milli Təhlükəsizlik Xidmətinin istifadəsində olduğu aşkarlanan Suriya ermənilərinin Azərbaycan torpağında qanunsuz məskunlaşdırılmasına nə deyəcəksiniz? BMT, Avropa İttifaqı, ATƏT kimi təşkilatlar məsələnin əsl mahiyyətini bilmək istəyirsə, bu faktla bağlı dərhal araşdırıcı missiya yaratmalıdırlar. Ermənistan bu qanunsuz məskunlaşdırma ilə Azərbaycana qarşı işğala bərabər ikinci beynəlxalq cinayət törədib”.

Fikirlərini “Qarabağ Azərbaycandır!” şüarı ilə tamamlayan səfir əminliklə bildirib ki, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə şərəfli hərb tarixi yaradan Azərbaycan Ordusu ən qısa zamanda torpaqlarımızın işğalına son qoyacaq və bununla da bölgəyə yeni nəfəs gələcək.

# İŞĞAL ALTINDAKI TORPAQLARA QOVUŞMAQ UZAQDAKI SEVGİLİYƏ QOVUŞMAĞA BƏNZƏYİR



11.11.2020

"Can Azərbaycanın qələbəsini ürəkdən təbrik edirəm. Azərbaycanın qələbəsi Türkiyənin qələbəsidir".

Bunu Türkiyənin Azərbaycandakı keçmiş səfiri Hulusi Kılıç Moderator.az-a Qarabağın 30 illik həsrətdən sonra işğaldan azad olunması ilə bağlı açıqlamasında deyib.

"Ali Baş Komandan cənab Prezident İlham Əliyevə, onun ətrafında bir araya gələn sadiq Azərbaycan xalqına və qəhrəman ordusuna təşəkkür edirəm. Allah ermənilərin işğalı altındakı torpaqları azad etmək üçün canlarından keçmiş igid əsgərlərimizə rəhmət eləsin. Qazılərımızın tezliklə sağalmasını diləyirəm. Allah qazilərimizə sağlam, uzun ömür versin.

Azərbaycan 30 ilə yaxın erməni işğalı altında olan ərazilərini azad etdi. İşğal altındakı torpaqlara qovuşmaq uzaqdakı sevgiliyə qovuşmaq kimidir. Torpağın suya çatmasına bənzəyir.

44 gün davam edən Vətən müharibəsində dünya can Azərbaycanın liderinə, xalqına, rəhbərinə, vətəninə, torpağına və bayrağına sadiqliyini, ordusunun gücünü və əsgərlərinin şücaətini gördü.

Dünya həm də Türkiyə-Azərbaycan qardaşlığının möhkəmliyini, dillər əzbəri olan "Bir millət, iki dövlət" sözlərinin dildə deyil, əməldə olduğunun şahidi oldu.

Son 44 gündə başda cənab Prezident Rəcəb Tayyib Ərdoğan, Türkiyə Böyük Millət Məclisi sədri Mustafa Şəntop, Xarici İşlər naziri Mövlud Çavuşoğlu və Müdafiə naziri Hulusi Akar daim Azərbaycanın yanında oldu, Cənab Prezident İlham Əliyevlə tez-tez görüşdülər. Qarabağın həm də Türkiyənin məsələsi olduğunu dedilər. Biz hər zaman istər masada, istərsə də cəbhədə can Azərbaycanın yanındayıq.

Türkiyənin siyasi və diplomatik rəhbərliyi hər zaman qardaşları ilə əməkdaşlığı, dostluğu davam etdirəcək.

Türkiyə 10 noyabr 2020-ci ildə imzalanan müqavilənin daim qüvvədə qalması və can Azərbaycanın hüquqlarını qorumaq üçün lazımi koordinasiyaları quraraq həmişə Azərbaycanın yanında olacaq. Azərbaycanımızın böyük zəfəri və bayramı mübarək olsun. Qarabağ Azərbaycandır!"

# TÜRK HƏRBÇİLƏR QARABAĞDA PROSESƏ NƏZARƏT EDİR



12.11.2020

"Türkiyənin Dağlıq Qarabağdakı sülhməramlı missiyada konkret necə iştirak edəcəyinə dair suala Rusiya ilə Türkiyə arasında Qarabağda atəşkəsə nəzarətə dair qəbul edilən müqavilə cavab verir. Bu müqaviləyə əsasən artıq türkiyəli zabitlər Azərbaycandadır".

Bu barədə Türkiyənin Azərbaycandakı keçmiş səfiri Hulusi Kılıç APA-nın yerli bürosuna açıqlamasında bildirib.

H.Kılıç deyib ki, Dağlıq Qarabağda atəşkəsə nəzarət etmək üçün yaradılan ortaq mərkəzlə bağlı Türkiyə və Rusiya müdafiə nazirlərinin qəbul etdikləri memorandumda artıq mərkəzin funksiyası müəyyənləşib: "Memorandumda qeyd olunur ki, bu mərkəz Azərbaycan ərazisində atəşkəs rejiminə əməl olunması barədə məlumat toplayacaq,



ümumiləşdirəcək və yoxlayacaq. Mərkəz müqavilələrin pozulması ilə bağlı hansısa şikayət, sual və ya narahatlığın araşdırılması ilə məşğul olacaq. Yəni Azərbaycan ərazisində olan bu mərkəzə təyin edilən türkiyəli hərbçilər necə öz vətənlərində missiyalarını yerinə yetirirlər, eləcə də Qarabağda öz vəzifələrini şərəflə və vicdanla icra edəcəklər. Buna heç bir şübhə olmamalıdır. Artıq Türkiyə rəsmi şəkildə bu prosesə daxil olub. Bundan sonra Ermənistanın atəşkəsi pozmaq kimi təxribatı müzakirə mövzusu ola bilməz".

Azərbaycan, Rusiya, Ermənistan arasında qəbul edilən sazişi qiymətləndirən diplomatın fikrincə, bu sənəd imzalanana qədər uzunmüddətli həll prosesini keçib: "Bu sənədə görə 3 həftə sonra işğalda olan bütün torpaqlar Azərbaycana geri qaytarılacaq. Azərbaycan Ordusu onsuz da Xocalının və Xocavəndin bir neçə kəndini döyüşlə geri almışdı. Artıq işğalda olan digər torpaqlar da döyüşsüz geri veriləcək. Sənəddə qeyd olunur ki, tərəflər olduğu mövqeyi qoruyacaq. Təbii ki, Azərbaycan Ordusu işğalda olan hər qarış torpağı üçün mübarizə aparmağa hazır idi. Amma atəşkəsin elan olunması daha az şəhid və qurban verilməsi deməkdir. Bu savaşın əsas qazancı olan Şuşanın azad edilməsi namus məsələsi idi. Ölümü gözə alan Azərbaycan əsgəri Qafqazın incisi Şuşanı geri aldıqdan sonra Ermənistan ordusu dağıldı və Paşinyan məğlubiyyətini qəbul etdi. 44 gün ərzində o əsgərlər öz qanları ilə tarixə yazdıqları qəhrəmanlıq dastanlarını, şübhəsiz ki, gələcəkdə oxuyacağıq. Bu 44 gün ərzində döyüş meydanında Azərbaycanın nə qədər mərd və adil, Ermənistanın isə terror dövləti, uşaq qatili, müharibə cinayətkarı olduğunu gördük. Xocalı qətliamı Gəncədə, Bərdədə, Tərtərdə təkrarlandı. Beynəlxalq hüquq çərçivəsində bütün bunların hesabı sorulacaq".

Hulusi Kılıç bildirib ki, Azərbaycan, Rusiya, Ermənistan arasında qəbul edilən saziş sosial şəbəkələrdə bəzən

yanlış analiz edilir. Bu da qəsdən və ya bilmədən Azərbaycanın Qarabağ uğrunda vətən-millət-bayraq-lider vəhdətinin 44 gün ərzində qazandığı uğurlara kölgə salmaq cəhdlərindən irəli gedə bilməz: "Yəni tənqid edəndə də bunu insafla etmək lazımdır. Savaş yeni başlayanda demişdim ki, Azərbaycanın qələbəsi regionda intibah yaradacaq. Bəli, qısa zamanda bu zəfərin bəhrəsini görəcəyik. 45 gün öncə qazanılan bu uğurların heç biri yox idi. Artıq yurdlarından didərgin düşən azərbaycanlılar da BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının müşayiəti ilə evlərinə geri dönəcəklər. Dağlıq Qarabağda məskunlaşan ermənilərin geri dönüb-dönməyəcəyini gələcək göstərəcək. Digər tərəfdən, onlar kasıb Ermənistan vətəndaşı deyil, Azərbaycan ərazisində yaşasalar, zəngin Azərbaycan vətəndaşı olacaqlar. Xəstə təfəkkürün məhsulu olan "Böyük Ermənistan" xülyası bir milləti məhvə məhkum etmişdi. Amma Azərbaycan hakimiyyətinin adil davranışı ilə dərsini almış o millətin artıq qurtuluş şansı var. Yeri gəlmişkən, onu da deyim ki, cənab İlham Əliyev Ali Baş Komandan olaraq düzgün strategiya, sağlam mühakimə, qətiyyəti ilə döyüş meydanında nə qədər nümunəvi liderlik nümayiş etdirdisə, bir o qədər də diplomatik sahədə təmkini, ədaləti və düzgün siyasəti ilə uğurlu addımlar atdı. O ki qaldı Rusiyanın bölgədə rol qazanmasına, 5 illik müddət ərzində qəbul edilən öhdəliklərə əməl olunmayacaqsa, Azərbaycanın bu müqaviləni növbəti 5 ildə davam etdirməmək hüququ var. Bütün hallarda bu sənəd tərəflərin maraqlarını ədalətli şəkildə qoruyur".

Diplomatın fikrincə, Dağlıq Qarabağ münaqişəsinin həllində indiyədək aparıcı rol oynamalı olan ATƏT-in Minsk Qrupu həmsədrlərinin fəaliyyətini də artıq bitmiş hesab etmək olar.



# QAZANDIĞI QƏLƏBƏ CAN AZƏRBAYCANIN GÜCÜNƏ GÜC QATDI



12.11.2020

"Azərbaycan şanlı bir zəfərlə onillikləri əhatə edən "yenilməz erməni" mifini darmadağın edib öz torpaqlarına qovuşdu. Qəhrəman əsgərlərimiz cəbhədə qazandığı Qələbə ilə siyasi və diplomatik masada can Azərbaycanın gücünə güc qatdı. Türkiyənin atəşkəs missiyasında tərəf olması hər iki qardaş ölkənin strateji maraqlarını tamamladı. Bütün bu uğurlara görə Ali Baş Komandan Prezident

İlham Əliyevin timsalında bütün hərbçilərimizi, şəhid və qazilərimizin ailələrini təbrik edir və onlara təşəkkürümü ifadə edirəm".

Bu fikirləri Türkiyənin Azərbaycandakı sabiq səfiri Hulusi Kılıç AZƏRTAC-a müsahibəsində bildirib.

Azərbaycanla bağlı bütün işlərə eynilə öz vətəninin və xalqının məsələsi kimi yanaşdığını diqqətə çatdıran Hulusi Kılıç deyib: "Azərbaycan əsgəri 44 günlük savaşda qanı, canı və sağlamlığı bahasına bizə bu şərəfli qalibiyyəti qazandırdı. Nəticəyə görə Azərbaycanın ərazi bütövlüyü təmin edilir, qaçqın və məcburi köçkünlər öz yurdlarına dönür, Naxçıvanla Azərbaycanın əsas hissəsi arasında quru əlaqələri bərpa olunur. Lakin bunların hamısından vacib odur ki, Prezident İlham Əliyevinin qətiyyəti və düzgün siyasəti nəticəsində qürurumuzun öz yerini almasıdır. Azərbaycan xalqı hər zaman qürurlu və şücaətli olub. Lakin işğal faktı milli kimliyimizin üstünə ləkə salmışdı. Bu ləkənin təmizlənməsi istiqamətində göstərilən şücaətin dəyərini tarix daha düzgün verəcək".

Azərbaycan-Türkiyə münasibətlərinin ən yüksək səviyyədə inkişaf dinamikasında olduğunu diqqətə çatdıran diplomat bildirib: "Türkiyənin atəşkəs prosesində Rusiya ilə bərabər iştirak etməsi rəsmi Ankara ilə Bakının regional proseslərə birgə təsirini gücləndirəcək. Ən yaxın zamanlarda Azərbaycan və Türkiyənin liderliyi ilə yeni beynəlxalq iqtisadi layihələrin şahidi ola bilərik. Ən əsası Azərbaycan rəşadətli hərbi qələbəsi ilə bölgəyə sülh, inkişaf və tərəqqi bəxş etdi".



# QARABAĞ YENİDƏN AZƏRBAYCANIN MÖHTƏŞƏM MƏDƏNİYYƏT MƏRKƏZİNƏ ÇEVRİLƏCƏK



12.11.2020

30 ilə yaxın Azərbaycan torpaqlarını işğal altında saxlayan Ermənistan tarixi-mədəni irsimizə də böyük zərbə vurub.

Türkiyənin Azərbaycandakı keçmiş səfiri, tanınmış diplomat Hulusi Kılıç hesab edir ki, Ermənistan dövləti belə qanunsuz əməllərinə görə beynəlxalq hüquq qarşısında cavab verməlidir: "Bir xalqın tarixi abidələrinin, mədəniyyət müəssisələrinin vəhşicəsinə dağıdılması vandalizim və bəşəriyyət əleyhinə cinayətdir. Bu cinayətlərə hüquqi qiymət verilməlidir. İnanıram ki, ermənilər də yaşadığımız müasir dönəmdə Azərbaycan ərazilərində həyata keçirdikləri vandalizm əməllərinə görə cəzalanacaq".

Diplomat həm də Türkiyənin Dağlıq Qarabağdakı sülhməramlı missiyadakı roluna da toxunub: "Müvaviq anlaşmaya əsasən artıq türkiyəli zabitlər Azərbaycandadır və Türkiyə ilə Rusiya müdafiə nazirlərinin qəbul etdikləri memorandumda Dağlıq Qarabağda atəşkəsə nəzarət üçün yaradılacaq ortaq mərkəzin funksiyası müəyyənləşib. Memorandumda qeyd olunur ki, bu mərkəz Azərbaycan ərazisində yerləşəcək, atəşkəs rejiminə əməl olunması barədə məlumat toplayacaq, ümumiləşdirəcək və yoxlayacaq. Yəni Azərbaycan ərazisində olan bu mərkəzə təyin edilən türkiyəli hərbçilər necə öz vətənlərində missiyalarını yerinə yetirirlər, eləcə də Qarabağda öz vəzifələrini şərəflə və vicdanla icra edəcəklər. Buna heç bir şübhə olmamalıdır. Artıq Türkiyə rəsmi şəkildə bu prosesə daxil oldu. Bundan sonra Ermənistanın atəşkəsi pozma kimi təxribatı müzakirə mövzusu ola bilməz".

Azərbaycan, Rusiya, Ermənistan arasında 10 noyabrda qəbul edilən bəyanatı qiymətləndirən siyasətçinin fikrincə, bu sənəd imzalanana qədər uzunmüddətli həll prosesini keçib: "Sənədə görə 3 həftə sonra işğalda olan bütün torpaqlar Azərbaycana geri qaytarılacaq. Azərbaycan Ordusu onsuz da Xocalının və Xocavəndin bir neçə kəndini döyüşlə geri almışdı, amma artıq işğalda olan digər torpaqlar döyüşsüz geri veriləcək. Sənəddə də qeyd olunur ki, tərəflər



olduğu mövqeyi qoruyacaq. Təbii ki, Azərbaycan Ordusu işğalda olan hər qarış torpağı üçün mübarizə aparmağa hazır idi. Amma atəşkəsin elan olunması daha az şəhid və qurban verilməsi deməkdir. Bu savaşın zirvə qazancı olan Şuşa bir namus məsələsi idi. Ölümü göz önünə alan Azərbaycan əsgəri Qafqazın incisi Şuşanı geri aldıqdan sonra Ermənistan ordusu dağıldı və Paşinyan məğlubiyyətini qəbul etdi. 44 gün ərzində o əsgərlər öz qanları ilə tarixə yazdıqları qəhrəmanlıq dastanlarını, şübhəsiz ki, gələcək zamanlarda oxuyacağıq. Bu 44 gün ərzində döyüş meydanında Azərbaycanın nə qədər mərd və adil, Ermənistanın isə terror dövləti, uşaq qatili, müharibə cinayətkarı olduğunu gördük. Xocalı qətliamı Gəncədə, Bərdədə, Tərtərdə təkrarlandı. Beynəlxalq hüquq tələbləri çərçivəsində bütün bunların hesabı sorulacaq".

Azərbaycan, Rusiya, Ermənistan arasında qəbul edilən bəyanatın sosial şəbəkələrdə bəzən yanlış olaraq analiz edildiyinə də toxunan H.Kılıc bildirib ki, bu, da bilərəkdən və ya bilməyərəkdən Azərbaycanın Qarabağ uğrunda savaşda qələbəsinə, vətən-millət-bayraq-lider vəhdətinin 44 gün ərzində qazandığı uğurlara kölgə salmaq cəhdlərindən irəli gedə bilməz:

"Yəni tənqid edəndə də bunu insafla etmək lazımdır. Savaş yeni başlayanda mən demişdim ki, Azərbaycanın qələbəsi regionda intibah yaradacaq. Bəli, biz qarşıdakı qısa zamanda bu zəfərin bəhrələrini görəcəyik.

27 sentyabrdan öncə bunların heç biri yox idi. Artıq yurdlarından didərgin düşən azərbaycanlılar da BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının müşayiəti ilə evlərinə geri dönəcəklər. O torpaqlar çiçəklənəcək, inkişaf edəcək və Qarabağ yenidən Azərbaycanın möhtəşəm mədəniyyət mərkəzinə çevriləcək".

Diplomat söhbət əsnasında ATƏT-in Minsk Qrupunun fəaliyyətinə də diqqət çəkərək bildirib ki, Dağlıq Qarabağ münaqişəsinin həllində indiyədək heç bir müsbət rol oynamayan bu təsisatın və həmsədrliyin fəaliyyətini də artıq bitmiş hesab etmək olar.



# ATƏT-İN MİNSK QRUPUNUN HƏMSƏDRLƏR SİSTEMİ TORPAĞA GÖMÜLDÜ...



16.11.2020

"ATƏT-in Minsk Qrupuunun həmsədrlər sistemi torpağa gömüldü. Minsk Qrupuunun 27 ildir bir işə yaramadıqlarının şahidi olduq. Xüsusilə də, Fransa Minsk Qrupunun üzvü kimi tərəfsiz deyil, qərəzli Ermənistanın yanında olduğunu göstərdi. Azərbaycan-Rusiya-Ermənistan arasında imzalanan bəyənatdan sonra etdiyi açıqlama Fransanın əsl simasının sübutu oldu. Fransa bunu açıq şəkildə göstərdi və Fransanın Ermənistan Diasporasının altında əzildiyini gördük".

Moderator.az xəbər verir ki, bunu Türkiyənin Azərbaycandakı keçmiş səfiri Hulusi Kılıç deyib.

"Fransa ATƏT-in Minsk Qrupunun həmsədri olsa da, Fransanın mərkəzi hökuməti qeyri-qanuni əməllərə, işğalçıya passiv izləyici münasibəti göstərirdi. Fransa hökuməti münaqişənin həllinə xələl gətirən, bu qəbildən olan qeyri-qanuni əməllərin qarşısının alınması üçün təsirli addımlar atmaq, digər həmsədr ölkələrlə birlikdə münaqişənin həlli istiqamətində səylərini gücləndirmək əvəzinə Ermənistanyönlü çıxışlar etdi. Beləcə, Fransa BMT Təhlükəsizlik Şurasının qətnamələrinə zidd davrandı. Bütün dünya bilir ki, 1993-cü ilin 30 aprel, 29 iyul, 14 oktyabr və 12 noyabr tarixlərində BMT Təhlükəsizlik Şurası Azərbaycan ərazilərinin işğalına müvafiq olaraq 822, 853, 874 və 884 saylı qətnamələri qəbul edib. BMT Təhlükəsizlik Şurasının sözügedən qətnamələri Azərbaycan Respublikasının suverenliyi, ərazi bütövlüyü və beynəlxalq sərhədlərinin toxunulmazlığını təsdiqləyib və erməni işğalçı qoşunlarının Azərbaycan Respublikasının bütün işğal edilmiş ərazilərindən dərhal, tam və qeyd-şərtsiz çıxarılmasını tələb edib, qaçqın və məcburi köçkünlərin geri dönmələrini təmin etməklə regionda qarşılıqlı əlaqələrin bərpasına çağırıb. Bəs bu 27 ildə nə baş verdi? Qətnamələrə əməl olundumu? Xeyr. "Müzakirələr davam edir", – deyərək vaxt qazandılar. Nə müzakirə axı? Müzakirələrdə hansı nəticələr əldə olundu? Bir ovuc torpaq belə Azərbaycana qaytarılmadı. Öz evlərindən, yurdundan məcbur çıxarılan insanların haqları ayaq altına atıldı. Kimsə onların öz evlərinə geri qaytarılması üçün düzgün qərar verməyə can atmadı. Haqqın yanında olmaqdan hər zaman qaçdılar. Bunların hesab verməsinin zamanı çatdı artıq.

Can Azərbaycanımızın Prezidenti Ali Baş Komandan İlham Əliyev və Azərbaycanın rəşadətli ordusu dünyaya çox böyük mesaj verdi. 27 illik həsrət 44 gündə bitti. Ən böyük mesaj isə ATƏT-in Minsk Qrupunun həmsədrlə-



rinə çatdı. Artıq həmsədrlərin işi bitdi, öldü, gömüldü onlar. Cənab Prezidentin də dediyi kimi, status-kvo yoxdur. Qurtardı, getdi. Status-kvo belə olmalıdır, elə olmalıdır. İlham Əliyev status-kvonu döyüş meydanında dəyişdirdi. Biz torpaqlarımızı geri aldıq.

Başda cənab Prezident Ali Baş Komandan İlham Əliyevi və qəhrəman Azərbaycan xalqını təbrik edirəm. Bəli, qəhrəman xalq, qorxmaz xalq, üstünə raket yağan xalq. Amma bu xalq əsla öz evindən çıxmadı. Mülki insanlarımız, qadınlar, körpələr şəhid oldu. "Vətən sağ olsun, Prezidentimiz sağ olsun", – deyib, əsla qorxmadılar. Azərbaycan dövləti də xalqın iradəsinə arxalanaraq qələbə çaldı. Bu qələbə Azərbaycan xalqının əldə etdiyi qələbələr arasında ən parlaq qələbədir. Yaşasın cənab Prezident Ali Baş Komandan İlham Əliyev, yaşasın Azərbaycan Ordusu! Qarabağ Azərbaycandır!"

# ŞUŞA QAFQAZIN İNCİSİ, ƏSL MƏDƏNİYYƏT ŞƏHƏRİDİR



19.11.2020

Həmsədrlər 27 il başımızı qatdı, 27 ilimizi oğurladılar, 27 il gəlib yeyib-içib getdilər. Ancaq Ali Baş Komandanın liderliyi və qardaş Azərbaycan xalqının dəstəyi ilə qəhrəman Azərbaycan Ordusu işğal edilən torpaqları cəmi 44 günə düşməndən azad etdi. Can Azərbaycanımızın tarixi zəfərini təbrik edir, bu zəfəri Türkiyənin qələbəsi kimi qəbul edirəm.



Bu 44 günlük zaman çərçivəsində dünya nələrə şahidlik etdi? Ali Baş Komandanın liderliyinə, can Azərbaycanımızın – qardaş xalqın cənab Prezidentin ətrafında toplanmasına, ona dəstək vermәsinə, mülki əhalinin raket hücumlarına qarşı sinə gərməsinə şahidlik etdi. Bundan əlavə, dünya müasir ordusu olan Azərbaycanımızı və torpaq üçün canlarını fəda edən igidləri gördü. Eyni zamanda, dünya can Azərbaycanın yanında qardaş Türkiyəni gördü. Başda hörmətli Prezidentimiz Rəcəb Tayyib Ərdoğan, Türkiyə parlamentinin sədri Mustafa Şəntop, prezidentin köməkçisi, Xarici işlər naziri, Müdafiə naziri və 83 milyonluq xalq ilə Türkiyə can Azərbaycanımızın yanında oldu. Bu müddətdə Türkiyə qardaş ölkəyə həm siyasi, həm də diplomatik dəstəyini verdi. Həmişə "bir millət, iki dövlət" ifadəsinin elə sözdə olduğunu deyirdilər, amma bunun əməldə olduğunu təkrar dünyaya isbat etmiş olduq. Amma bu dönəmlərdə, əslində, bir millət, iki dövlət deyil, elə bir millət, bir dövlət kimi olduq.

Bundan başqa, can Azərbaycanımızın Prezidenti əsl lider kimi informasiya sahəsində də böyük potensial nümayiş etdirdi, dünyanın qabaqcıl jurnalistlərinə və media orqanlarına verdiyi müsahibələr buna əyani sübutdur. Ermənistan onunla müştərək qüvvələrin dəstəyinə sığınsın deyə bu müharibənin beynəlxalq müharibəyə çevrilməsinin tərəfdarı idi, amma cənab Prezident olduqca ağıllı siyasət yürütdü və savaş yalnız iki dövlət arasında reallaşmış oldu. Əslində buna savaş demirəm, çünki bu, Vətən müharibəsidir, buna torpaqlarını düşmən işğalından azad etmək deyirəm.

10 noyabrda Azərbaycan, Rusiya Federasiyası və Ermənistan arasında imzalanan üçtərəfli müqavilə olduqca önəm qazanır. Bəziləri bu müqavilənin əhəmiyyətini bə-

sitləşdirməyə çalışır, amma bu müqavilə sayəsində 1 dekabr tarixinədək 7 rayonumuz tamamilə boşaldılmış olacaq. Müqavilənin 5-ci maddəsinə görə Türkiyə masada da, ərazilərə nəzarətdə də olacaq. Rus əsgərləri ilə yanaşı, türk əsgərləri də ərazidə xidmət göstərəcək, sülhə nəzarət vəzifəsini icra edəcəklər.

Əlavə olaraq deyim ki, həmsədrlərin artıq heç bir təsir gücü qalmayıb. Onlar 27 il müddətində 1 milyondan çox azərbaycanlı qaçqın və məcburi köçkünü evlərinə geri göndərməli, BMT-nin 1993-cü ildə qəbul etdiyi qətnamələrə görə, həmsədrlər erməniləri o torpaqlardan çıxarmalı idilər, amma heç bir iş görmədilər. Bu da vaxt oğurlamaqdan başqa işə yaramadı. Yeni sistemdə Türkiyə, Rusiya Federasiyası, Azərbaycan və Ermənistan əsas rol oynayacaq. Bundan əlavə, müqavilənin 9-cu maddəsinə görə də Azərbaycanla Naxçıvan arasında dəhliz yarandı. Bu da Azərbaycanla Türkiyəni bir-birinə bağlayacaq. Məlumdur ki, Zəngəzur Azərbaycanımıza aiddir, sadəcə, zamanla siyasi və planlı şəkildə Ermənistana verilib.

Əslində, 26 sentyabr tarixinə nəzər salsaq, çox fərqli vəziyyət hökm sürürdü, indi isə tamam başqa vəziyyət var. Ona görə də bu tarixi zəfəri təbrik edirik. Bu zəfəri həm Azərbaycanın, həm Türkiyənin, həm də türk dünyasının qələbəsi olaraq görmək lazımdır. Nəticə etibarilə, Azərbaycanımız böyük qələbə qazandı. Ermənistanda siyasi vəziyyət qarışdı, mütəmadi şəkildə küçələrdə etiraz mitinqləri baş alıb gedir. Azərbaycanımızda isə insanlar bayraqlarla zəfəri qeyd edir. Ermənistana artıq diz çökdürülüb. Cənab Prezidentin sözləri ilə desək, "iti qovan kimi" qovduq erməniləri və o dəmir yumruğu Paşinyanın başına vurduq. Mənim bədənim burada, ruhum və ağlım Azərbaycandadır. Şuşa bizim üçün namus məsələsi idi, onu da aldıq. Şuşa vücudun ürəklə, torpağın su ilə birləşməsi kimidir. Şuşa Qafqazın incisidir, böyük mədəniyyət şəhəridir. Ona görə də 8 noyabrda Qarabağın açarı Şuşanı almağımız bizi çox xoşbəxt etdi. Artıq evindən zorla çıxarılan vətəndaşlar böyük sevinclə evlərinə geri dönəcəklər və ən önəmlisi onlar artıq məcburi köçkün deyil. Zəfərimiz mübarək olsun!

**Hulusi Kılıç**
**Türkiyənin Azərbaycandakı sabiq səfiri**

**Yeniazerbaycan.com**

# FRANSA SENATI ERMƏNİ LOBBİSİNİN ƏLİNDƏ OYUNCAĞA ÇEVRİLİB



23.11.2020

"Erməni lobbisi müəyyən təsir vasitələri ilə Fransa parlamentini uşaq bağçası səviyyəsinə endirib. Noyabrın 25-də Fransa senatında baş tutacaq müzakirələr bu qurumu növbəti dəfə rəzil vəziyyətə salacaq. Bunlar ya dərk etmirlər, ya da müəyyən səbəblərə görə mövcud reallıqla barışmaq istəmirlər. Azərbaycan Ordusu yenilməz Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə BMT Təhlükəsizlik Şurası başda olmaqla beynəlxalq təşkilatların Azərbaycanın ərazi bütövlüyü ilə bağlı qərar və qətnamələri həyata keçiriblər. Fransa tərəfi unutmasın ki, BMT və digər beynəlxalq təşkilatlarda Azərbaycanın ərazi bütövlüyü ilə bağlı sənədlərin qəbulu üçün özü də səs verib".

Bu fikirləri Türkiyənin Azərbaycandakı sabiq səfiri Hulusi Kılıç AZƏRTAC-a müsahibəsində bildirib.

Fransa senatının erməni lobbisinin əlində oyuncağa



çevrildiyini xatırladan keçmiş səfir deyib ki, parlament özünü elə aparır, sanki baş verənlərdən tamamilə xəbərsizdir. Məlum münaqişənin nizamlanması ilə bağlı Ermənistanın Baş naziri təslimçilik sənədinə özü imza atıb. Azərbaycan bütün dünya tərəfindən qəbul olunan ərazi bütövlüyünü bərpa edir. Fransa senatında təmsil olunanlar yaxşı bilirlər ki, bu istiqamətdə Türkiyə ilə Rusiya arasında da memorandum imzalanıb.

Minsk qrupundakı həmsədr ölkələrin Ermənistan-Azərbaycan münaqişəsində bitərəf olmasını beynəlxalq hüququn tələbləri kimi dəyərləndirən Hulusi Kılıç Azərbaycanı hazırkı mövqeyindən geri çəkilməyə qadir heç bir qüvvənin olmadığını vurğulayıb: "Vaxtilə BMT və digər beynəlxalq təşkilatlarda Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyən ölkələrin ayrı-ayrı strukturlarının buna zidd olaraq qəbul edəcəkləri qanun, yaxud qərar ancaq qərəzli kağız parçası olacaq. Ötən otuz ilə yaxın zaman kəsiyində bütün dövlətlər və beynəlxalq təşkilatlar Ermənistanın Azərbaycana qarşı işğalçılıq siyasəti və onun acı nəticələri barədə kifayət qədər məlumat əldə ediblər. İndi nə dəyişdi ki, birdən-birə Azərbaycana qarşı düşmənlik açıq müstəviyə keçdi? Deməli, bunlar təsdiq edirlər ki, Minsk Qrupu çərçivəsində işğal faktını sona çatdıra bilmədikləri üçün aqressivləşiblər".

Ermənistanın işğal etdiyi ərazilərdə törətdiyi vandalizm aktlarını qətiyyətlə pisləyən diplomat deyib ki, sülhsevər, ədalət axtaran, haqq və hüquqdan danışan dünya ictimaiyyəti real vəziyyətlə bağlı ədalətli çağırış etməlidir. Beynəlxalq hüquq öz sözünü deməlidir ki, gələcəkdə belə hallar təkrar olunmasın".

# SENATIN QƏRARI AZƏRBAYCAN VƏ TÜRKİYƏYƏ QARŞI DÜŞMƏNLİKDİR



26.11.2020

"Senatın qəbul etdiyi bu layihə mətni siyasət deyil, aydın şəkildə Azərbaycan və Türkiyəyə qarşı düşmənlikdir".

Bunu Trend-ə Türkiyənin Azərbaycandakı sabiq səfiri Hulusi Kılıç deyib.

Onun sözlərinə görə, dünən axşam Fransa senatında qondarma "Dağlıq Qarabağ Respublikası"nın tanınmasına dair qəbul edilən qətnamə layihəsi etibarsızdır, adi kağız parçasıdır, Fransa senatı üçün utancverici qətnamədir: "Qətnamə layihəsinə baxanda Qarabağla bağlı qəbul edilən qərarla Türkiyəyə qarşı da düşmənlik edildiyini görürük. Qətnamə Fransa senatının dünyadan xəbərsiz olduğunu, 27 sentyabrdan bəri Cənubi Qafqazda nə baş



verdiyi haqqında məlumatı olmadığını da nümayiş etdirir. Sözügedən qurum Azərbaycan, Ermənistan və Rusiyanın imzaladığı birgə bəyanatdan, Azərbaycanın apardığı Vətən müharibəsindən də xəbərsizdir. Daha vacibi BMT Təhlükəsizlik Şurasının Azərbaycanın işğal altında saxlanılan əraziləri və Dağlıq Qarabağla əlaqədar qəbul etdiyi, Fransa dövlətinin imzasının olduğu müvafiq qətnamələrdən xəbəri yoxdur. Fransa senatı ATƏT-in Minsk Qrupunun həmsədr ölkələrindən biri kimi Fransanın bitərəf və ədalətli olmalı olduğunu unudur. Eləcə də keçən həftə Prezident Emmanuel Makronun, "Qarabağ və ətrafındakı ərazilər beynəlxalq hüquqa əsasən Azərbaycan ərazisidir" – dediyini də bilmir".

Siyasətçi deyib ki, bütün bunlar təcavüzkar, işğalçı Ermənistanın Fransadakı davamçısı olan erməni diasporunun və lobbisinin Fransa senatını uşaq bağçasına, oyuncağa çevirdiyini göstərir: "Fransa senatının imici ciddi şəkildə zədələnib. Senatın qəbul etdiyi bu layihə mətni siyasət deyil, aydın şəkildə Azərbaycan və Türkiyəyə qarşı düşmənlikdir. Əvvəldə də qeyd etdiyim kimi bu sənəd dəyərsizdir, zibilə atılacaq".

# İLHAM ƏLİYEVİN ZƏFƏR GÜNÜ İLƏ BAĞLI QƏRARI TƏQDİRƏLAYİQDİR



05.12.2020

"Prezident İlham Əliyevin "Azərbaycan Respublikasında Zəfər Gününün təsis edilməsi haqqında" Sərəncamı Vətən müharibəsində misilsiz Qələbənin əbədiləşdirilməsi məqsədi daşıyır. Zəfər Gününü noyabrın 10-da qeyd etmək Azərbaycanın halal haqqıdır. Lakin Prezident İlham Əliyevin noyabrın 10-nun Türkiyə Respublikasının banisi Mustafa Kamal Atatürkün anım günü olduğunu nəzərə alaraq Zəfər Gününün tarixini dəyişməsi olduqca təqdirəlayiq addımdır".

Bu fikirləri Türkiyənin Azərbaycandakı sabiq səfiri Hulusi Kılıç AZƏRTAC-a açıqlamasında bildirib.

Atatürkün şəxsiyyətinə Azərbaycanda hər zaman ehtiram göstərildiyini söyləyən Hulusi Kılıç deyib ki, ulu



öndərlər Heydər Əliyev və Mustafa Kamal Atatürk insanların qəlbində əbədi yaşayan böyük şəxsiyyətlərdir: "Hər iki lider Azərbaycan və Türkiyə naminə tarixi missiyalar həyata keçiriblər. Atatürkün Azərbaycan haqqında, Heydər Əliyevin Atatürk barədə dediyi sözlər tarixi əhəmiyyət daşıyır. Əminəm ki, Prezident İlham Əliyevin bu müdrik qərarı Azərbaycan-Türkiyə münasibətlərini araşdıran tədqiqatçılar üçün də çox yaxşı mövzu olacaq", – o qeyd edib.

H.Kılıç əminliklə bildirib ki, 8 noyabr – Zəfər Günü Azərbaycanda olduğu kimi Türkiyədə də şanlı qələbə günü kimi qeyd olunacaq.

# ERMƏNİSTAN MÖVCUD REALLIQLARI QƏBUL EDİB ƏMƏKDAŞLIQ YOLUNU TUTMALIDIR




11.12.2020

"Azərbaycanın dövlət müstəqilliyini bərpa edəndən sonra keçirdiyi ilk Zəfər paradını izləmək olduqca qürurverici oldu. Bu parad bütün dünyaya, xüsusilə, türk-müsəlman düşmənçiliyi edən tərəflərə, ilk növbədə, Azərbaycan dövlətinin gücünü, ordunun yenilməzliyini, xalqın öz dövlətinə, torpağına, Vətəninə, ordusuna və Ali Baş Komandanına bağlılığını nümayiş etdirdi. Azərbaycanda xalq-iqtidar birliyi öz dövlətini qorumaq və inkişaf etdirmək üçün lazım olan hər şeyə qadirdir".

Bu fikirləri Türkiyənin Azərbaycandakı sabiq səfiri Hulusi Kılıç AZƏRTAC-a açıqlamasında bildirib.

Əldə olunan qələbənin Azərbaycanda olduğu kimi Türkiyə tərəfindən də zəfər olaraq sevə-sevə qəbul edildiyini diqqətə çatdıran Hulusi Kılıç deyib: "Azərbaycan döyüş meydanında qazandığı zəfər onun dövlət kimi dünya birliyindəki layiqli yerini daha da möhkəmləndirdi. Azərbaycan-Türkiyə qardaşlığı həm ölkələrimizin təhlükəsizliyinin qarantı, həm də bölgəyə sülh, sabitlik və inkişaf qazandıran birlikdir".

Prezident Rəcəb Tayyib Ərdoğanın Azərbaycana tarixi səfərini, Zəfər paradında iştirakını Azərbaycan-Türkiyə münasibətlərində yeni tarixi səhifə kimi dəyərləndirən H.Kılıç bildirib ki, dekabrın 10-da imzalanan sənədlər birilliyimiz və qardaşlığımız naminə atılan mühüm addımlardandır.

Azərbaycanın Naxçıvan bölgəsi ilə ölkənin digər əraziləri arasında əlaqələrin qurulmasından sonra bölgədə yeni bir əməkdaşlıq mühitinin yaranacağına əmin olduğuna diqqəti çəkən siyasətçi vurğulayıb ki, Ermənistan və onun havadarları mövcud reallıqla barışıb əməkdaşlıq yolunu tutmalıdır.

# ZƏFƏR PARADI İKİ QARDAŞ ÖLKƏ ARASINDAKI HƏMRƏYLİYİN ƏN YÜKSƏK ZİRVƏSİ İDİ




12.12.2020

"Zəfər paradı iki qardaş ölkə arasındakı həmrəyliyin ən yüksək zirvəsi idi".

Bu sözləri "Yeni Azərbaycan" qəzetinə açıqlamasında Türkiyənin Azərbaycandakı sabiq səfiri Hulusi Kılıç deyib.

Sabiq səfir bildirib ki, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın möhtəşəm parada qatılması qardaşlığımızın nə qədər möhkəm olduğunu göstərdi: "İki Prezident eyni anda, "Salam əsgər" – dedi. Bu, böyük məna kəsb edən məsələ olmaqla yanaşı, həm də dünyaya mesaj verən möhtəşəm hərəkət idi. İki lider birgə bəyan etdi ki, "Biz birik, bərabərik və birlikdə güclüyük".



Bir səs başqa, iki səs başqa. Çünki iki səs daha güclü çıxır. Həm qonşu ölkələr, həm də dünya Azərbaycanın Zəfər paradını izlədi, iki qardaş ölkənin birliyinin şahidi oldu. Azərbaycan-Türkiyə qardaşlığının böyük tarixi var. Azərbaycan türkləri hələ müstəqil dövlətlərini qurmamış Çanaqqalada öz qardaşlarının köməyinə gəlib, onlarla çiyin-çiyinə düşmənə qarşı vuruşublar. Bir neçə il sonra Nuru paşanın rəhbərlik etdiyi Qafqaz İslam Ordusu isə Azərbaycanın köməyinə yetişib, Bakını işğaldan azad edib. Bizim qardaşlığımız bir-iki günlük deyil, əsrlər boyudur, davam edir və daha da güclənir. İndi də Türkiyə hərbçiləri Zəfər paradında iştirak etdi. Sanki onlar da Nuru paşanın əsgərləri idi".

Hulusi Kılıç vurğulayıb ki, dünyada Azərbaycan-Türkiyə qardaşlığının başqa nümunəsi, bənzəri yoxdur: "Bizim qardaşlığımız çox fərqlidir. 1993-cü ildə Ermənistanın Kəlbəcəri işğal etməsindən sonra Türkiyə işğalçı dövlətlə sərhədini bağladı. Bu günə kimi sərhədlər açılmayıb. Bəs nə zaman açılacaq? Cənab Ərdoğanın da dediyi kimi, "Azərbaycan nə zaman razılıq versə, nə zaman "aç" desə, o zaman açılacaq". Paradda və ondan sonrakı görüşdə dövlət başçıları bir çox mühüm mesajlar verdilər, region ölkələrini sülhə, birgə əməkdaşlığa səslədilər. Orada vurğulanan "altılıq platforması"nın formalaşması, həqiqətən, bölgənin inkişafı üçün önəmli addım olar. Onsuz da region dövlətləri arasında üçtərəfli formatlar var. Beş dövlət bir-biri ilə sıx əməkdaşlıq içindədir. Əgər Ermənistan hökuməti də reallığı dərk edərək qonşularla ağıllı və normal siyasət yürütməyə qərar verərsə, onlar da birgə platformalarda təmsil oluna bilərlər. Bundan Ermənistan dövləti və xalqı qazanar. Ermənistan müasir reallığı qəbul etməlidir. Əks halda, sürətlə tənəzzülə uğrayacaq, ölkədə daim qarışıqlıq baş verəcək. Azərbaycan və Türkiyə bölgədə sülhün bərqərar olmasının tərəfdarıdır".

Keçmiş səfir bəyan edib ki, paraddan sonra imzalanan birgə anlaşmalar da olduqca önəmlidir: "İki qardaş ölkənin vətəndaşları, sadəcə, şəxsiyyət vəsiqələri ilə səfər edəcək. Bu qərar iki qardaşa yaraşan addımdır. O cümlədən media sahəsində ortaq əməkdaşlıqla bağlı sənədin, digər iqtisadi razılaşmaların da xüsusi əhəmiyyəti var. Bütün bunlar Bir Vətən olmağa doğru atılan addımlardır. Xatırladım ki, 2010-cu ilin 16 avqustunda, mən Azərbaycanda səfir olarkən iki ölkə arasında Strateji Əməkdaşlıq sazişi imzalandı. Bu anlaşmanın imzalanmasında əməyim çoxdur. 10 il əvvəl imzalanmış sənədin meyvəsini indi görürük. Azərbaycanda türk əsgəri varsa, məhz həmin razılaşmaya görədir. Azərbaycan tərəfi istədiyi zaman öz ölkəsinə Türkiyə Silahlı Qüvvələrini dəvət edə bilər".

H.Kılıç Zəfər paradının onu həddindən artıq duyğulandırdığını söyləyib: "Bayraqlarımızı yan-yana görmək, Azərbaycan və Türkiyə hərbçilərinin qürurlu keçidini izləmək, əhalinin coşqusunu, bütün o möhtəşəm mənzərəni seyr etmək insanda böyük ruh yüksəkliyi yaradır. Duyğulanmamaq əldə deyil. Parad əsnasında göz yaşlarımı saxlaya bilmədim. Dedim, İlahi, bu mənzərəni görməyi illərdir, xəyal edirdim, hər zaman ağlımda, düşüncəmdə olan Azərbaycan-Türkiyə birliyi artıq reallaşmaqdadır. Azərbaycan mənim Vətənimdir. Türkiyədə necə çalışmışamsa, səfir olarkən Azərbaycanda da eyni ruhla fəaliyyət göstərmişəm. 2009-cu ildə gündəmə gələn Türkiyə-Ermənistan əlaqələrinə dair normallaşma protokollarının imzalanmaması üçün əlimdən gələni etmişəm. Hörmətli Prezident İlham Əliyev məni ən yüksək mükafatla – "Dostluq ordeni" ilə təltif etdi".



# 27 İLİMİZİ GİZLİ-GİZLİ "YEYƏN" BU HƏMSƏDRLƏR BAKIYA HANSI ÜZLƏ GƏLİR?..




13.12.2020

Türkiyənin Azərbaycandakı sabiq səfiri Hulusi Kılıç ötən gün prezident İlham Əliyevin Bakıya təşrif buyurmuş Fransa və ABŞ-dan olan ikiüzlü həmsədrlərə diplomatik qulaqburması verməsini Moderator.az-a şərh edib.

Hulusi Kılıç İlham Əliyevin həmsədrlərlə açıq danışmasından qürur duyduğunu deyib: "Qələbə qazanmış Ali Baş Komandanın həmsədrlər önündə etdiyi nitq çox mənalıdır. 27 ilimizi "yeyən" bu həmsədrlər Bakıya nə üzlə gəlir? Onları heç dəvət edən olmamışdı. Hər halda, üzr

istəməyə gəliblər. "Bağışlayın, biz heç nə edə bilmədik". Siz öz gücünüzlə, Azərbaycanın qəhrəman ordusunun gücü ilə, şəhidlərimizin sayəsində torpaqlarınızı azad etdiniz. Təbrik üçün gəliblər, çox güman (gülür – red.). "Təbrikə gəliblər", – deyib gülək bir az da. Bundan əlavə, fransız niyə gəldi, görəsən? Hansı üzlə gəldi? Onun "tərəf" olduğunu açıq-aşkar gördük. Həm Makronun çıxışları, Fransa senatında, məclisində alınan qərarlar göstərdi ki, Fransa "tərəf" olmasına baxmayaraq o masada necə oturdu, bunu anlaya bilmirəm. Həqiqətən, Fransanın utanması lazımdır. 27 il gizli-gizli vaxtımızı oğurladılar, 1 milyondan çox qaçqın və köçkünün ağır şəraitdə yaşamasına razı oldular. Buna görə də cənab Prezidentin onlara dediklərini qulaqlarında sırğa etmələri lazımdır. İlham Əliyev bu sözləri ilə onlara, "sizin 27 ildə edə bilmədiklərinizi mən və ordum 44 gün içində həll etdi" – dedi. Sırğa kimi sözlər oldu bu onlara. Bəli, cənab Prezidentim, çox sağ olun! Ürəyimdəki o ağırlığı aldınız!"



# İLHAM ƏLİYEV YÜKSƏK LİDERLİK KEYFİYYƏTLƏRİ, CƏSARƏTLİ QƏRARLARI İLƏ SEÇİLƏN PREZİDENT, MÜZƏFFƏR ALİ BAŞ KOMANDANDIR



23.12.2020

"Prezident İlham Əliyev böyük qətiyyət göstərərək Azərbaycana qarşı otuz il idi davam edən işğalçılığın sona çatmasına nail oldu. O, yüksək liderlik keyfiyyətləri, cəsarətli qərarları ilə seçilən Prezident, Müzəffər Ali Baş Komandandır. Proseslərə nəzər saldıqda görürük ki, məhz

onun uğurlu siyasəti sayəsində Azərbaycan hazırda bütün sahələr üzrə dinamik inkişafın yeni mərhələsini yaşayır".

Bu fikirləri Türkiyənin Azərbaycandakı sabiq səfiri Hulusi Kılıç AZƏRTAC-a açıqlamasında bildirib.

Bütün Azərbaycan xalqının, eləcə də yenilməz Azərbaycan Ordusunun Ali Baş Komandan ətrafında sıx birləşərək ümumilli məsələlər naminə birlik nümayiş etdirməsini milli sərvət kimi dəyərləndirən Hulusi Kılıç deyib ki, Prezident İlham Əliyevin uzaqgörən siyasəti təkcə Azərbaycanın haqq işinin bərpası deyil, eyni zamanda, dünyada sülhün və ədalətin qorunması istiqamətində əməli addımlara çevrilib: "Bəli, nəyi nə zaman etmək lazım olduğunu hamıdan yaxşı bilən Prezident İlham Əliyev 44 günlük Vətən müharibəsində bir tərəfdən özünü soyuqqanlı və cəsur sərkərdə kimi təsdiq etdisə, digər tərəfdən dünya mediasının aparıcı qurumlarının qarşısında məntiqi düşüncələri və gerçəkləri əks etdirən həqiqətləri sərbəst şəkildə ifadə etməklə diqqəti cəlb etdi. Bir-birinə bağlı olan bu iki amil yenilməz Azərbaycan Ordusunun zəfər qazanmasında, bu qələbənin dünya birliyinə qəbul etdirilməsində həlledici güc oldu.

Prezident İlham Əliyevin Azərbaycan-Türkiyə dostluq, qardaşlıq münasibətlərinin inkişafında dinamizmi qorumaq üçün daim yeni təklif və təşəbbüslərlə çıxış etdiyini xatırladan Hulusi Kılıç qeyd edib ki, ən yaxın zamanda iki qardaş ölkənin diaspor təşkilatları vahid platforma üzərindən mühüm hədəflərə hesablanmış strategiyalar uğrunda birgə fəaliyyət göstərəcəklər: "Azərbaycan xalqı xoşbəxtdir ki, dünyanı təlatümlər bürüdüyü bir vaxtda İlham Əliyev kimi yüksək intellektli, müdrik və cəsur Prezidenti var. Azərbaycanın xoşbəxtliyi Prezident İlham Əliyevin xoşbəxtliyidir. Bu mənəvi bağlılıqdan qürur duyur və Azərbaycanın işıqlı gələcəyinə inanırıq".



# KEÇMİŞ SƏFİR RUSİYANI FAKT QARŞISINDA QOYDU




09.01.2021

"Xəstə təfəkkürlü Paşinyan hakimiyyəti ağlını başına yığmasa, təxribatlarının cavabını çox ağır ödəyəcək".

Ikinci Qarabağ müharibəsində Azərbaycanın qazandığı zəfər ətrafında baş verən siyasi proseslər, fikir mübadilələri səngimir. Əksinə, "çevrə daraldıqca", vəziyyət daha da mürəkkəbləşir. Sən demə, hər şey hələ indi başlayıbmış...

Dağlıq Qarabağda ermənilərin törətdiyi təxribatlar, rus sülhməramlıların vəzifələrinə zidd davranışları və bunun kimi digər məqamlar onu deməyə əsas verir ki, hələ qarşıda qət edilməli uzun marafon var. Bizsə bu yolda sə-

birli, əzmkar və həmrəy olmalı, qarşı tərəfin oyunlarına, hiylələrinə uduzmamalı, onlara inanmamalıyıq. Bu günlərdə erməni mətbuatında dərc olunan "azərbaycanlılar Ermənistana vizasız gələ biləcək" dezinformasiyası da (bu məlumat sonradan təkzib edildi) düşmənin bu və ya digər formada ictimai şüura təsir etmək niyyətindən xəbər verir. Deməli, biz də onların təxribatlarına hazır olmalı, yeri gələndə adekvat cavab verməliyik.

"Sherg.az" olaraq Türkiyənin Azərbaycandakı keçmiş səfəri Hulusi Kılıçla da elə bu barədə söhbətləşdik:

**– Sizcə, müharibə niyə məhz indi başladı?**

– Ali Baş Komandan İlham Əliyev məsələnin qan tökülmədən və diplomatik müstəvidə həllini istəyirdi. Həmsədrlər isə təəssüf ki, 27 il ərzində heç nə eləmədilər, vaxt uzatdılar. Cənab Prezident bir tərəfdən problemin diplomatik yolla həllini gözləyərkən, digər tərəfdən ordunu müasirləşdirməyə və əsgərlərin təhsil səviyyəsini profesionallıq dərəcəsinə çatdırmağa davam etdi. Bakıda səfir kimi çalışdığım müddətdə səsləndirdiyim Türkiyə və Azərbaycan əsgərlərinin birgə təlim keçmə ideyaları reallaşdı. Belə birgə təlimlər 2014-cü ildən etibarən keçirilir. Ötən il 12 birgə təlim baş tutub. Bundan başqa, Azərbaycan neft gəlirlərindən səmərəli şəkildə yararlanaraq ordu üçün ən müasir silahları əldə edib. Müstəqillik illərində minlərlə Azərbaycan əsgəri Türkiyədə təhsil alıb. Azərbaycan Silahlı Qüvvələri müasir və çevik orduya çevrilib.

2016-cı ildəki Aprel döyüşləri Azərbaycanın işğal altındakı torpaqlarını azad etmə gücündə olduğunu təsdiqlədi. Dörd il sonra 27 sentyabrda başlayan və 44 gün çəkən müharibə vaxtı Türkiyədən və İsraildən alınan silahlar döyüşlərin taleyini həll etdi. Xeyli sayda insan itkisinin qarşısını aldı. Ümumiyyətlə, ermənilərin 27 sentyabrda mülki əhalini hədəfə alaraq törətdikləri təxribat Vətən müharibəsinin



başlaması üçün tarixi fürsət oldu. Beləliklə, gözlənilən vaxt yetişdi.

**– 10 noyabr razılaşmasını necə qiymətləndirirsiniz?**

– Bu bəyanat tarixi fürsətlərə imkan verən sənəddir. Belə ki, Ağdam, Kəlbəcər və Laçın bir güllə atılmadan, itkisiz geri alındı. Həmçinin bəyanatın 5-ci maddəsinə uyğun olaraq türk əsgəri 102 il sonra Azərbaycana – qardaşlarına köməyə gəldi. Bu, tarixi – can Azərbaycanın haqq, hüquq və mənafelərini müdafiə edən fürsətdir. Digər tarixi imkan Naxçıvan ilə Azərbaycan arasında açılacaq dəhlizdir. Bu dəhliz Naxçıvan ilə Azərbaycan arasındakı sərhəddi 50 kilometr edəcək, Türkiyə ilə Azərbaycan və Türkiyə ilə türk dünyası arasında quru əlaqəsi yaradacaq.

**– Artıq Zəngəzurun Azərbaycana verilməsi müzakirə edilir. Sizcə, biz yaxın gələcəkdə növbəti tarixi zəfərə sevinə bilərikmi?**

– Zəngəzur 1921-ci ildə Sovet Rusiyanın Ermənistana hədiyyə etdiyi tarixi Azərbaycan torpaqlarıdır. Həmin ildəki arxiv sənədlərini araşdırsaq, Zəngəzurun Azərbaycana aid olduğunu görərik. Bu sənədlərə istinadən, əlbəttə, Zəngəzur tarixi sahiblərinə – Azərbaycana qaytarılmalıdır. Həm də Ermənistan Azərbaycana külli miqdarda təzminat ödəməlidir. Belə imkanı olmadığına görə də həmin kompensasiyanı torpaqla ödəməkdən başqa yolu yoxdur.

**– Ermənistan məğlub vəziyyətdə olsa da, təxribatlarını davam etdirir. Məsələn Xarici İşlər naziri Ara Ayvazyan Xankəndiyə gəlib. Onun orada nə işi var?**

– Görünür, erməni siyasi hakimiyyətinin ağlı başında deyil. Xarici İşlər naziri Ara Ayvazyanın rus sülhməramlılarına güvənərək Xankəndiyə gəlməsi açıq-aydın təxribatdır. Ayvazyanın bu qanunsuz səfərlə Azərbaycanın səbrini yoxlaması çox təhlükəlidir. Bu xəstə təfəkkürlü siyasi hakimiyyət ağlını başına yığmasa, təxribatlarının cavabını çox

ağır ödəyəcək. Yəqin Paşinyan bununla daxili narazılıqları yatırmaq istəyir. Hərçənd, Ermənistan hakimiyyəti qar-şı-qarşıya qaldığı vəziyyəti başa düşərək yeni dövrə başlamalıdır. Belə provakativ addımlar onun xeyrinə deyil.

**– Rusiya sülhməramlılarının düşməni dəstəkləməsi aşkardır. Belə vəziyyətdə nə etməliyik?**

– Bununla barışmaq mümkün deyil. Sülhməramlıların vəzifələri məlumdur. Adından da məlum olduğu kimi onlar iki tərəf arasında sülhü, əmin-amanlığı təmin etməlidir. Sülhməramlının tərəflərdən birini dəstəkləməsi səlahiyyətlərdən sui-istifadə deməkdir. Əgər belə davam edərsə, məsələnin həlli üçün Rusiya rəsmiləri ilə görüş lazım gələ bilər. Həmçinin media belə sui-istifadə hallarını işıqlandıraraq beynəlxalq ictimaiyyətə çatdırmalıdır.

**– İranın məsələyə münasibətini necə qiymətləndirirsiniz?**

– İran Türkiyə və Azərbaycanın önəmli qonşusudur. İki qardaş ölkə bu qonşuluğa böyük əhəmiyyət verir. İran hakimiyyəti unutmamalıdır ki, Türkiyə 2016-cı ildə onu dəstəkləmək naminə bütün dünyanı qarşısına aldı. Fəqət rəsmi Tehranın hazırkı reaksiyaları şəxsən məni təəccübləndirir. Ermənistanın regiondakı mövcudluğunu İran hesabına qoruduğu sirr deyil. Hər kəs iki ölkə arasındakı danışıqları, əməkdaşlıqları, gediş-gəlişləri bilir. İran Ermənistana dəstəyini Vətən müharibəsinin əvvəlindən verdi. Azərbaycan qələbə qazanandan sonra isə ərazi bütövlüyümüzü tanıdığını və dəstəklədiyini bəyan etdi. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Zəfər paradında oxuduğa şeirə İran Xarici İşlər naziri Məhəmməd Zərifin reaksiyası isə əks nəticə verdi. Belə ki, İranda yaşayan Azərbaycan türklərinin Azərbaycana və Türkiyəyə sevgiləri daha da artdı. Deməli, rəsmi Tehran mövcud reallığı qəbul edərək rəsmi Ankara və rəsmi Bakı ilə dürüst, səmimi siyasət yü-



rütməlidir. O, yalnız belə olan halda nəsə qazana bilər. Rəsmi Tehranın mövcud reallığı yaxşı analiz edərək sülh, sabitlik və iqtisadi əməkdaşlığa töhfə verəcəyini gözləyirik.

**– Yanvarın 11-də Azərbaycan, Rusiya və Ermənistan rəhbərləri arasında baş tutacaq görüşlə bağlı təxminləriniz nələrdir? Hansı qərarlar verilə bilər?**

- Görüşə İlham Əliyev zəfər qazanmış Ali Baş Komandan, Ermənistan Baş naziri isə diz çökmüş, atəşkəs üçün yalvarmış, məğlub sima kimi qatılacaq. Məncə, daimi atəşkəs və Azərbaycanın ərazi bütövlüyünün tanınması kimi məsələlər müzakirə ediləcək.

**– Sizcə, Azərbaycan və Türkiyə birliyi dünyaya hansı mühüm mesajları verdi?**

– Türkiyə ilə Azərbaycan birliyi bütün dünya üçün vacib mesaj oldu. İki ölkə arasında birlik regional güc yaratdı. Bundan sonra güclənərək davam edəcək bu birlik qonşu İran, Rusiya, Gürcüstan və Ermənistandan ötrü həyati əhəmiyyət daşıyır. İki həmişə birdən böyükdür. Türkiyə və Azərbaycan arasındakı qardaşlığın dünyada oxşarı yoxdur. Bu birlik gücünü və sarsılmazlığını 44 gün davam edən Vətən müharibəsində və tarixi zəfərdən sonra dünyaya nümayiş etdirdi. Türkiyə və Azərbaycanla dost olanlar qazanacaqlar. Bunu Gürcüstanın timsalında gördük. Dünya və region ölkələri iki qardaş ölkənin birliyinin getdikcə gücləndiyini bilməli, siyasətlərini buna uyğun tənzimləməlidirlər. Bu iki qardaş ölkənin həmişə dostluq, əməkdaşlıq, sülh tərəfdarı olduğu hər kəsə yaxşı məlumdur.

# HƏMSƏDRLİK İNSTİTUTU DƏFN EDİLDİ, ONLARI DİRİLTMƏK CƏHDİ VAXT İTKİSİDİR...



18.01.2021

“Onlar 27 il ərzində nə etdilər ki, bundan sonra da nəsə etsinlər? Fransa narahat olduğu üçün bu işə burnunu soxdu”.

Bunu Moderator.az-a açıqlamasında Türkiyənin Azərbaycandakı sabiq səfiri Hulusi Kılıç deyib.

Onun sözlərinə görə, 27 il ərzində həmsədrlər Qarabağ münaqişəsinin həlli istiqamətində heç bir iş görməyiblər: “Həmsədrlər, həmsədrlik institutu dəfn edildi, onları diriltmək cəhdi vaxt itkisidir. Həmsədrlərin işi artıq bitib, gedib istirahət etsinlər. Bundan sonrakı dönəmdə Türkiyənin də prosesin həllinə qatılmasıyla dördlük şəklində davamlı sülh prosesi təmin ediləcək. Sülh sazişi, əlbəttə, ermənilərin də işinə yarayacaq. Mövcud reallıqlarla barışsalar, bundan hamıdan çox qazanmış olarlar. Hər dəfə ölkə prezidentləri İlham Əliyev və Rəcəb Tayyib Ərdoğanın dediyi kimi, “Bizim xalqlarla düşmənliyimiz yoxdur, qonşuluq etməyə hazırıq”. Ermənistanın yeni reallıqla barışması lazımdır. Yenə təkrar edirəm, bu günə kimi həmsədrlər heç bir iş görməyiblər. Bir iş görmədiklərinə görə bundan sonra da prosesə müdaxilə etmək istəsələr, sadəcə vaxtımızı alacaqlar. Fransa həmsədrlərin bu işi pozması üçün əlindən gələni edəcək, çünki 44 günlük müharibə dövründə rəsmi Parisin əsl simasını bir daha gördük. Fansanın türk dünyasından nə qədər yanıqlı olduğunu, senatın qəbul etdiyi bədnam qərarların da şahidi olduq”.

# "QARABAĞ AZƏRBAYCANDIR VƏ NİDA" İFADƏSİ ƏSRLƏR BOYU ÖZ HİKMƏTİNİ QORUYACAQ ZƏFƏR ŞÜARINA ÇEVRİLİB




14.02.2021

"Azərbaycanın Vətən müharibəsindəki şanlı zəfərinin əsaslarını ardıcıl və prinsipial siyasət, həssas diplomatiya, mütəşəkkil ordunun şücaəti və xalqla prezidentin birliyi təşkil edir. Bu qələbənin təməli ötən il fevralın 15-də Münhen Təhlükəsizlik Konfransı çərçivəsində Azərbaycan



Prezidenti İlham Əliyev və Ermənistanın Baş naziri Nikol Paşinyanın iştirakı ilə keçirilən, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə həsr olunmuş panel müzakirədə qoyulub. Bu müzakirələr bir tərəfdən Azərbaycan həqiqətlərinin nümayişi idisə, digər tərəfdən Prezident İlham Əliyevin siyasi iradəsinin təntənəsi idi.

Bu fikirləri AZƏRTAC-a açıqlamasında Türkiyənin Azərbaycandakı sabiq səfiri Hulusi Kılıç söyləyib.

Prezident Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə yenilməz Azərbaycan Ordusunun 44 günlük Vətən müharibəsində böyük zəfər çalmasının regiondakı vəziyyəti kökündən dəyişdiyini diqqətə çatdıran Hulusi Kılıç deyib: "Bir il əvvəl Münhen Təhlükəsizlik Konfransı çərçivəsində ilk dəfə olaraq Azərbaycan və Ermənistan rəhbərləri geniş ictimaiyyət qarşısında çıxış etdilər. Bu paneldə Prezident İlham Əliyev böyük siyasi məharəti, yüksək intellektual hazırlığı ilə Ermənistanın işğalçı dövlət olduğunu təcavüzkar ölkənin baş nazirinin etirafları əsasında bütün dünyaya nümayiş etdirdi".

Prezident İlham Əliyevin həmin müzakirələr zamanı dünya ictimaiyyətinə çatdırdığı tarixi faktların, dərin məntiqi mülahizələrin və siyasi mühakimələrin Azərbaycan həqiqətlərinin təbliği baxımından mühüm rol oynadığını bildirən diplomat qeyd edib ki, "Qarabağ Azərbaycandır və nida" ifadəsi Azərbaycan xalqının milli mübarizə devizi oldu və əsrlər boyu öz hikmətini qoruyacaq zəfər şüarına çevrildi.

# ERMƏNİLƏR TÜRKİYƏ VƏ AZƏRBAYCANIN UZATDIĞI BARIŞ ƏLİNİ NƏİNKİ SIXMAĞA, HƏTTA ÖPMƏYƏ HAZIR OLMALIDIRLAR...



16.02.2021

44 günlük müharibədə Azərbaycan Ordusu tərəfindən sarsıdıcı zərbə alan Ermənistanda siyasi ehtiraslar sən-gimək bilmir. Baş verən məğlubiyyəti vətənə xəyanət kimi qiymətləndirən də var, Azərbaycanın bu ölkədən dəfələrlə güclü olduğu səbəbindən qeyri-bərabər döyüşdə məğlu-



biyyətin qaçılmaz olduğunu düşünənlər də. Çoxları bundan sonra Ermənistanın taleyinin necə olacağı və ölkəni bu uçurumdan necə çıxarılmalı olduğu haqqında baş sındırır. Hamı anlayır ki, onsuz da beynəlxalq sanksiyalar girdabında çabalayaraq hər gün zəifləyən Rusiyanın quyruğundan sallanmaqla ölkəni səfalət və fəlakətdən xilas etmək mümkün olmayacaq. Yeganə ağıllı addım bütün qonşularla, xüsusən də, regionun ən güclü dövlətlərindən olan Türkiyə ilə münasibətləri nizamlamaqdır. Amma necə? Təbii ki, ilkin şərt irəli sürmədən Ermənistan Türkiyə ilə əlaqə qurmaq istərdi. Amma Ankaranın buna getməyəcəyini də bilirlər. Türkiyə ona qarşı yersiz soyqırımı və torpaq iddiası ilə çıxış edən, dövlət siyasətinin ana xəttini türklərə qarşı terror təşkil edən nankor qonşusu ilə əlaqələrini 28 il öncə – Kəlbəcərin işğalından sonra birdəfəlik kəsib.

Elə bu işğalçı ölkə ilə münasibətləri yenidən qurmaq ehtimalının nə dərəcədə gözlənilən olduğunu soruşduğumuz Türkiyənin Azərbaycandakı keçmiş səfiri Hulusi Kılıç da deyir ki, Ermənistan Türkiyə ilə münasibətləri bərpa etmək istəyirsə, hansı addımlar atılmalı olduğunu bilirlər: "Ermənistan yüz ildir ki, Türkiyəyə qarşı əsassız və haqsız iddialarla çıxış etməklə kifayətlənməyib, hər fürsətdə Türkiyəyə qarşı namərd davranışlar sərgiləyib. Ancaq 44 günlük müharibədən sonra bu qədər namərdliyə rəğmən Ermənistana növbəti dəfə xoş niyyət ifadə edildi. Dekabrın 10-da Bakıda Zəfər paradında çıxış edən Prezident Rəcəb Tayyib Ərdoğan Ermənistana barış əlini uzatdı. Ermənistanın bu əli sıxması, bölgədəki sülh və rifah üçün hansı addımların atılmalı olduğunu anlamalıdır. İrəvan, nəhayət, anlamalıdır ki, havadarlarına güvənərək bir daha Azərbaycana qarşı hansısa ərazi iddiasına qalxsa, başının üzərində Domokl qılıncı kimi asılmış "Dəmir yumruq" onu növbəti dəfə tar-mar edəcək. Artıq Ermənistan və onun hi-

mayədarları anladılar ki, Türkiyə-Azərbaycan bir bədəndə döyünən iki ürək kimidir və bu qardaşlıq qiyamətə qədər davam edəcək. Artıq bir millət iki dövlət anlayışı bir millət, bir dövlət arzusuna çevrilməkdədir. Fevralın 10-da Ermənistanın yeni XİN başçısı Ara Ayvazyan Türkiyə ilə Ermənistan arasındakı sərhədlərin açılması üçün heç bir maneə qalmadığını söyləyib. Əslində, erməni diplomat haqlıdır, ən böyük maneə elə Ermənistanın özündə və onun əsassız iddialarında olduğunu bilməmiş deyil. Bir sözlə, top onların meydadındadır. Qonşularla mehriban yaşamaq istəyirlərsə, əvvəlcə daxili problemləri çözməli, terrorçu mahiyyətdən imtina etməlidirlər. Türkiyə və Azərbaycanın uzatdığı barış əlini nəinki sıxmağa, öpməyə hazır olduqlarını əməlləri ilə ortaya qoymalıdırlar. O zaman bölgənin digər xalqları kimi erməni xalqı da nəhayət, xoş günlərinə qovuşa bilər".



# BUNDAN SONRA BİR MİLLƏT, BİR ORDU, BİR DİASPOR OLACAQ



02.17.2021

"Ermənistan Azərbaycan və Türkiyənin uzatdığı əli tutarsa, bölgədə sülh, təhlükəsizlik və inkişaf olar".

Bu fikirləri Yenicag.az-ın əməkdaşına açıqlamasında Türkiyənin ölkəmizdəki sabiq səfiri Hulusi Kılıç səsləndirib.

Hulusi Kılıç Azərbaycanın torpaqlarını işğaldan azad etməsindən sonra Türkiyə-Azərbaycan münasibətlərinin, o cümlədən bölgənin gələcəyinin daha parlaq olacağını deyib: "Ermənistan Azərbaycan və Türkiyənin uzatdığı

əli tutarsa, bölgədə sülh, təhlükəsizlik və inkişaf olar. Bölgədəki inkişafa ən çox mane olan da Ermənistandır. Əgər bunu qəbul etməsə, daha da pis vəziyyətə düşəcək. Ağıllarını başlarına yığmalıdırlar. Diasporun arxası ilə düşüb çörək gözləsə, ondan dövlət ola bilməz. Ona görə də biz gələcəyi daha yaxşı və parlaq görürük. Sabahlar bizimdir, sabahlar türk millətinindir".

Hulusi Kılıç səfir olduğu dövrdə Azərbaycan və Türkiyə arasında yaşanan "bayraq gərginliyi"nə də toxunaraq bunun sınaq olduğunu və hər iki ölkənin bu sınaqdan üzüağ çıxdığını qeyd edib: "Xarici qüvvələr o zaman bizi bir-birimizdən ayırmağa çalışdılar, amma bacara bilmədilər. Onlar bunu dik və qərarlı duruşumuza görə bacara bilmədilər. O günləri arxada qoyduq. İnşallah, "Çəkişərək bərkidik" adlı kitab yazacağam və orada bütün yaşananları təfərrüatı ilə qeyd edəcəyəm. Mən o zaman qəzet-qəzet gəzdim, dik durdum. Dedim ki, bu bir sınaqdır, biz bir ailəyik və bu da ailə daxilində olan problemdir. Şükür, bu gün bir millət, bir dövlət kimi çalışırıq. Bundan sonra bir millət, bir ordu, bir diaspor olacaq".



# 10 NOYABR BƏYANNAMƏSİ STATUS-KVONU YOX ETDİ



22.02.2021

"10 noyabr bəyannaməsi status-kvonu yox etdi. Bunu İlham Əliyev də qeyd edib. 1992-ci ildən statusu ləğv etmişik. Bu keçid dönəmidir. Xocalı, Xankəndi, Ağdərə və Xocavənd Azərbaycan torpaqlarıdır. BMT-nin bununla bağlı qərarları var".

Bu fikirləri Qazet.az-a açıqlamasında türkiyəli diplomat, 2008-2012-ci illərdə Türkiyənin Azərbaycandakı səfiri olmuş Hulusi Kılıç deyib.

Sabiq səfir qeyd edib ki, Ermənistan hakimiyyətinin Qarabağda yaşayan ermənilərə yalan vədlər verməsi oradakı ərazilərin Azərbaycan torpaqları olması əsasını dəyişməyəcək: "Qarabağdakı ermənilərin kasıb Ermənistanın yox, zəngin Azərbaycanın vətəndaşı kimi orada yaşamaları onlar üçün xeyirli olacaq. Azərbaycanda vətən, torpaq,

şəhidlik və bayraq anlayışları dəyişib. Azərbaycan dünyanın ən önəmli ölkəsi olub. 1990-cı illərdəki Azərbaycan artıq yoxdur. O zaman ölkənin heç nəyi yox idi. 44 gün ərzində Azərbaycan igidləri torpaqlarını geri aldı. Ona görə də hər kəs ağlını başına yığsın. Ermənilər qeyd etdiyimiz Azərbaycan torpaqlarında yaşamaq istəyirlərsə, yaşasınlar. Buna heç kimin etirazı yoxdur. Bakıda 30 min erməni yaşayır. Ermənistanda isə bir nəfər də olsun azərbaycanlı və ya türk yoxdur. Türkiyədə də 60 min erməni yaşayır. Lazım gəlsə, "bir gecə qəflətən gələ bilərik". 4 rayonla bağlı keçid zamanıdır. Ümid edirik ki, ermənilər ağıllarını başlarına yığar".



# İLK GÜNDƏN 40 MİKRAFONUN QARŞISINDA "QARABAĞ UĞRUNDA ŞƏHİD OLMAĞA HAZIRAM" – DEMİŞƏM



07.03.2021

Hulusi Kılıç: "Vətən müharibəsi günlərində cismim Türkiyədə idi, amma ağlım və ruhum Qarabağda, sizinləydi"

Hər zaman "Bir millət, iki dövlətin səfiri" kimi tanıdığımız Azərbaycan sevdalı diplomat, Türkiyənin Azərbaycandakı sabiq səfiri Hulusi Kılıç bu həftə ikinci vətəninə səfər etmişdi.

Musavat.com-a geniş müsahibəsində səfərinin məram və məqsədləri barədə danışan dəyərli diplomat Qarabağla bağlı suallarımızı da məmnuniyyətlə cavablandırdı:

– Hulusi bəy, növbəti dəfə öz Vətəninizə xoş gəlmisiniz. Ən önəmlisi budur ki, budəfəki səfəriniz qalib Azərbaycanadır. Onu da deyim ki, sinənizə taxdığınız "Xarıbülbül" nişanı, Azərbaycan və Türkiyə bayraqları sizə çox yaraşır. Sizin Azərbaycan sevdalı olduğunuzu hər kəs bilir, elə bu fəaliyyətinizə – Azərbaycan Respublikasının Türkiyə Respublikası ilə dövlətlərarası əlaqələrinin inkişafı və möhkəmləndirilməsində xüsusi xidmətlərinizə görə Prezident İlham Əliyev sizi 9 il öncə "Dostluq" ordeni ilə təltif etmişdi, bu, ilk nümunə idi. Unutmamışıq ki, həm diplomatik fəaliyyətiniz dönəmində, həm ondan sonrakı bütün zamanlarda Qarabağın azad olunması uğrunda sözünüzü dediniz, hətta Qarabağ uğrunda şəhid olmağa hazır olduğunuzu dəfələrlə bildirdiniz. Bu mənada Qarabağın azadlığı ilə bağlı təbrik həm də sizə düşür.

– Çox təşəkkür edirəm, dəyərli qardaşım! Bir il sonra Azərbaycana budəfəki səfərim dediyiniz kimi, torpaqlarımızın düşmən işğalından qurtuluşundan sonra reallaşdı. Buraya gəlişimin bir səbəbi televiziyalarda, qəzetlərdə, saytlarda Azərbaycanın böyük zəfərilə əlaqədar mövqeyimi bildirməyim, həm də rəsmiləri təbrik ziyarəti idi. Pandemiya səbəbindən bir az gecikdik. Hər zaman bunu söyləmişəm: bir millətin səfiri oldum və bir millətin səfiri olmağa davam edəcəyəm. Bu, daim belə olacaq, heç zaman dəyişməyəcək. Çox yaxşı bilirsiniz ki, ilk gündən, "Qarabağ uğrunda şəhid olmağa hazıram" – demişəm. 40 mikrafonun qarşısında bunu söyləyirdim. Vətən müharibəsi



günlərində də cismim Türkiyədə, amma ağlım və ruhum Qarabağda, sizinlə idi. İstər skayp bağlantıları ilə, istər yazılarımla zəruri olan mənəvi dəstəyi verməyə çalışdım. Sağ olsunlar, bunu bilənlər oldu, məni təbrik etdilər. Təbii ki, 30 ildən sonra torpaqlarımızı düşməndən qurtarmağımız çox önəmlidir. Cənab Prezidentin liderliyi, can Azərbaycan xalqımızın liderinin ətrafında birləşməsi və ordumuzun yüksək səviyyədə inkişafı, modernliyi bu savaşı cəmi 44 gün ərzində qazanmağımıza səbəb oldu.

**– Qardaş Türkiyənin hər an yanımızda olmasını da xüsusi qeyd etməliyik...**

– Təbii ki, Türkiyə Prezident Rəcəb Tayyib Ərdoğan başda olmaqla, nazirlər, parlament sədri, prezidentin köməkçisi və bütün türk xalqı Azərbaycanın yanında idi.

**– Türkiyə mediası da ön cəbhədəydi, haqq savaşında Azərbaycanın səsi oldu...**

– Bəli, Türkiyə mediası hər zaman burada oldu, dünyada səsimiz oldular. Mənə görə, media çox böyük gücdür. Türk mediası bu gücünü göstərdi. Türk mediası sanki bu savaş Türkiyədə olurmuş kimi işlədi. Siz də onlara çox böyük dəstək oldunuz. Həm Türkiyə, həm də Azərbaycan mediasını təbrik edirəm. Həqiqətən, bir millət belə olur, bunu bütün dünya gördü.

**– Hulusi bəy, Qarabağ zəfərinə baxış bucağınızı bilmək istərdik. Sizcə, bu qələbənin ən önəmli tərəfləri nələrdir?**

– Qarabağ zəfərinin çox böyük üstünlükləri var. Birincisi, 30 ildən sonra torpaqlarımızı geri aldıq. İkincisi, cənab Prezident İlham Əliyevin liderliyi və xalqın dəstəyini, ordunun gücünü bütün dünya gördü. Üçüncüsü, gələcəyə hesablanmış Türkiyə-Azərbaycan qardaşlığının üzərimizdəki məsuliyyət yükünü də unutmamalıyıq. Bundan sonra Türkiyə-Azərbaycan qardaşlığı daha da möhkəmlənəcək. Bu zəfərlə yeni körpülər atıldı. Üstəlik, Türkiyədə yaşayan

83 milyon nəfər Türkiyə-Azərbaycan qardaşlığının önəmini gördü, Azərbaycanı daha yaxından tanıdı. Eyni zamanda, Azərbaycan xalqı da türk xalqını tanıdı ki, yanımızda qardaş ölkə var.

**– Bəs Türkiyə və Azərbaycanın Ermənistanla bundan sonrakı münasibətlərini necə təsəvvür edirsiniz?**

– Bu gün bölgədə yeni reallıq yaranıb. Bu reallığı Ermənistanın qəbul etməsi lazımdır. Biz yaxşı, doğru-dürüst qonşu istəyirik. Ermənistan bugünədək dövlət ola bilməyib. Erməni lobbisinin, erməni diasporasının, kilsənin nəzarətində olan terror təşkilatı kimi mövcud olub. Bizim heç kimlə, heç bir xalqla düşmənliyimiz yoxdur. Türkiyədə 60 min erməni vətəndaşımız var, həmçinin 100 min Ermənistan vətəndaşı orada çörək qazanır.

Bilirik ki, burada da 30 mindən çox Azərbaycan vətəndaşı olan erməni var. Mövqeyim budur ki, Qarabağın dağlıq hissəsində yaşayan ermənilər Azərbaycan vətəndaşlarıdır, Bakıda yaşayanlar kimi. Əgər Qarabağdakı ermənilər Azərbaycanın qanunları ilə yaşamaq istəməsələr, İrəvana gedərlər, bunu qəbul etmələri lazımdır.

**– Yəni ermənilər seçim etməlidir...**

– Bəli. Kasıb Ermənistan vətəndaşımı olmaq istəyirlər, yoxsa zəngin Azərbaycan vətəndaşımı? Bu, ən önəmli seçimdir. 1991-1992-ci illərdən əvvəl də Azərbaycan pasportunu, şəxsiyyət vəsiqəsini daşıyırdılar. Bundan sonra da eyni vəziyyət davam edəcək, dəyişən nəsə yoxdur. Status-kvo da yoxdur, status yoxdur, bu reallığı görməlidirlər. Ermənistanın, nəhayət, dövlət olması, qonşularına hörmət etməsi, Azərbaycanın ərazi bütövlüyünü tanıması lazımdır.

**– Həmçinin Türkiyəyə qarşı ərazi iddialarından əl çəkməsi lazımdır, elə deyilmi?**

– Bəli. Türkiyəyə qarşı torpaq iddiasından əl çəkməsi, qondarma "soyqırımı" iddialarından vaz keçməsi, terrora son qoyması, Azərbaycan və Türkiyədən üzr istəməsi gərəkdir.

**– Amma dövlət başçısının dediyi kimi, hüquqi müstəvidə mübarizə davam edəcək. Çünki işğal dövründə Ermənistan Azərbaycana milyardlarla dollar zərər vurub. Təzminat ödəməlidir.**

– Təbii ki, Ermənistanın təzminat ödəməsi lazımdır. Çünki Qarabağdakı binalarımızı, tarixi əsərlərimizi, məscidlərimizi yerlə bir ediblər, yaşayış məntəqələrini dağıdıblar.

**– Bu da faktdır ki, Türkiyənin qapıları Ermənistanın üzünə qapalıdır. Yaxın vaxtda sərhədlərin açılması real görünürmü?**

– Türkiyə-Ermənistan sərhədi 1993-cü ildən bəri bağlıdır. Bu qapılar cənab Prezidentin icazəsi ilə açıla bilər. Türkiyə mütləq sərhədi açmaq üçün cənab Prezidentlə görüşəcək. Amma dediyim kimi, Ermənistanın birdəfəlik terror fəaliyyətindən vaz keçməsi, Qarabağın dağlıq hissəsi ilə bağlı gerçəyi qəbul etməsi, torpaq iddialarından əl çəkməsi, Azərbaycan və Türkiyənin ərazi bütövlüyünü tanıması gərəkdir. Tələsəcəyimiz yer yoxdur. Sərhədlər bu günə qədər 28 ildir, qapalıdır. Yenə qapalı olar, itirəcəyimiz nəsə yoxdur, amma açılsa, Ermənistan qazanar.

**– Ancaq Ermənistanda müəyyən qüvvələr Azərbaycanla anlaşmanı pozmaq, Zəngəzur dəhlizini açmamaqla bağlı iddialar səsləndirirlər. Bu haqda nə deyə bilərsiniz?**

– Bu, əslində, Ermənistan üçün şansdır, bunu qəbul etməsi lazımdır. Biz əlimizi uzatdıq, bu əli sıxmalı və öpməlidir. Çünki bu əldə erməni xalqı üçün çörək, gələcək var.

**– Konkretləşdirsək, türkün böyüklüyüdür ki, hətta əzilmiş düşmənə də yardım əlini uzadır...**

– Bəli. Heç vaxt kinli olmamışıq. Heyfsilənirəm ki, nəsilləri düşmənliklə zəhərləyirlər. Türkiyədə heç bir gənc

ermənilərə qarşı kin bəsləmir. Kinlə böyüyən nəsil sağlam olmaz. Kin, nifrətə son verilməlidir ki, bu qovğa bitsin, yeni nəsillər əmin-amanlıq içərisində yaşasınlar, mən bunu arzu edirəm!

**– Ruslar kimi, türk əsgərinin də Qarabağa sülhməramlı missiya çərçivəsində gəlməməsi vətəndaşlarda narahatlıq yaratmışdı. Şükür, artıq Türkiyə hərbçilərinin bir qrupu Birgə Monitorinq Mərkəzində çalışır. Bu da Azərbaycan üçün əlavə üstünlük, iki qardaşın çiyin-çiyinə dayanmasının növbəti nümunəsidir. Buna yanaşmanız necədir?**

– 10 noyabr bəyannaməsi üç ölkə arasında imzalandı: Azərbaycan, Rusiya və Ermənistan. İmzalanan sənəddə Türkiyənin adı çəkilmir. Amma anlaşmanın 5-ci maddəsinə görə, Monitorinq Mərkəzi qurulmalı idi. Rusiya ilə Türkiyə razılaşdı, Ağdamda Birgə Monitorinq Mərkəzi quruldu. Bu, bölgədəki terrorçuların və Ermənistanın fəaliyyətinə nəzarət etməyə imkan verir. Monitorinq Mərkəzi açıldıqdan bu günə qədər hələlik yanlış nəsə olmayıb. Mərkəz ermənilərin fəaliyyətini təqib edir, bundan sonra da təqib edəcək. 10 noyabr bəyannaməsinə görə Qarabağın dağlıq hissəsində rusiyalı sülhməramlılar fəaliyyət göstərir. Sülhməramlılar öz fəaliyyətini doğru-dürüst həyata keçirərlərsə, heç bir problem ortaya çıxmaz.

Bütün məsuliyyət rus sülhməramlılarınındır. Onlar orada hüququ, haqqı qorumaq üçündür. Bunun əksinə davranırlarsa, missiyalarını bitirmiş olarlar. Türkiyə olaraq bütün prosesi təqib edirik və təqib edəcəyik. 102 il sonra türk əsgərinin Azərbaycana gəlməsi, əslində, Azərbaycana çox önəmli dəstəkdir. Bundan sonra da türk əsgəri işini görəcək. Türkiyədən gələn hərbçilər Azərbaycanın generalı və zabiti kimi çalışacaq. Bu, kimsə üçün deyil, Azərbaycanın haqqını, hüququnu qorumaq üçündür. Təbii ki,



Azərbaycanın istədiyi öz haqqının, hüququnun qorunmasıdır. Birgə Monitorinq Mərkəzi də Azərbaycanın haqqını, hüququnu qorumaq üçün yaradılıb, bunun əksi olan bir şey yoxdur.

**– Bilirik ki, qısamüddətli səfəriniz zamanı mühüm görüşləriniz olub və yəqin ki, zəngin təəssüratlarınız var. Təəssüratlarınızı bölüşə bilərsinizmi?**

– Budəfəki görüşlərim qalib ölkənin vətəndaşları, qəddi dik, üzü gülən, gözləri parlayan qardaş-bacılarımla oldu. Artıq düşməni məğlub etmiş, zəfər qazanmış ölkənin vətəndaşları, qalib ölkənin rəsmilərilə görüşdüm. Ona görə də çox böyük xoşbəxtliklə geri dönürəm. Bundan sonra daha fərqli olacaq.

Qarabağ yaşıl zonaya, həm Azərbaycan, həm Türkiyə, həm bölgə üçün inkişaf mənbəyinə çevriləcək. Daha gözəl Qarabağ quracağıq. Burada Türkiyə şirkətləri də çalışacaq. Türkiyədə necə işləyirlərsə, burada da o cür işləyəcəklər. Türk şirkətləri Çindən sonra dünyanın ikinci şirkətləridir, işlərini həm keyfiyyətli, həm də sürətli görürlər.

**– Hulusi bəy, bəs, Qarabağa nə zaman gedəcəksiniz?**

– Qarabağa gələcəkdə gedəcəyəm. Pandemiya da yavaş-yavaş bitir, peyvənd prosesi gedir. Qarabağa mütləq gedəcəyəm. Şuşaya, Cıdır düzünə gedəcəyəm, orda çay içəcəyəm. Bir vaxtlar Paşinyanın yallı getdiyi məkanda gözəl vaxt keçirəcəyik. Gedəcəyik, inşallah, yollar da çəkilir, hava da düzəlir. Şuşada Üzeyir Hacıbəyli məktəbinin təməlqoyma mərasiminin də keçirilməsi gözlənilir. İnşallah, daha gözəl günlər qarşıdadır.

# QALİB AZƏRBAYCANDA OLMAQDAN QÜRUR DUYDUM...




11.03.2021

*Hulusi Kılıç: "Torpaqlarını işğaldan azad edən Azərbaycan xalqı Prezident Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi və öz müzəffər ordusunun gücü ilə şanlı tarix yazdı".*

Qardaş Türkiyənin Azərbaycandakı keçmiş səfiri Hulusi Kılıçı hər kəs Azərbaycanın əsl dostu kimi tanıyır. Bu da səbəbsiz deyil. Çünki 9 il öncə Prezident İlham Əliyevin sərəncamı ilə "Azərbaycan Respublikasının Türkiyə Respublikası ilə dövlətlərarası əlaqələrinin inkişafı və möhkəmləndirilməsində xüsusi xidmətlərinə görə" "Dostluq" ordeni ilə təltif edilən Hulusi Kılıç istər ölkəmizdə səfir kimi fəaliyyət göstərdiyi illərdə, istərsə də ondan sonra Azərbaycanın dostu olduğunu dəfələrlə təsdiq edib. "Mənim bir Vətənim Türkiyə, o biri Vətənim Azərbaycandır", – deyən Hulusi Kılıç ötən həftə yenidən Bakıda idi. Biz də onunla görüşüb istər Vətən müharibəsindəki tarixi zəfərimiz, istərsə də digər məqamlarla bağlı suallara cavab aldıq.

Suallara keçməzdən öncə onu da bildirək ki, Hulusi Kılıç Azərbaycanda səfir işləyib, geri dönəndən sonra gözəl bir ənənənin əsasını qoyub. Belə ki, Hulusi bəy səfir işlədiyi dövrdə Bakıda diplomatik korpusda fəaliyyətdə olan və sonradan ölkələrinə dönən Türkiyə vətəndaşlarını bir araya toplayaraq Bakı Dostluq Qrupu yaradıb.

Beləliklə, bizə müsahibəsində ilk olaraq Azərbaycana budəfəki səfərinin məqsədinə toxunan H.Kılıç, "Öncə onu deyim ki, mən bir Vətəndən o biri Vətənə gəlmişəm. Azərbaycana budəfəki səfərim torpaqlarımızın düşmən işğalından azad olunmasından sonra gerçəkləşdi. Buraya gəlişimin səbəbi həm televiziyalarda, qəzetlərdə, saytlarda Azərbaycanın böyük zəfəri ilə əlaqədar mövqeyimi bildirməyim, həm də rəsmiləri təbrik ziyarəti ilə bağlı idi. Düzdür, pandemiya səbəbindən bir az gecikdik. Amma istər o şanlı savaş günləri, istərsə də ondan sonra həm skayp bağlantıları ilə, həm də yazılarımla zəruri olan mənəvi dəstəyi verməyə çalışdım" – dedi.

Bu səfərin onda hansı təəssürat yaratdığına dair sualı cavablandıran siyasətçi qalib Azərbaycanda olmaqdan qürur duyduğunu bildirdi: "Cənab Prezident İlham Əliyevin liderliyi, can Azərbaycan xalqımızın öz liderinin ətrafında sıx birləşməsi və Azərbaycan Ordusunun yüksək səviyyədə inkişafı, modernliyi cəmi 44 gün ərzində tarixi zəfər əldə etməyimizə səbəb oldu. Bir sözlə, torpaqlarını işğaldan azad edən Azərbaycan xalqı Prezident Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi və öz müzəffər ordusunun gücü ilə şanlı tarix yazdı. Elə bir tarix ki uzun illər bu savaşdan, bu savaşda göstərilən qəhrəmanlıqlardan bəhs ediləcək. Təbii ki, bu müharibə günlərində başda

cənab Prezident Rəcəb Tayyib Ərdoğan olmaqla, Türkiyənin dövlət və hökumət adamları, o cümlədən 7-dən 77-yə bütün vətəndaşlarımız can Azərbaycanımızın yanında oldular. Konkret olaraq sualınıza gəlincə, mənim üçün bu səfərin ayrı dəyəri var. Çünki budəfəki görüşlərim qalib ölkənin vətəndaşları, siz də daxil olmaqla qəddi dik, üzü gülən, gözləri parlayan qardaş-bacılarımla oldu. Artıq düşməni məğlub etmiş, zəfər qazanmış ölkənin vətəndaşları, qalib ölkənin rəsmiləri ilə görüşdüm. Ona görə də çox böyük xoşbəxtliklə geri dönürəm".

44 günlük Vətən müharibəsində əldə edilən zəfərin bir çox üstünlüklərinin olduğunu deyən müsahibimiz bildirdi ki, ən əsası Azərbaycan 30 ildən sonra torpaqlarını düşmən işğalından azad etdi: "İkincisi, cənab Prezident İlham Əliyevin liderliyini və xalqın dəstəyini, Azərbaycan Ordusunun gücünü bütün dünya gördü. Üçüncüsü, Azərbaycan xalqının düşmənə qarşı öz torpaqlarının işğaldan azad edilməsi üçün necə qəhrəmanlıqlar göstərdiyinin də hər kəs şahidi oldu. Dördüncüsü, dünya qarşı tərəfin xislətinin, dinc əhaliyə qarşı törətdiyi cinayətlərin şahidi oldu və Ermənistanın terror dövləti olduğu bir daha sübut edildi".

Onun sözlərinə görə, bütün bunların fonunda Türkiyə-Azərbaycan qardaşlığı yeni mərhələyə qədəm qoydu: "Türkiyə-Azərbaycan qardaşlığı daha da möhkəmlənəcək. Bu zəfərlə yeni körpülər salındı. Üstəlik, Türkiyədə yaşayan 83 milyon nəfər Türkiyə-Azərbaycan qardaşlığının önəmini gördü, Azərbaycanı daha yaxından tanıdı. Eyni zamanda, Azərbaycan xalqı da bir daha əmin oldu ki, yanımızda qardaş ölkə var. Bundan sonra daha fərqli olacaq. Qarabağ, işğaldan azad olunmuş torpaqlar yaşıl zona olacaq, həm Azərbaycan, həm Türkiyə, həm bölgə üçün inkişaf mənbəyinə çevriləcək. Daha gözəl Qarabağ quracağıq. Burada Türkiyə şirkətləri də çalışacaqlar, Türkiyədə necə



işləyirlərsə, burada da o cür işləyəcəklər. Öz vətənlərinə xidmət etdikləri kimi burada fəaliyyət göstərəcək, işğaldan azad olunmuş torpaqlarda quruculuq işlərində ön sırada gedəcəklər. Yəni Türkiyə olaraq hər zaman olduğu kimi bundan sonra da Azərbaycanın yanında olacağıq".

Son vaxtlar Ermənistandakı bəzi revanşist qüvvələrin fəallaşmasına gəlincə, H.Kılıç bu cür addımların Ermənistana və ermənilərə yalnız ziyan vuracağını bildirdi: "Azərbaycanın Vətən müharibəsindəki tarixi qələbəsi bölgədə yeni reallıq yaradıb. Bu reallığı Ermənistanın qəbul etməsi lazımdır. Heç bir dövlətlə, xalqla düşmənliyimiz yoxdur. Amma torpağımıza göz dikənin də layiqincə dərsini verməyi bilirik və bunu ötən il bir daha sübut etdik. Yəni istər Ermənistan rəhbərliyi, istərsə də sadə ermənilər, o cümlədən Dağlıq Qarabağda yaşayan ermənilər baş verənlərdən dərs çıxarmalıdırlar. Ermənistanın rəhbərliyi və vətəndaşları bilməlidirlər ki, yaxşı, doğru-dürüst qonşu istəyirik. Ermənistan bugünədək dövlət ola bilməyib. Erməni lobbisinin, erməni diasporunun, kilsənin nəzarətindəki terror təşkilatı kimi mövcud olub. Bundan sonra, heç olmasa, normal dövlət olmağı, qonşularına hörmət etməyi bacarsın. Cənab Prezident İlham Əliyevin də bəyan etdiyi kimi, artıq status-kvo deyilən şey yoxdur. Bu reallığı qəbul etmələri lazımdır. Onu da deyim ki, bu, əslində, Ermənistan üçün şansdır. Yəni biz əlimizi uzatdıq, qarşı tərəf bu əli sıxmalı, hətta deyərdim ki, öpməlidir. Çünki bu əldə erməni xalqı üçün çörək, gələcək, Ermənistanın bir dövlət kimi yaşamasına veriləcək dəstək var. O ki qaldı Azərbaycan vətəndaşı olan və Dağlıq Qarabağda yaşayan ermənilərə, onlar da seçim etməlidirlər. Yəni onlar da Azərbaycan vətəndaşlarıdır və bu ölkənin qanunlarına tabe olmalıdırlar. Yox, əgər Qarabağdakı ermənilər Azərbaycanın qanunları ilə yaşamaq istəməsələr, getsinlər İrəvana".



Bakı Dostluq Qrupunun mövcud fəaliyyəti və Azərbaycanla bağlı gələcəkdə atılması mümkün olan addımlara dair suala gəlincə, müsahibimiz bildirdi: "Qeyd edim ki, bir ölkədə səfir kimi fəaliyyət göstərdikdən sonra Ankaraya dönən heç bir səfirin belə qrupu yoxdur. Bunu mən yaratdım. Bakı Dostluq Qrupunda Bakıda səfir olduğum zaman mənimlə bərabər işləyən diplomatları bir yerə toplamışıq. Hər ay bir araya gəlirik. Sadəcə, pandemiya səbəbindən bu dəfə bir az gec görüşə bildik. Onlarla Azərbaycanda keçirdiyimiz günləri, Azərbaycanın inkişafını müzakirə edirik. Təxminən 8 ildir ki, bu qrup yaradılıb. Bundan sonra da qısa zaman ərzində yenidən bir araya gəlib yeni mərhələdə Azərbaycanın səsinin bütün dünyaya çatdırılmasına dəstək olacağıq. Bu məqamda cənab Prezident İlham Əliyevin, "bir millətin iki diasporu ola bilməz" – kəlamını xatırlatmaq istəyirəm. Bu fikir mənim üçün çox önəmlidir. Xüsusilə, son hadisələrdən sonra cənab Prezidentin bu çağırış xarakterli fikrinin üzərində işləmək lazımdır. Müharibə zamanı gördük ki, erməni diasporu Fransada, Amerikada, Belçikada Hollandiyada çox güclüdür. Bizim də o ölkələrdə yaşayan minlərlə soydaşımız var. Ona görə də erməni diasporunun güclü olduğu ölkələrdə onların qarşısına bir olaraq, yumruq kimi birləşərək çıxmalıyıq. Yəni diasporumuzu birləşdirməyimiz lazımdır. Bu istiqamətdə mənim üzərimə düşən vəzifə varsa, yerinə yetirməyə hazıram".

**Yeniazerbaycan.com**

# QARABAĞDAKI ERMƏNİLƏR AZƏRBAYCANIN QANUNLARI İLƏ YAŞAMAQ İSTƏMİRLƏRSƏ, GETSİNLƏR İRƏVANA...



11.03.2021

Qardaş Türkiyənin Azərbaycandakı keçmiş səfiri Hulusi Kılıçı hər kəs Azərbaycanın əsl dostu kimi tanıyır. Bu da səbəbsiz deyil. Çünki 9 il öncə Prezident İlham Əliyevin sərəncamı ilə "Azərbaycan Respublikasının Türkiyə Respublikası ilə dövlətlərarası əlaqələrinin inkişafı və möhkəmləndirilməsində xüsusi xidmətlərinə görə" "Dostluq"



ordeni ilə təltif edilən Hulusi Kılıç istər ölkəmizdə səfir kimi fəaliyyət göstərdiyi illərdə, istərsə də ondan sonra Azərbaycanın dostu olduğunu dəfələrlə təsdiq edib. "Mənim bir Vətənim Türkiyə, o biri Vətənim Azərbaycandır", – deyən Hulusi Kılıç ötən həftə yenidən Bakıda idi. Biz də onunla görüşüb istər Vətən müharibəsindəki tarixi zəfərimiz, istərsə də digər məqamlarla bağlı suallara cavab aldıq.

Suallara keçməzdən öncə onu da bildirək ki, Hulusi Kılıç Azərbaycanda səfir işləyib, geri dönəndən sonra gözəl bir ənənənin əsasını qoyub. Belə ki, Hulusi bəy səfir işlədiyi dövrdə Bakıda diplomatik korpusda fəaliyyətdə olan və sonradan ölkələrinə dönən Türkiyə vətəndaşlarını bir araya toplayaraq Bakı Dostluq Qrupu yaradıb.

Beləliklə, bizə müsahibəsində ilk olaraq Azərbaycana budəfəki səfərinin məqsədinə toxunan H.Kılıç "Öncə onu deyim ki, mən bir Vətəndən o biri Vətənə gəlmişəm. Azərbaycana budəfəki səfərim torpaqlarımızın düşmən işğalından azad olunmasından sonra gerçəkləşdi. Buraya gəlişimin səbəbi həm televiziyalarda, qəzetlərdə, saytlarda Azərbaycanın böyük zəfəri ilə əlaqədar mövqeyimi bildirməyim, həm də rəsmiləri təbrik ziyarəti ilə bağlı idi. Düzdür, pandemiya səbəbindən bir az gecikdik. Amma istər o şanlı savaş günləri, istərsə də ondan sonra həm skayp bağlantıları ilə, həm də yazılarımla zəruri olan mənəvi dəstəyi verməyə çalışdım", – dedi.

Bu səfərin onda hansı təəssürat yaratdığına dair sualı cavablandıran siyasətçi qalib Azərbaycanda olmaqdan qürur duyduğunu bildirdi: "Cənab Prezident İlham Əliyevin liderliyi, can Azərbaycan xalqımızın öz liderinin ətrafında sıx birləşməsi və Azərbaycan Ordusunun yüksək səviyyədə inkişafı, modernliyi cəmi 44 gün ərzində tarixi zəfər əldə etməyimizə səbəb oldu. Bir sözlə, torpaqlarını işğaldan azad edən Azərbaycan xalqı Prezident Ali Baş

Komandan cənab İlham Əliyevin rəhbərliyi və öz müzəffər ordusunun gücü ilə şanlı tarix yazdı. Elə bir tarix ki, uzun illər bu savaşdan, bu savaşda göstərilən qəhrəmanlıqlardan bəhs ediləcək. Təbii ki, bu müharibə günlərində başda cənab Prezident Rəcəb Tayyib Ərdoğan olmaqla, Türkiyənin dövlət və hökumət adamları, o cümlədən 7-dən 77-yə bütün vətəndaşlarımız can Azərbaycanımızın yanında oldular. Konkret olaraq sualınıza gəlincə, mənim üçün bu səfərin ayrı dəyəri var. Çünki budəfəki görüşlərim qalib ölkənin vətəndaşları, siz də daxil olmaqla qəddi dik, üzü gülən, gözləri parlayan qardaş-bacılarımla oldu. Artıq düşməni məğlub etmiş, zəfər qazanmış ölkənin vətəndaşları, qalib ölkənin rəsmiləri ilə görüşdüm. Ona görə də çox böyük xoşbəxtliklə geri dönürəm".

44 günlük Vətən müharibəsində əldə edilən zəfərin bir çox üstünlüklərinin olduğunu deyən müsahibimiz bildirdi ki, ən əsası, Azərbaycan 30 ildən sonra torpaqlarını düşmən işğalından azad etdi: "İkincisi, cənab Prezident İlham Əliyevin liderliyini və xalqın dəstəyini, Azərbaycan Ordusunun gücünü bütün dünya gördü. Üçüncüsü, Azərbaycan xalqının düşmənə qarşı, öz torpaqlarının işğaldan azad edilməsi üçün necə qəhrəmanlıqlar göstərdiyinin də hər kəs şahidi oldu. Dördüncüsü, dünya qarşı tərəfin xislətinin, dinc əhaliyə qarşı törətdiyi cinayətlərin şahidi oldu və Ermənistanın terror dövləti olduğu bir daha sübut edildi".

Onun sözlərinə görə, bütün bunların fonunda Türkiyə-Azərbaycan qardaşlığı yeni mərhələyə qədəm qoydu: "Türkiyə-Azərbaycan qardaşlığı daha da möhkəmlənəcək. Bu zəfərlə yeni körpülər salındı. Üstəlik, Türkiyədə yaşayan 83 milyon nəfər Türkiyə-Azərbaycan qardaşlığının önəmini gördü, Azərbaycanı daha yaxından tanıdı. Eyni zamanda, Azərbaycan xalqı da bir daha əmin oldu ki, yanımızda qardaş ölkə var. Bundan sonra daha fərqli olacaq. Qarabağ, işğaldan azad olunmuş torpaqlar yaşıl zona olacaq, həm Azərbaycan, həm Türkiyə, həm bölgə üçün inkişaf mənbəyinə çevriləcək. Daha gözəl Qarabağ quracağıq. Burada Türkiyə şirkətləri də çalışacaqlar, Türkiyədə necə işləyirlərsə, burada da o cür işləyəcəklər. Öz vətənlərinə xidmət etdikləri kimi burada fəaliyyət göstərəcək, işğaldan azad olunmuş torpaqlarda quruculuq işlərində ön sırada gedəcəklər. Yəni Türkiyə olaraq hər zaman olduğu kimi bundan sonra da Azərbaycanın yanında olacağıq".

Son vaxtlar Ermənistandakı bəzi revanşist qüvvələrin fəallaşmasına gəlincə, H.Kılıç bu cür addımların Ermənistana və ermənilərə yalnız ziyan vuracağını bildirdi: "Azərbaycanın Vətən müharibəsindəki tarixi qələbəsi bölgədə yeni reallıq yaradıb. Bu reallığı Ermənistanın qəbul etməsi lazımdır. Heç bir dövlətlə, xalqla düşmənliyimiz yoxdur. Amma torpağımıza göz dikənin də layiqincə dərsini verməyi bilirik və bunu ötən il bir daha sübut etdik. Yəni istər Ermənistan rəhbərliyi, istərsə də sadə ermənilər, o cümlədən Dağlıq Qarabağda yaşayan ermənilər baş verənlərdən dərs çıxarmalıdırlar. Ermənistanın rəhbərliyi və vətəndaşları bilməlidirlər ki, yaxşı, doğru-dürüst qonşu istəyirik. Ermənistan bugünədək dövlət ola bilməyib. Erməni lobbisinin, erməni diasporunun, kilsənin nəzarətindəki terror təşkilatı kimi mövcud olub. Bundan sonra, heç olmasa, normal dövlət olmağı, qonşularına hörmət etməyi bacarsın. Cənab Prezident İlham Əliyevin də bəyan etdiyi kimi, artıq status-kvo deyilən şey yoxdur. Bu reallığı qəbul etmələri lazımdır. Onu da deyim ki, bu, əslində, Ermənistan üçün şansdır. Yəni biz əlimizi uzatdıq, qarşı tərəf bu əli sıxmalı, hətta deyərdim ki, öpməlidir. Çünki bu əldə erməni xalqı üçün çörək, gələcək, Ermənistanın bir dövlət kimi yaşamasına veriləcək dəstək var. O ki qaldı Azərbaycan vətəndaşı

olan və Dağlıq Qarabağda yaşayan ermənilərə, onlar da seçim etməlidirlər. Yəni onlar da Azərbaycan vətəndaşlarıdır və bu ölkənin qanunlarına tabe olmalıdırlar. Yox, əgər Qarabağdakı ermənilər Azərbaycanın qanunları ilə yaşamaq istəməsələr, getsinlər İrəvana".

Bakı Dostluq Qrupunun mövcud fəaliyyəti və Azərbaycanla bağlı gələcəkdə atılması mümkün olan addımlara dair suala gəlincə, müsahibimiz bildirdi: "Qeyd edim ki, bir ölkədə səfir kimi fəaliyyət göstərdikdən sonra Ankaraya dönən heç bir səfirin belə qrupu yoxdur. Bunu mən yaratdım. Bakı Dostluq Qrupunda Bakıda səfir olduğum zaman mənimlə bərabər işləyən diplomatları bir yerə toplamışıq. Hər ay bir araya gəlirik. Sadəcə pandemiya səbəbindən bu dəfə bir az gec görüşə bildik. Onlarla Azərbaycanda keçirdiyimiz günləri, Azərbaycanın inkişafını müzakirə edirik. Təxminən 8 ildir ki, bu qrup yaradılıb. Bundan sonra da qısa zaman ərzində yenidən bir araya gəlib yeni mərhələdə Azərbaycanın səsinin bütün dünyaya çatdırılmasına dəstək olacağıq. Bu məqamda cənab Prezident İlham Əliyevin, "bir millətin iki diasporu ola bilməz" – kəlamını xatırlatmaq istəyirəm. Bu fikir mənim üçün çox önəmlidir. Xüsusilə, son hadisələrdən sonra cənab Prezidentin bu çağırış xarakterli fikrinin üzərində işləmək lazımdır. Müharibə zamanı gördük ki, erməni diasporu Fransada, Amerikada, Belçikada Hollandiyada çox güclüdür. Bizim də o ölkələrdə yaşayan minlərlə soydaşımız var. Ona görə də erməni diasporunun güclü olduğu ölkələrdə onların qarşısına bir olaraq, yumruq kimi birləşərək çıxmalıyıq. Yəni diasporumuzu birləşdirməyimiz lazımdır. Bu istiqamətdə mənim üzərimə düşən vəzifə varsa, yerinə yetirməyə hazıram".



## İLHAM ƏLİYEVİN CIDIR DÜZÜNDƏ YANDIRDIĞI NOVRUZ TONQALI YEREVANI YANDIRDI...



21.03.2021

Tanınmış diplomat, Azərbaycanda yeddidən yetmişə hamının sevdiyi Hulusi Kılıç Moderator.az vasitəsilə Azərbaycan xalqının Novruz bayramını təbrik edib: "Cənab prezidentin Cıdır düzündə yandırdığı Novruz tonqalı təkcə Azərbacan xalqının deyil, bütövlükdə türk dünyasının içini istisə də, Yerevanı yandırıb-yaxdı. 30 ildən sonra, nəhayət, Azərbaycan xalqı işğaldan azad edilmiş torpaqlarda can rahatlığı, könül xoşluğu ilə qalib və qürurlu şəkildə Novruz tonqalları yandırdı. Novruzun bir başqa təntənə ilə keçirildiyinə özüm Bakıda səfir olduğum zaman da şahidlik etmişəm. Ancaq hər zaman gözlərdə kədər, üzlərdə

nisgil vardı. Qarabağın işğalda qalması bu gözəl bayramı coşqu ilə qeyd etməyə imkan vermirdi.

Prezident İlham Əliyevin Cıdır düzündəki çıxışı isə çox mənalı idi və qəlblərin dərinliyinə işlədi. Xüsusilə, onun "Allah Azərbaycan xalqının dualarını eşitdi" – ifadəsi, boynuma alıram ki, məni çox kövrəltdi. Bəli, həqiqətən, aləmlərin Rəbbi belə haqsızlığı qəbul etməzdi. Çox şükür ki, 30 ildən sonra türk dünyasına belə qələbə bəxş etdi. Təbii ki, dövlət xadimlərinin cəsarətli qərarları, igid oğullarımızın misilsiz rəşadəti öz yerində və onların haqqına girmək böyük günah olardı. Amma Uca Allahın qüdrəti və Azərbaycan xalqının haqlı mücadiləsini İlham Əliyevin təbirincə desək, eşitməsi bu problemin çözülməsində həlledici amil oldu.

Can Azərbaycanın Novruz bayramını təbrik edirəm, süfrələrinizdən ruzi-bərəkət əskik olmasın, hər zaman qələbə ovqatında olasınız. Allahdan təmənnam odur ki, ən qısa zamanda işğaldan azad olunan torpaqlarda həyat qaynasın və qardaş-bacılarımız öz ata-baba yurdlarında, doğma ev-eşiklərində bayramlarını qeyd etsinlər. Azərbaycan xalqının bu bayramından Türkiyədəki 82 milyonluq qardaş-bacılarınıza da çoxluca pay düşür və biz də sevincinizə şərik olmaqla özümüzü bəxtiyar hesab edirik. Allah qiyamətə qədər bu qardaşlığın daha da möhkəmlənməsinə yardım etsin və inşallah, bu birliyə heç zaman zaval gəlməyəcək".



## BİZİM NƏYİMİZ VARSA, HAMISI AZƏRBAYCANINDIR




22.04.2021

**"Bizimlə normal qonşuluq edəcək Ermənistan istəyirik"**

Türkiyənin Azərbaycandakı sabiq səfiri Hulusi Kılıç Azvision.az-a müsahibə verib. Həmin müsahibəni təqdim edirik:

**- Hulusi bəy, Qarabağdakı 44 günlük Vətən müharibəsi həm Türkiyə-Azərbaycan, həm də türk dünyası üçün yeni reallıqlar yaratdı. Bu reallıqlardan çıxış etdikdə iki qardaş ölkə, eyni zamanda türk dünyası arasında əməkdaşlığın gələcək inkişafını necə görürsünüz?**

- Təbii ki, 44 gündə Azərbaycan şanlı tarix yazdı. Azərbaycan Prezidenti, Ali Baş Komandanın liderliyi, xalqın Prezidentə verdiyi dəstək, müasir, güclü Ordu və ən əsası, şəhidlərimizin qanı ilə torpaqları azad etdik. Qədim türk torpaqlarının 30 ilə yaxın müddətlik işğalına son qoyuldu.

44 gündə böyük zəfər dastanı yazıldı. Bu dastanı yazanlar Ali Baş Komandan İlham Əliyev, Azərbaycan xalqı, Ordusu və şəhidlərimizin qanı oldu. 2900-ə yaxın şəhidimiz var, mülki insanlar arasında 100-ə yaxın şəhidimiz olub. Bu, böyük tarixi zəfərdir və bu münasibətlə bir daha Azərbaycanı təbrik edirəm.

Təbii ki, Türkiyə hər zaman can Azərbaycanın yanında oldu. Prezidentimiz, xarici işlər, müdafiə nazirlərimiz, türk xalqı Azərbaycanın yanında olduğunu dəfələrlə bəyan etdi. Azərbaycan haqqı olduğu torpaqlarını geri aldı. Bu, çox böyük zəfər, tarixi hadisədir.

BMT Təhlükəsizlik Şurasının Qarabağa dair məlum 4 qətnaməsi var idi. Daha sonra ATƏT çərçivəsində Minsk qrupu yaradıldı. Həmsədrlər 28 il gəldilər, yedilər-içdilər və geri döndülər, bir ovuc torpağı belə bizə vermədilər. Nəticədə cənab Prezident özü münaqişəni BMT Təhlükəsizlik Şurasının qətnamələrinə uyğun olaraq həll etdi və həmsədrlər sistemini dəfn etdi. Bu iş bitdi. 10 noyabr bəyannaməsi atəşkəs razılaşmasıdır, sülh müqaviləsi deyil. Bunun sülh müqaviləsi olması lazımdır.

10 noyabr bəyannaməsi yeni reallıq yaratdı və bu reallığı Ermənistanın da qəbul etməsi lazımdır. Reallıqla barışarsa, Ermənistan inkişaf edə bilər. Prezidentlər İlham Əliyev və Rəcəb Tayyib Ərdoğan Ermənistana əlini uzatdı. Bu əli sıxmaları, hətta düşünürəm ki, bu əli öpmələri lazımdır. Çünki bu əldə çörək var, bu əl erməni xalqına çörək vermək istəyir. O səbəbdən tezliklə bunu qəbul etmələri, ilk növbədə Ermənistanın terror dövləti deyil, yaxşı qonşu olması lazımdır.

44 günlük Vətən müharibəsində Ermənistan Azərbaycanın dinc əhalisinə qarşı qadağan edilmiş bombalardan istifadə etdi. Gəncə, Bərdə və digər rayonları hədəf seçdilər, 100-ə yaxın mülki şəxs öldürüldü, çox sayda ev dağıdıldı. Bunları insanlıq, tarix gördü. Bunun da hesabını vermək lazımdır. Çünki onlar müharibə cinayəti törədiblər. Ermənistanın bundan sonrakı dönəmə baxması vacibdir. Regionda 3+3 əməkdaşlıq platforması irəli sürülüb. Bu, önəmlidir və Ermənistan platformaya qatılsa, qazanc əldə edəcək. Ona görə də Ermənistanın ağlını başına yığması, kilsə və diasporun təzyiqlərindən qurtulması önəmlidir.

Bizimlə qonşuluq edəcək Ermənistan istəyirik. Türkiyədə 100 minə yaxın Ermənistan vətəndaşı işləyir, pul qazanır və ölkəsinə göndərir. 60 minə yaxın da erməniəsilli vətəndaşımız var və onlar sülh içində yaşayırlar. Eyni şəkildə Azərbaycanda 30 minə yaxın erməniəsilli şəxsin yaşadığını bilirik. Təəssüf ki, Ermənistanda bir türk, bir Azərbaycan vətəndaşı da yoxdur. Bu, çox düşündürücü haldır. Ona görə də ilk növbədə zaman itirmədən Ermənistanın bizimlə əməkdaşlıq etməsi, Zəngəzur dəhlizinin bir an öncə açılıb fəaliyyət göstərməsi lazımdır. Bu, bölgəyə inkişaf gətirəcək. Biz Ermənistana əlimizi uzatdıq, bu əl indi havadadır və onlar cavab verməyə gecikməməlidir. Çünki bu əl bir daha uzanmaya bilər.

**- Zəngəzur dəhlizini qeyd etdiniz. Prezident İlham Əliyev öz çıxışında bildirdi ki, Zəngəzur dəhlizinin yaradılması bizim milli, tarixi və gələcək maraqlarımıza tam cavab verir və dəhlizi açacağıq. Bu dəhlizin açılmasının türk dünyasının birləşdirilməsi baxımından əhəmiyyəti barədə nə deyə bilərsiniz?**

- Zəngəzur Azərbaycanımızındır. 1920-ci ildə Ermənistana verilib. Bu, tarixi Azərbaycan torpağıdır. Yəni Zəngəzur dəhlizi Azərbaycan və Türkiyəni, türk dünyasını birləşdirəcək. Buna böyük önəm veririk. Necə ki ermənilər Laçın dəhlizindən istifadə edirlər, kommunikasiyaların, nəqliyyat xətlərinin açılması da eləcə önəmlidir. 11 yanvar Moskva razılaşması da bunu nəzərdə tutur. Ona görə də

vaxt itirmək olmaz. Ermənistan tərəfindən edilən intiqam, revanşist açıqlamalar onlara heç nə qazandırmayacaq. İşi çətinləşdirmək istəyirlər, çətinləşdirməsinlər. Buyursunlar, gəlsinlər, bizimlə əməkdaşlıq etsinlər, bundan qazanacaqlar.

**- Ermənistan mina xəritələrini Azərbaycana verməkdən imtina edir. Bilirsiniz ki, işğaldan azad edilən ərazilərimizdə bir çox mülki şəxslər, həm də hərbçilər minaya düşərək həyatlarını itirib və ağır yaralanıblar...**

- Bu, insanlıq əleyhinə müharibə cinayətidir. Mina xəritələri dərhal Azərbaycana verilməlidir. Ermənistanın arxasındakı güclər bunu etməlidirlər. Rusiya, Fransa qarşı tərəfə təzyiq göstərməlidir. ATƏT nə iş görür? Adı Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatıdır. Haradadır təhlükəsizlik? İnsanlar ölürlər, bir insanın ölümü belə, böyük itkidir. Ona görə də xəritələr təcili verilməlidir.

**- İyun ayında Ermənistanda erkən parlament seçkiləri keçiriləcək. Vaxtilə hakimiyyətdə olan, cinayətkar rejimlərə rəhbərlik etmiş şəxslər, məsələn Robert Koçaryan və digərləri yenidən hakimiyyətə gəlmək niyyətlərini ortaya qoyublar və artıq revanşist, müharibə bəyanatları səsləndirirlər. Ermənistanda hakimiyyət dəyişikliyi olarsa, bu, Qarabağda əldə edilmiş razılaşmalara necə təsir göstərə bilər?**

- Düşünürəm ki, razılaşmalar olduğu kimi davam edəcək, yəni dəyişməyə cəsarət etsələr, İrəvan daha artığını itirəcək. Bu anlaşmanın arxasında Rusiya Federasiyası var. Dövlətlərin imzaladığı anlaşmalar hakimiyyətə kim gəlirsə-gəlsin, qalıcıdır, yerinə yetirilmədiyi təqdirdə cəzasını çəkəcəklər. Ordusunun 80 faizi məhv edilmiş, insanları ümidsiz, iqtisadiyyatı çökmüş Ermənistan nə edəcək, bilmirəm. Buna "boş sözlər" deyirik. Sadəcə, lazımsız, boş mesajlardır. Gəlsinlər, Hərbi Qənimətlər Parkına baxsınlar, hələ orada hərbi texnikalarının bir hissəsi sərgilənir. Türkün səbrini sınamasınlar. Sınayanda nəticə belə olur. 30 il bu məsələni sülh yolu ilə həll etmək istədik, danışıqlar apardıq, amma gördük ki, 30 il boşa gedib. Həmsədrlər günahkardırlar, bu ölkənin 28 ilini oğurladılar. Nə etdilər? Heç nə. Nə etdiklərini desinlər, biz də deyək ki, səhv etmişik. Mən Bakıda səfir olanda da gəldilər, görüşdük. Amma gördüm ki, bunun sonu yoxdur, 4 qətnamə var, ATƏT-in qərarları mövcuddur. Bu işi görmək o qədər asan idi ki... Amma təəssüf ki, etmədilər. Fransanın müharibə müddətində tərəf tutduğunu gördük. Fransa özünün günahkar olduğunu göstərdi. Nəticə budur.

Azərbaycan bölgənin ulduzudur və daha da irəli gedəcək. Bu gün Azərbaycan Ordusu türk ordusunun kiçik modelidir. Böyük olması şərt deyil, modern olsun. Azərbaycan Ordusunun PUA-larla tankları necə məhv etdiyini dünya gördü. Bizdə olan nə varsa, Azərbaycanındır, bunu hər kəs bilsin. Azərbaycanda olanlar da Türkiyənindir. Biz bir millət, iki dövlətik, zaman-zaman bir millət bir dövlət kimi işləyəcəyik, bir ordu bir mətbuat, bir diaspor olacaq. Artıq gücümüz birləşir, o baxımdan ağıllarını başına yığıb bizimlə əməkdaşlıq etsinlər.

**- Hərbi Qənimətlər Parkı ilə bağlı Azərbaycana qarşı bəzi iddialar səsləndirildi. Bu barədə fikirlərinizi bilmək maraqlı olardı?**

- Bu, Azərbaycan xalqının haqqıdır. 30 il Azərbaycan torpaqları işğalda saxlanılıb. Həmin park böyük zəfərin nəticəsidir. Buna bənzər başqa ölkələrdə də parklar, muzeylər var. Ona görə də kimsə buna yan gözlə baxmasın. Bu park ilk növbədə şəhidlərə böyük hörmətdir, orduya, xalqa mənəvi gücdür. Bu baxımdan Azərbaycanımızın etdiyi hər şey doğrudur. Biz onun arxasındayıq.

**- Hulusi bəy, türk dövlətlərinin birləşdiyi Türk Şurasının gələcəyini necə görürsünüz?**

- Türk Şurası 44 günlük Vətən müharibəsində Azərbaycanın yanında olduğunu bir neçə dəfə bəyan etdi. Bu, çox önəmli idi. Sonuncu dəfə 31 martda qeyri-rəsmi Zirvədə müharibə barədə danışıldı və dəstək ifadə edildi. Türk Şurası artıq beynəlxalq təşkilata çevrilir - Türk Dövlətləri Təşkilatı olur. Qarşıdakı zirvədə qərar veriləcək. Bu baxımdan Türk dünyasının gələcəyini çox yaxşı görürəm. Azərbaycanla Türkiyənin əməkdaşlığı digər türk dövlətlərini də cəsarətləndirdi. Bu, önəmlidir. Özbəkistandan, Qazaxıstandan baxdıqda, çox əhəmiyyətli inkişaf görürük.

Bu Vətən müharibəsinin bizə qazandırdıqları nədir? Birincisi, Azərbaycanın güclü lideri, sinəsini qadağan edilmiş bombalara açan xalq, şəhidini çiynində son mənzilə yola salan xanım, güclü Ordu, bayraq, Vətən, torpaq, lider sevgisi olan millət var. Bura mən türk xalqı ilə Azərbaycan xalqı bir-birini daha yaxından tanımasını da əlavə edərdim. Bu, gələcək üçün çox böyük ümid yaradır.

Türkiyədə Azərbaycanı tanımayanlar var idi. Müharibə günlərində hamısı Azərbaycanı tanıdı. Eyni şəkildə Azərbaycan xalqı da türk xalqını tanıdı. Bundan başqa, iki dövlət arasındakı etimad artdı, liderlər qardaşlıq nümunəsi göstərdi. Türkiyə ilə Azərbaycan əkiz qardaşdır, digər türk dövlətləri də qardaşlarımızdır. Bu qardaşlıq bundan sonra daha möhkəm olacaq, Qarabağ inkişaf edəcək. Qarabağda yollar salınır, Füzuli hava limanı tikilir, türk şirkətləri burada iştirak edirlər. Türk şirkətləri dünyada Çindən sonra öz işinə, sürətli fəaliyyətinə görə ikinci sıradadır. Türkiyə öz təcrübəsini hər zaman Azərbaycanla bölüşməyə hazırdır. Şirkətlərimiz Türkiyədə necə işləyirlərsə, burada da elə işləyəcəklər.



**- Qarabağ müharibəsində "İsgəndər" raketlərindən istifadə edildiyi təsdiqləndi. Amma məsələyə hələ rəsmi səviyyədə aydınlıq gətirilməyib. Sizcə, günahkar tərəf bunu etiraf edəcək?**

- Rusiya inkar edir, Ermənistan əvvəlcə "atdıq" dedi, daha sonra inkar etdi. Raket özbaşına göydən düşməyib ki?! Yəni kim atıbsa, hesabını verməlidir. Raketin savaş bitdikdən sonra atılması müharibə cinayətidir.

# TÜRKİYƏNİN ÖLKƏMİZDƏKİ "DOSTLUQ" ORDENLİ SABİQ SƏFİRİ YENİDƏN AZƏRBAYCANA XİDMƏTDƏ...



29.04.2021

Xəbər verildiyi kimi bir neçə gün əvvəl Qarabağda savaş suçlarının araşdırılması komissiyası yaradıldı. Bu komissiyada Azərbaycan və Türkiyədən başqa ABŞ, Rusiya, Fransa, Almaniya, İngiltərə, Belçika, İspaniya, Portuqaliya, Ukrayna, Maldivlər, Misir, Sloveniya, Səudiyyə Ərəbistanı, Qatar, Küveyt, Birləşmiş Ərəb Əmirlikləri, İordaniya, Bəhreyn, İran, İraq, Fələstin, Əlcəzair, Fars, Tunis, Sudan, Kamerun, Fil Dişi sahili, Niger, Nigeriya, KKTC kimi ölkələrdən təmsilçilər var.

Komissiya Dünya Türk Yazarlar Birliyi başçısı Salih Kurt və İslam Ölkələri Alimlər Birliyinin baş direktoru, professor doktor Bayram Altan tərəfindən quruldu. Artıq komissiya üzvlərinin sayı 110-u keçib. Komissiyanın tərkibində 33 ölkədən sabiq baş nazirlər, sabiq nazirlər, yüksək məhkəmə başçıları, indiki sabiq səfirlər, alimlər, hüquq müdafiəçiləri, hərbi ekspertlər, tarixçilər, sənətçilər, psixoloqlar, hərbi jurnalistlər, nüfuzlu media kapitanları, Türkiyə Prezidentinin baş müşaviri, çox sayda universitet rektorlarından ibarət bir güclü heyət formalaşıb.

Komissiya üzvlərindən biri də Azərbaycanda yeddidən yetmişə hər kəsin tanıdığı və sevdiyi Hulusi Kılıçdır. Türkiyənin Azərbaycandakı sabiq səfiri olsa belə, bir gün də olsun Azərbaycanla əlaqələrini kəsməyən, hər zaman ürəyi Azərbaycanla döyünən Hulusi bəy Moderator.az-a açıqlamasında deyir ki, bu komissiya ermənilərin iç üzünü bir daha ifşa edərək dünyaya çatdırılmasında çox böyük bir addım olacaq:

"Bu komissiya 44 gün sürən Vətən müharibəsi sırasında erməni ordusu tərəfindən dinc əhaliyə qarşı törədilən hücumları, Bərdə və Gəncəyə atılan ballistik raketləri, azərbaycanlılara qarşı törədilən müxtəlif müharibə və insanlıq cinayətlərini araşdıracaq, eyni zamanda, ermənilərin ekologiyaya vurduğu zərərlər, dini, tarixi abidələrə divan tutulması da incələnəcək, bu vəhşiliklər dünya ictimaiyyətinə çatdırılacaq".

Yeri gəlmişkən, komissiyanın üzvü, tanınmış hüquqçu Adil Minbaşı da Hulusi Kılıç haqqında diqqətçəkən sözlər yazıb: "Türkləri təmsil edən bütün səfirləri sevirik, hamısının gözümüzün üstündə yeri var. Ancaq hörmətli Hulusi Kılıçın yeri fərqlidir. Türkiyə ilə Azərbaycanın əlaqələrinin möhkəmlənməsində, daha uğurlu nəticələrin əldə olunmasında onun ölçüyəgəlməz xidmətləri vardır. O, sıradan bir səfir deyil. Hulusi Kılıç bizim tariximizin və qəlbimizin zəfər elçisidir. İnşallah, hər zaman olduğu kimi komissiyadakı fəaliyyəti də uğurlu olar".

# MÜNDƏRİCAT


ÖN SÖZ ... 7

ERMƏNİSTAN DÜNYA İCTİMAİYYƏTİNİN DİQQƏTİNİ MÜNAQİŞƏNİN ƏSL MAHİYYƏTİNDƏN YAYINDIRMAQ İSTƏYİR ... 10

AZƏRBAYCAN XALQI MİLLİ ORDUNUN YANINDADIR ... 12

TÜRKİYƏ VƏ AZƏRBAYCAN BİR MİLLƏT, İKİ DÖVLƏT OLDUĞUNU DÜNYAYA AÇIQ ŞƏKİLDƏ GÖSTƏRDİ ... 14

AZƏRBAYCAN VƏ TÜRKİYƏ DİASPORLARI ERMƏNİLƏRİN HÜCUMLARI NƏTİCƏSİNDƏ YARANMIŞ GƏRGİN VƏZİYYƏTDƏ BİRGƏ HƏRƏKƏT ETMƏLİDİRLƏR ... 17

CİSMİM TÜRKİYƏDƏ OLSA DA, AĞLIM, RUHUM AZƏRBAYCANDADIR ... 20

GÖRÜNƏN ODUR Kİ, İŞĞALÇI TORPAQLARDAN ÖZ XOŞU İLƏ ÇIXMAQ NİYYƏTİNDƏ DEYİL ... 23

ONLAR DAĞLIQ QARABAĞDA QORXU İÇİNDƏ YAŞAYACAQLAR ... 25

ERMƏNİSTANDAN QAÇMAQ İSTƏYƏN ƏHALİYƏ MESAJ VERİRLƏR Kİ, SİZİN YERİNİZƏ GƏLMƏK İSTƏYƏN ERMƏNİLƏR VAR ... 27

İLHAM ƏLİYEVİN TÜRKİYƏYƏ DƏSTƏYİ QARDAŞLIQ MÜNASİBƏTLƏRİMİZİN NƏ QƏDƏR MÖHKƏM OLDUĞUNU BİR DAHA GÖSTƏRDİ ... 29

AZƏRBAYCAN-TÜRKİYƏ QARDAŞLIĞININ YÜKSƏLDİYİ MƏRTƏBƏ QÜRURVERİCİDİR ... 31

ERMƏNİSTAN BEYNƏLXALQ HÜQUQUN BÜTÜN DƏYƏRLƏRİNİ AYAQ ALTINA ATIR ... 37

İLHAM ƏLİYEVİN QƏTİYYƏTLİ MÖVQEYİ ERMƏNİSTANIN İŞĞALÇILIQ SİYASƏTİNƏ SON VERİLMƏSİ ÜÇÜN TARİXİ İMKAN YARADIB ... 39

AZƏRBAYCANIN QƏLƏBƏSİ REGİONDA İNTİBAH YARADACAQ ... 41

BİRLİYİMİZ BÖLGƏDƏKİ DİGƏR ÇİRKLİ İŞLƏRLƏ MƏŞĞUL OLAN QÜVVƏLƏRİ NARAHAT EDİR ... 44

GƏNCƏNİ, DİNC ƏHALİNİ ATƏŞƏ TUTMAQ ERMƏNİSTANIN TERRORÇU MAHİYYƏTİDİR ... 47

QARABAĞ AZƏRBAYCANDIR! ... 49

ATƏŞKƏS XAHİŞ EDƏNLƏR 30 İLDİR, HARADAYDILAR? ... 51

ERMƏNİSTANIN HAZIRKI MAHİYYƏTİ MÜHARİBƏ CİNAYƏTKARLIĞIDIR ... 53

ERMƏNİSTANIN GƏNCƏYƏ HÜCUMUNA GÖZ YUMMAQ MÜHARİBƏ CİNAYƏTLƏRİNƏ ŞƏRİK OLMAQ DEMƏKDİR ... 55

PUTİN MÖVQEYİNDƏ SƏMİMİDİRSƏ, PROBLEMİN HƏLLİNƏ TÜRKİYƏNİN TÖHFƏ VERƏCƏYİNƏ İNANIRSA... ... 57

ERMƏNİSTANA MƏSLƏHƏT GÖRÜRƏM Kİ, BİR DAHA NAXÇIVAN TƏRƏFƏ BOYLANMASIN ... 59

ERMƏNİSTAN TƏRTƏRDƏ DİNC AZƏRBAYCANLILARI QƏTLƏ YETİRMƏKLƏ, "MƏNİ CİNAYƏT TÖRƏTMƏK ÜÇÜN YARADIBLAR" – DEYİR ... 61

ATƏŞKƏS ÜÇÜN YALVARAN, DİGƏR DÖVLƏTLƏRİN DABANLARINI YALAYAN MİLLƏTİN ETDİKLƏRİNİN ŞAHİDİYİK ... 63

BU MASADA TÜRKİYƏNİN OLMASI MÜTLƏQDİR ... 65

ERMƏNİSTAN QANUNSUZ MƏSKUNLAŞDIRMA İLƏ AZƏRBAYCANA QARŞI DAHA BİR BEYNƏLXALQ CİNAYƏT TÖRƏDİB ........ 68

İŞĞAL ALTINDAKI TORPAQLARA QOVUŞMAQ UZAQDAKI SEVGİLİYƏ QOVUŞMAĞA BƏNZƏYİR ........ 70

TÜRK HƏRBÇİLƏR QARABAĞDA PROSESƏ NƏZARƏT EDİR ........ 72

QAZANDIĞI QƏLƏBƏ CAN AZƏRBAYCANIN GÜCÜNƏ GÜC QATDI ........ 75

QARABAĞ YENİDƏN AZƏRBAYCANIN MÖHTƏŞƏM MƏDƏNİYYƏT MƏRKƏZİNƏ ÇEVRİLƏCƏK ........ 77

ATƏT-İN MİNSK QRUPUNUN HƏMSƏDRLƏR SİSTEMİ TORPAĞA GÖMÜLDÜ... ........ 81

ŞUŞA QAFQAZIN İNCİSİ, ƏSL MƏDƏNİYYƏT ŞƏHƏRİDİR ........ 84

FRANSA SENATI ERMƏNİ LOBBİSİNİN ƏLİNDƏ OYUNCAĞA ÇEVRİLİB ........ 88

SENATIN QƏRARI AZƏRBAYCAN VƏ TÜRKİYƏYƏ QARŞI DÜŞMƏNLİKDİR ........ 90

İLHAM ƏLİYEVİN ZƏFƏR GÜNÜ İLƏ BAĞLI QƏRARI TƏQDİRƏLAYİQDİR ........ 92

ERMƏNİSTAN MÖVCUD REALLIQLARI QƏBUL EDİB ƏMƏKDAŞLIQ YOLUNU TUTMALIDIR ........ 94

ZƏFƏR PARADI İKİ QARDAŞ ÖLKƏ ARASINDAKI HƏMRƏYLİYİN ƏN YÜKSƏK ZİRVƏSİ İDİ ........ 96

27 İLİMİZİ GİZLİ-GİZLİ "YEYƏN" BU HƏMSƏDRLƏR BAKIYA HANSI ÜZLƏ GƏLİR?.. ........ 99

İLHAM ƏLİYEV YÜKSƏK LİDERLİK KEYFİYYƏTLƏRİ, CƏSARƏTLİ QƏRARLARI İLƏ SEÇİLƏN PREZİDENT, MÜZƏFFƏR ALİ BAŞ KOMANDANDIR ........ 101

KEÇMİŞ SƏFİR RUSİYANI FAKT QARŞISINDA QOYDU ........ 103

HƏMSƏDRLİK İNSTİTUTU DƏFN EDİLDİ, ONLARI DİRİLTMƏK CƏHDİ VAXT İTKİSİDİR... ........ 108

"QARABAĞ AZƏRBAYCANDIR VƏ NİDA" İFADƏSİ ƏSRLƏR BOYU ÖZ HİKMƏTİNİ QORUYACAQ ZƏFƏR ŞÜARINA ÇEVRİLİB ........ 110

ERMƏNİLƏR TÜRKİYƏ VƏ AZƏRBAYCANIN UZATDIĞI BARIŞ ƏLİNİ NƏİNKİ SIXMAĞA, HƏTTA ÖPMƏYƏ HAZIR OLMALIDIRLAR... ........ 112

BUNDAN SONRA BİR MİLLƏT, BİR ORDU, BİR DİASPOR OLACAQ ........ 115

10 NOYABR BƏYANNAMƏSİ STATUS-KVONU YOX ETDİ ........ 117

İLK GÜNDƏN 40 MİKRAFONUN QARŞISINDA "QARABAĞ UĞRUNDA ŞƏHİD OLMAĞA HAZIRAM" – DEMİŞƏM ........ 119

QALİB AZƏRBAYCANDA OLMAQDAN QÜRUR DUYDUM... ........ 126

QARABAĞDAKI ERMƏNİLƏR AZƏRBAYCANIN QANUNLARI İLƏ YAŞAMAQ İSTƏMİRLƏRSƏ, GETSİNLƏR YEREVANA... ........ 132

İLHAM ƏLİYEVİN CIDIR DÜZÜNDƏ YANDIRDIĞI NOVRUZ TONQALI YEREVANI YANDIRDI... ........ 137

BİZİM NƏYİMİZ VARSA, HAMISI AZƏRBAYCANINDIR ........ 139

TÜRKİYƏNİN ÖLKƏMİZDƏKİ "DOSTLUQ" ORDENLİ SABİQ SƏFİRİ YENİDƏN AZƏRBAYCANA XİDMƏTDƏ... ........ 146

Çapa imzalanıb: 05.06.2021
Formatı: 70x100 1/8. Ofset çapı
Həcmi: 38
Sifariş № 406

Tel: (+99470) 523 01 34
www.hedefnesrleri.az